


Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

BDU

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti — 30 sentyabr 2024-cü il


# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


BDU ilə "Bir kəmər və bir yol" Təşəbbüsü Beynəlxalq Yaşıl İnkişaf Koalisiyası arasında əməkdaşlıq genişlənir ➔Səh.2

BDU Elmi Şurasının yeni tədris ilində ilk iclası ➔Səh.5

Çin Sosial Elmlər Akademiyasının nümayəndələri BDU-da ➔Səh.5

BDU-nun nəzdində "Gənc istedadlar liseyi"ndə şəhidlərin xatirəsi anılıb ➔Səh.6

BDU-da Dövlət Suverenliyi Günü ilə bağlı tədbirlər keçirilib ➔Səh.8

Zəfər tariximizə qızıl hərflərlə yazılan gün ➔Səh.11

BDU – 105: Ölkəmizdə yüksəkixtisaslı kimyaçılar hazırlayan əsas elmi mərkəz ➔Səh.12

BDU-nun "Acta Botanica Caucasica" jurnalı daha bir nüfuzlu bazaya daxil edilib ➔Səh.19





BDU ilə Təhsilin İnkişafı Fondu arasında "TələbəPlus" kartı ilə bağlı müqavilə imzalanıb ➔Səh.2





BDU ilə QS arasında müqavilə imzalanıb ➔Səh.2





BDU-da Anım Günü ilə bağlı kitab sərgisi ➔Səh.2





"Ümummilli Lider: Heydər Əliyev mühazirələri" layihəsinin növbəti görüşləri ➔Səh.5





BDU-nun nəzdində "Gənc istedadlar" liseyində, İqtisadiyyat və Humanitar Kollecdə və Qazax filialında Bilik Günü ➔Səh.24





## Bakı Dövlət Universiteti – 105

***Bu gün xalqımızın elm və təhsil tarixində, milli mədəniyyətimizin və ictimai fikir tariximizin inkişafında yeni mərhələnin başlanğıcı sayılan əlamətdar gündən 105 il ötür. 1919-cu ilin 1 sentyabrında çətin, mürəkkəb, eyni zamanda, taleyüklü bir şəraitdə Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentində Bakı Dövlət Universitetinin (BDU) təsisi haqqında qanun qəbul edildi.*** BDU Cümhuriyyət dövründə çox qısa zaman ərzindəki fəaliyyəti ilə, sovet hakimiyyəti illərində bütün təqib və təzyiqlərə rəğmən xalqımızın milli şüurunun formalaşmasında, ölkəmizdə elm və təhsilin inkişafında bir məbəd kimi müstəsna rol oynadı. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bu missiya daha böyük uğurlarla və daha böyük miqyasda davam etdirilir.

BDU-nun zəngin inkişaf tarixinə nəzər yetirdikdə onun əsas uğurlarının və tərəqqi mərhələlərinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu görürük. Ulu Öndər Heydər Əliyev həm ötən əsrin 70-ci illərindən başlayaraq, həm də müstəqillik illərində ölkəyə rəhbərlik etdiyi dövrlərdə BDU-ya xüsusi qayğı ilə yanaşıb, universiteti elm və təhsilimizin flaqmanı, eyni zamanda, milli oyanışın mərkəzi kimi qiymətləndirib. Bu gün 105 illik yubileyini qeyd edən BDU kollektivi Ulu Öndərin bu xidmətlərini minnətdarlıqla yad edir, universitetimizin dünyaşöhrətli məzunu ilə qürur duyur. 105 illik yubileyin zirvəsindən ötən yubileylərə nəzər saldıqda görürük ki, universitetimizin yubileylərinin təntənəli şəkildə qeyd olunması ənənəsini Ümummilli Lider Heydər Əliyev qoyub.

İlk ali təhsil ocağımızın 50 illik təntənəli yubiley tədbirləri məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və müdrik rəhbərin bu tədbirlərə şəxsən rəhbərlik etməsi ilə keçirilib. BDU-nun 50 illik yubiley tədbirində, sovet təbliğatının ən kəskin dövründə Ulu Öndər Heydər Əliyevin böyük cəsarət nümayiş etdirərək ana dilimizdə çıxış etməsini bu gün də xalqımız ehtiram və minnətdarlıqla xatırlayır. Ulu Öndər həmin tarixi hadisəni yada salaraq deyirdi: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu – nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir... Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlıqlarını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər".

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra BDU Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində inkişafının yeni və daha parlaq mərhələsinə qədəm qoydu. BDU kollektivi ötən il universitetimizin dünyaşöhrətli məzunu, "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, onu "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandıran Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini böyük hörmətlə, müdrik rəhbərimizə sonsuz minnətdarlıqla qeyd etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə "Heydər Əliyev İli" elan olunmuş 2023-cü ildə hər zaman Ulu Öndərin irsinin təbliğini, bu irsin gənc nəslə aşılanmasını özünün ali məqsədlərindən biri hesab edən BDU kollektivi bu istiqamətdə səylərini daha da artırıb, universitetdə bu məqsədlə silsilə tədbirlər keçirilib.


*(Ardı 3-cü səhifədə)*



BDU-da Anım Günü qeyd olunub ➔Səh.6

# BDU ilə Təhsilin İnkişafı Fondu arasında "TələbəPlus" kartı ilə bağlı müqavilə imzalanıb

***Sentyabrın 11-də BDU ilə Təhsilin İnkişafı Fondu (TİF) arasında "TələbəPlus" layihəsi çərçivəsində əməkdaşlıq müqaviləsi imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və TİF-in İdarə Heyətinin sədri Elnur Nəsibov imzalayıb.

İmzalanma mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, yarandığı gündən Təhsilin İnkişafı Fondu təhsil müəssisələrində ideyaların reallaşdırılmasına böyük dəstək göstərir: "2021-ci ildən fəaliyyət göstərən Fond ölkədə elm və təhsil istiqamətində mühüm işlərin görülməsində yaxından iştirak edir. BDU da bu prosesə daim öz töhfəsini verir. Elm və Təhsil Nazirliyinin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun dəstəyi ilə icra olunan "Maarifçi" tələbə-məzun təcrübə proqramını başa vuraraq, nazirliyin müxtəlif strukturlarında əmək fəaliyyətinə başlayan 9 nəfərdən 3-nün BDU-nun məzunu olması da bunun əyani göstəricisidir. Təhsilin İnkişafı Fondu və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı ilə "Gənc qızların təhsilinə dəstək" layihəsi də qızlarımızın inkişafı baxımından böyük layihədir. Fond tərəfindən IELTS imtahanında iştirak edən və yüksək bal toplayan tələbələrin bu imtahan üzrə ödənişlərinin Təhsilin İnkişafı Fondu tərəfindən vahid layihə əsasında qarşılanması, onlardan 17-sinin BDU tələbəsi olması da sevindiricidir. Fond Dayanıqlı İnkişaf Məqsədləri və IV sənaye inqilabı çərçivəsində də müxtəlif işlər görür və biz BDU olaraq bu istiqamətdə də birgə işlər görməyə hazırıq".



BDU ilə "Kapital Bank"ın birgə əməkdaşlığından da söz açan rektor vurğulayıb ki, digər ölkələrdə istifadə olunan bu təcrübənin birgə layihə əsasında ölkəmizdə tətbiqi təqdirəlayiq addımdır və imzalanan əməkdaşlıq müqaviləsi real işlərə hədəflənib: "İnanıram ki, yeni tələbə kartı özəllikləri ilə fərqlənəcək. Tələbələr üçün müxtəlif xidmətlərdən istifadəni rahatlaşdıracaq və genişləndirəcək".

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov Fondun əsas missiyasının təhsilin dayanıqlı inkişafına nail olmaq, cəmiyyətə fayda vermək, dövlətin təhsil siyasətinin təmin edilməsində yaxından iştirak etmək olduğunu bildirib. Qeyd edib ki, "TələbəPlus" layihəsi çərçivəsində müxtəlif alış-veriş və iaşə obyektlərində tələbələrin güzəştlər əldə etməsi üçün Fondun öz tərəfdaşları ilə birlikdə 250-dən çox şirkətlə razılaşma əldə edilib. Bundan əlavə, Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi ilə müəyyən istiqamətlərdə tələbələr üçün xüsusi güzəştlər nəzərdə tutulur. Hazırda ictimai nəqliyyatda da güzəştlərin tətbiq edilməsi ilə bağlı müzakirələr davam etdirilir. İlkin mərhələdə 150 min tələbə kartının istifadəyə verilməsi planlaşdırılır. Sonradan layihə özəl təhsil müəssisələri, kollec və peşə təhsili müəssisələrinin təhsilalanları üçün də mərhələli şəkildə icra ediləcək: "Oktyabr ayının sonundan "TələbəPlus" kartları ilkin istifadəyə veriləcək".

# BDU ilə QS arasında müqavilə imzalanıb

***Sentyabrın 17-də BDU-nun rektoru Elçin Babayev dünyanın ən nüfuzlu reytinq təşkilatı olan "Quacquarelli Symonds"un (QS) regional direktoru Sergey Xristolyubovla görüşüb.***

Görüşdə rektor son illərdə BDU-nun rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində görülmüş işlərə və qarşıda duran hədəflərə dair geniş məlumat verib.

QS-in regional direktoru Sergey Xristolyubov rektor Elçin Babayevi BDU-nun böyük uğura imza atmaqla "QS World University Rankings 2025"də 179 pillə irəliləyərək, 951-1000 aralığında qərarlaşması və ölkədə lider mövqeyinə yüksəlməsi münasibəti ilə təbrik edib. Eləcə də BDU-nun "QS Avropa 2025" reytinqində ötən illə müqayisədə 78 pillə irəliləyərək, 336-cı mövqeyə yüksəlməsi, "QS Qərbi Asiya 2025" reytinq siyahısında 4 pillə irəliləyərək, 93 universitet arasında 15-ci mövqedə qərarlaşması ilə böyük uğura imza atdığını vurğulayıb.



Görüşün sonunda BDU ilə QS arasında "QS Stars" reytinq qiymətləndirilməsinə qoşulmaq, eləcə də QS-in reputasiya sorğularının analitik məlumat bazasına çıxış əldə etmək məqsədi ilə əməkdaşlıq müqaviləsi imzalanıb.

Məlumat üçün bildirək ki, "QS Stars" beynəlxalq səviyyədə tanınmış keyfiyyət nişanıdır.

# BDU ilə "Bir kəmər və bir yol" Təşəbbüsü Beynəlxalq Yaşıl İnkişaf Koalisiyası arasında əməkdaşlıq genişlənir

***Sentyabrın 21-də BDU rəhbərliyi ilə "Bir kəmər və bir yol" Təşəbbüsü Beynəlxalq Yaşıl İnkişaf Koalisiyasının (BRIGC) nümayəndələri arasında görüş keçirilib.*** Görüş zamanı BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində əməkdaşlıq imkanları, birgə elmi tədqiqat və araşdırmaların aparılması müzakirə edilib.

Görüşdə COP29 zamanı birgə stendlərin təşkili, yaşıl inkişafa dair layihələrin təqdimatı üçün əməkdaşlıq imkanları dəyərləndirilib. BDU və BRIGC nümayəndələri COP29 çərçivəsində qlobal əhəmiyyətli problemlərin həlli üçün birgə təkliflərin irəli sürülməsi və təcrübə mübadiləsi məqsədilə əməkdaşlığın gücləndirilməsi ilə bağlı razılığa gəliblər.

Görüş zamanı iki qurum arasında iqlim dəyişikliyi, bərpa olunan enerji mənbələri, enerji səmərəliliyi, ətraf mühitin qorunması və dayanıqlı inkişaf kimi qlobal əhəmiyyətli məsələlər üzrə birgə tədqiqatların aparılması müzakirə edilib. Bu istiqamətdə birgə akademik məqalələrin yazılması və nəticələrin beynəlxalq platformalarda yayılması planlaşdırılıb. Tərəflər həmçinin Universitetin tələbə və tədqiqatçılarına qrantların verilməsi və beynəlxalq tədqiqat proqramlarına inteqrasiyasını da müzakirə ediblər.

Görüş çərçivəsində BDU tərəfindən yaxın gələcəkdə yaradılması planlaşdırılan EKO Park layihəsi ətrafında geniş fikir mübadiləsi aparılıb. Layihə çərçivəsində yaşıl texnologiyalar, ekoloji təhsil və davamlı inkişaf sahələrində BRIGC ilə əməkdaşlıq müzakirə edilib. BRIGC nümayəndələri EKO Parkda ekoloji maarifləndirmə və ekosistemlərin qorunması mövzusunda birgə "workshop"ların keçirilməsi, tələbə və gənc tədqiqatçılar üçün xüsusi təlimlərin təşkili imkanlarını nəzərdən keçiriblər.

Qeyd edək ki, BRIGC Çin Xalq Respublikasının təşəbbüsü ilə 2019-cu ildə yaradılmış beynəlxalq koalisiyadır. Koalisiya "Bir kəmər və bir yol" (Belt and Road Initiative - BRI) təşəbbüsünün davamlı və yaşıl inkişafını təmin etmək məqsədilə qurulub. BRIGC müxtəlif ölkələrdən hökumətlər, beynəlxalq təşkilatlar, özəl sektor nümayəndələri və qeyri-hökumət təşkilatlarını bir araya gətirərək iqlim dəyişikliyi, ekoloji problemlərin həlli, təmiz enerji və davamlı inkişaf sahələrində qlobal əməkdaşlıq üçün platforma yaradır.

Koalisiyanın əsas məqsədi BRI çərçivəsində həyata keçirilən layihələrin ekoloji cəhətdən səmərəli və dayanıqlı olmasını təmin etmək, bərpa olunan enerji mənbələrinin inkişafını dəstəkləmək, iqlim dəyişikliyinə qarşı mübarizə aparmaq və qlobal miqyasda yaşıl texnologiyaların tətbiqini təşviq etməkdir. Koalisiya bu məqsədlərə nail olmaq üçün müxtəlif ölkələrdə tədqiqatlar aparır, təlimlər keçirir və ekoloji innovasiyaların tətbiqinə dəstək verir.

# BDU-da Anım Günü ilə bağlı kitab sərgisi



***Bakı Dövlət Universitetinin (BDU) Elmi Kitabxanası 27 sentyabr - Anım Günü ilə bağlı ənənəvi kitab sərgisi təşkil edib.***

Sərgidə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin iradəsi, qətiyyəti, müdrik və uzaqgörən siyasəti nəticəsində azad edilmiş torpaqların tarixi xronologiyası, Vətən müharibəsində Qələbənin əldə edilməsi, ölkəmizin suverenliyi uğrunda döyüşmüş və canlarından keçmiş Vətən oğulları haqqında Azərbaycan, rus və ingilis dillərində 50-yə yaxın kitab yer alır.

Nümayiş olunan kitablar sırasında 2021-ci ildə BDU-da nəşr olunmuş "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri", "Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışları", "Vətən müharibəsi yerli və xarici mediada", "Bakı Dövlət Universiteti Vətən müharibəsi dövründə", "Tarix yazan məzunlar" adlı nəşrlər oxucuların böyük marağına səbəb olub.

# Bakı Dövlət Universiteti – 105

*(əvvəli 1-ci səhifədə)*

***2023-cü ildə Ümummilli Lider Heydər Əliyevin həyatı və çoxşaxəli fəaliyyəti ilə bağlı elmi-tədqiqat işləri aparılıb, beynəlxalq konfranslar, seminarlar keçirilib, kitablar hazırlanıb, xüsusi mühazirələr, ustad dərsləri və s. təşkil edilib. BDU ailəsinin hər bir üzvü, professor-müəllim heyəti, o cümlədən tələbələrimiz bu tarixi ilin, tarixi günlərin, tarixi anların bir hissəsi olmaq üçün səy göstərib.***

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2019-cu ildə BDU-nun 100 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Yubileyin keçirilməsi ilə bağlı imzalanmış tarixi sənəddə möhtərəm Prezidentimiz BDU-nun tarixinə xüsusi diqqətlə yanaşıb, universitetin ölkədə ali təhsil sisteminin qurulmasında, elmi tədqiqatların aparılmasında, ümumən milli özünüdərk prosesinin sürətləndirilməsindəki tarixi xidmətlərini qeyd edib. BDU-nun 100 illik yubileyi Parisdə UNESCO-nun Baş qərargahında, Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində, Rumıniyada Qara Dəniz Universitetləri Assosiasiyasının təşkilatçılığı ilə Buxarest Universitetində və digər universitetlərdə və müxtəlif qurumlarda yüksək səviyyədə qeyd edilib. Yubiley ilində "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı təsis edilib, yubiley pul nişanı tədavülə buraxılıb. Universitetin 113 əməkdaşı dövlətimizin başçısı tərəfindən ən yüksək orden, medal və fəxri adlara layiq görülüb. Bütün bunlar universitetin professor-müəllim heyətini daha əzmlə, fədakarlıqla Azərbaycanda elmin və təhsilin inkişafına öz töhfələrini verməyə həvəsləndirir. 100 illik yubiley mərasimində ölkə rəhbərinin iştirakı və proqram xarakterli çıxışı universitet kollektivinin qarşısında yeni hədəflər qoyub. Möhtərəm Prezidentimiz yubiley mərasimindəki tarixi çıxışında BDU-nun ölkəmizin həyatındakı müstəsna rolunu xüsusi vurğulayaraq deyib: "Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra BDU yeni ictimai-siyasi dövrdə fəaliyyətini davam etdirirdi. Yüz il ərzində universitetin 200 minə yaxın məzunu Azərbaycanın müxtəlif sahələrində öz bilik və bacarıqlarını nümayiş etdirmişdir. Məzunlar arasından görkəmli şəxslər, alimlər, ictimai xadimlər, siyasətçilər, mütəxəssislər çıxmışdır. Onların bir çoxu Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfəsini vermişdir.

Azərbaycan xalqının Ümummilli Lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi. Heydər Əliyev həm sovet dövründə, həm müstəqilliyin ərəfəsində, həm də müstəqillik dövründə xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir".



Bu gün 105 yaşlı ali təhsil ocağının əməkdaşları qarşıda duran hədəflərə çatmaq, dövlətimizin başçısının etimadını ən yüksək səviyyədə doğrultmaq üçün səylər göstərir, beynəlxalq və milli əmək bazarı üçün rəqabətədavamlı, eyni zamanda, vətənpərvər ruhlu mütəxəssislər hazırlayırlar.

100 illik şərəfli yubileydən keçən beş il ərzində BDU, hər zaman olduğu kimi, Prezident İlham Əliyevin və Azərbaycanın Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın yüksək qayğısı və hərtərəfli dəstəyi ilə öz uğurlarını davam etdirir. Universitetdə müasir tələblərə cavab verən idarəetmə islahatları aparılır, şərəfli keçmişə, tarixi ənənələrə malik olan ali təhsil və elm ocağının modern dünya universitetləri siyahısında ön yerləri tutması üçün məqsədyönlü fəaliyyət həyata keçirilir.

Bu gün uğurla həyata keçirilməkdə olan "Universitet-5.0" strategiyası BDU-nun inkişafının təməl prinsiplərini təşkil edir. Strategiyada təhsil, elm, innovasiya, beynəlmiləlləşmə və sosiallaşma istiqamətləri üzrə hədəflər müəyyənləşdirilib. Hazırda universitetdə tarixi ənənələrin və modern dünya təcrübəsinin vəhdəti şəklində tədris müasir, innovativ təlim texnologiyaları əsasında qurulur, elmi-tədqiqat işlərinin məzmunu günün tələblərinə uyğun şəkildə yenilənir, beynəlxalq akademik əlaqələr və ölkədaxili əməkdaşlıq inkişaf etdirilir, paralel olaraq bu istiqamətdə struktur islahatları həyata keçirilir. Dövlətimizin gəncləşmə siyasətinə uyğun olaraq kadr islahatları aparılır, bacarıqlı və perspektivli gənclər önə çəkilir. Universitet əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması üçün mütəmadi olaraq əməli addımlar atılır.

105 il əvvəl 2 fakültə, 44 nəfərdən ibarət professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan universitet hazırda 16 fakültə, 121 kafedra, 2 elmi-tədqiqat institutu, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, müasir avadanlıqlarla təchiz edilmiş 5 elmi-tədqiqat mərkəzi və 22 elmi-tədqiqat laboratoriyası, 2 milyondan çox kitab fondu olan Elmi Kitabxana, 5 muzey, 5 beynəlxalq institut və mərkəz, 1 tədris-təcrübə və istirahət mərkəzi, 1 tədris-təcrübə bazası, 1 filial, 1 kollec və 1 liseylə müqəddəs yola davam edir. BDU-nun 2021-2030-cu illər üçün Strateji İnkişaf Planında qarşıya qoyulmuş vəzifələr, prioritet istiqamətlər əsasında universitetdə təhsilin inkişafı, elmi tədqiqatların keyfiyyətinin artırılması, idarəetmə sisteminin dinamikliyinin təmin edilməsi məqsədilə müntəzəm olaraq islahatlar aparılır. Tələbələr və akademik heyət arasında qarşılıqlı əlaqələr dərinləşdirilir. Yeni nəsil elm və təhsil proqramlarının sayı artırılır, əmək bazarının tələblərinə uyğun yeni ixtisas və ixtisaslaşmalara tələbə qəbulu aparılır. Tədris resursları mütəmadi məqsədilə təkmilləşdirilir, təlim prosesini müasir üsullarla və müasir məzmunla həyata keçirmək məqsədilə auditoriyalar müasir İKT avadanlıqları ilə təchiz olunur, elmi-tədqiqat və tədris laboratoriyalarının maddi-texniki bazası gücləndirilir.

2024-cü ildə BDU-nun 2 saylı tədris binası ən yüksək səviyyədə əsaslı təmir edilib. Yeni təmir olunmuş 2 saylı tədris binasının həyətində yerləşən Şəhidlər kompleksi yenidən qurulub, binanın həyətində Zəfər kompleksi yaradılıb, tədris binasında isə "Zəfər tarixi" lektoriyası istifadəyə verilib. Lektoriya Vətən müharibəsində böyük Qələbənin simvolları və Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlıqlarını, eləcə də hazırda Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işlərini əks etdirən fotoşəkillər və Vətən müharibəsindən bəhs edən ədəbiyyatla təchiz edilib.

Aparılan islahatlar tədris prosesinin, elmi tədqiqatların keyfiyyətini artırır, eyni zamanda, tələbələrin ictimai fəallığının artırılmasına, onların azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərə bağlı, əsl vətəndaş kimi formalaşmasına xidmət edir.

BDU tələbələrinin komandaları son illər "TEKNOFEST" festivallarında da uğurla çıxış edir, mühüm nəticələr əldə edirlər. 2023-cü ildə BDU komandaları İstanbulda keçirilən "TEKNOFEST-2023" Aerokosmik və Texnologiya Festivalında uğurlu nəticə göstərib, universitetin 4 komandası 6 layihə ilə "TEKNOFEST-2023"ün finalına vəsiqə qazanıb. Onlardan "BSU Creativity Workz" komandası "Driver's Eye (avtomobil qəzalarını əvvəlcədən müəyyənləşdirərək sürücünü xəbərdar edən elektron sistem)" layihəsi ilə festivalda "Ağıllı nəqliyyat" kateqoriyası üzrə 109 finalçı arasında I yerə, "Humantek" komandası isə "Ağıllı damla sulama sistemi (torpağın mineral tərkibi, rütubət səviyyəsi, havanın temperaturu və təzyiqi kimi məlumatların toplanaraq mərkəzi stansiyaya naqilsiz ötürülməsi üçün əkin sahələrinin müxtəlif yerlərində günəş enerjisi ilə qidalanan kiçik stansiyalar)" layihəsi ilə "Aqrar texnologiyalar" kateqoriyasında 73 finalçı arasında III yerə layiq görülüb. Bu il Türkiyənin Adana şəhərində keçirilən "TEKNOFEST-2024" festivalında BDU-nun tələbələrdən ibarət iki komandasının layihələri - "BSU Creativity Workz" komandasının "Irrigo" layihəsi və "ESST-6" komandasının "E-tarım sulama" layihəsi final mərhələsinə vəsiqə qazanıb. Komandalarımızın ötən ildə olduğu kimi yüksək yerlərə layiq görüləcəyinə əminik.

Bu il BDU tələbələri, eyni zamanda, nüfuzlu "Robotex Avrasiya" festivalında ciddi uğur əldə edib. 2024-cü ilin aprel ayında keçirilən bu festivalda BDU-nun yarışmada iştirak edən 7 komandasının hər biri qalib olub, o cümlədən iki komanda ("85 Games Studio və "Humantek") yarışmada I, iki komanda ("Bilig" və "Bradenburg") II, üç komanda isə ("AiTech Group", "QuantumTech" və "TechTitans") III yerə layiq görülüb.

BDU tələbələri, eləcə də universitetin nəzdindəki "Gənc istedadlar" liseyinin şagirdləri beynəlxalq arenada bilik və bacarıqlarını uğurla nümayiş etdirirlər. 2024-cü il avqustun 5-dən 11-dək Bolqarıstanda ali məktəb tələbələri arasında keçirilmiş Beynəlxalq Riyaziyyat Olimpiadasında BDU tələbələri qızıl və bürünc medala layiq görülüblər. Həmçinin 2024-cü ildə ibtidai, orta və yuxarı sinif şagirdləri arasında keçirilmiş beynəlxalq riyaziyyat müsabiqələrində "Gənc istedadlar" liseyinin şagirdləri 25 qızıl, 21 gümüş, 24 bürünc medal qazanıblar.

Universitetdə tələbələrin təhsili, elmi tədqiqatlara təşviq olunmaları və onların layihələrinin dəstəklənmələri üçün ən müxtəlif innovativ üsul və metodlar tətbiq olunur. Son dövrlər Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin fəaliyyətə başlaması, "Code for Future" layihəsinin həyata keçirilməsi, Xarici Dil Mərkəzinin fəaliyyətə başlaması tələbələrimizin bilik və bacarıqlarını daha da artırır, onların fərdi istedadlarının üzə çıxarılmasına əlavə əlverişli şərait yaradır.

Hazırda universitetdə ali təhsilin bütün səviyyələrində 25 minə yaxın tələbə təhsil alır. BDU-da 3 mindən çox əməkdaş, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. Onlardan 250-dən çoxu elmlər doktoru, professor, 800 nəfərə yaxın əməkdaş isə fəlsəfə doktoru, dosentdir. Bu gün BDU-da 76 ixtisas, 271 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir. Əmək bazarının tələblərinə uyğun yeni ixtisas və ixtisaslaşmaların yaradılması BDU-nun strateji hədəflərindəndir. Son illər BDU-da təhsilin bakalavr və magistratura səviyyələrində bir sıra yeni ixtisas və ixtisaslaşmalar açılıb.

BDU peşəkar kadrlar yetişdirməklə yanaşı, milli ruhlu vətəndaş yetişdirməyi də özünün ali məqsədi hesab edir. Bu məqsədlə davamlı olaraq tələbələr arasında müvafiq iş aparılır, maraqlı sosial layihələr həyata keçirilir. Universitetdə fəaliyyət göstərən tələbə təşkilatları bu prosesin avanqardı kimi çıxış edir. BDU tələbələri ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasəti və könüllülük hərəkatına öz mühüm töhfələrini verirlər. Tələbələrin yataqxana şəraitinin yaxşılaşdırılması məqsədilə ötən dövr ərzində müasir standartlara cavab verən yeni yataqxana – 216 yerlik "Tələbə Evi" istifadəyə verilib. Həmçinin tələbələrin keyfiyyətli, müasir dərslik və dərs vəsaitləri ilə təmin edilməsi üçün BDU-nun Nəşr Evi "bp-Azərbaycan" şirkətinin dəstəyi ilə ən müasir avadanlıqlarla təchiz edilərək yenidən qurulub və istifadəyə verilib. Eyni zamanda, BDU ilə "bp-Azərbaycan" şirkəti arasında imzalanmış əməkdaşlıq müqaviləsi əsasında BDU-nun Elmi kitabxanasının elektronlaşdırılmasına başlanılıb.

Son illər BDU məzunları dövlət qulluğuna və digər qurumlara işə qəbulla bağlı keçirilən mərkəzləşdirilmiş imtahanlarda ənənəvi olaraq yüksək nəticələr göstərir, eyni zamanda, tələbələrimiz beynəlxalq, regional və yerli olimpiadalarda, bilik yarışmalarında ön yerlərə layiq görülürlər. Cari ildə "Yüksəliş" müsabiqəsinin qalibləri arasında BDU-nun 4 məzunu yer alıb. 2024-cü il üzrə Gənclər üçün Prezident mükafatçılarından üçü, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində 2024-cü ildə xaricdə təhsil almaq imkanı qazanmış tələbələrdən isə 49-u BDU-nun məzunudur. Prezident İlham Əliyevin 2023-cü il 24 iyun tarixli Sərəncamına əsasən BDU-nun 8 tələbəsi "Heydər Əliyev adına təqaüd"ə layiq görülüb.

Universitetdə elmi fəaliyyətin səmərəli təşkili prioritet hesab olunur. Elmi-tədqiqat işlərinin məzmununun yenilənməsi, alınan nəticələrin bilavasitə tətbiq sahələrinə yönəldilməsi sahəsində yeni müsbət tendensiya formalaşır. Son illərdə BDU-da Sənaye kimyası, Rəqəmsal araşdırmalar, Hüceyrə kulturası və genom redaktəsi, Mikrobiologiya və virusologiya, Biomühəndislik, Kompleks geoloji və geofiziki tədqiqatlar kimi yeni sənayeyönümlü elmi-tədqiqat laboratoriyaları, Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ECOLEAD Klinikası, ICESCO-nun Biotibbi materiallar kafedrası, Beynəlxalq Türk Akademiyası ilə birgə Süni intellekt etikası kafedrası, Erməni Araşdırmaları və Təlim Mərkəzi, Qərbi Azərbaycan Araşdırmaları Mərkəzi və s. yaradılıb.

Dünyanın nüfuzlu beynəlxalq elm və təhsil reytinqlərində mövqeyini möhkəmləndirmək BDU-nun prioritet istiqamətlərindəndir. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü fəaliyyətin nəticəsidir ki, hazırda Azərbaycanın dünya universitetlərinin QS reytinq siyahısında ilk ən yaxşı 1000 universitet siyahısında yer alan yeganə ali təhsil müəssisəsi BDU-dur. Universitet alimləri tərəfindən nüfuzlu elmi nəşrlərdə çap edilən məqalələrin dinamikası ildən-ilə yüksələn xətt üzrə inkişaf edir. “Clarivate Analytics” beynəlxalq agentliyinin rəsmi məlumatına əsasən, BDU-nun H-indeksi artaraq 67-yə yüksəlib. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2018-ci ildə 35-ə, ötən il isə 52-yə bərabər olub. Hər bir əsərə edilən istinadların orta sayı 8.53-ə qədər yüksəlib. Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorant və tələbələri tərəfindən “Web of Science” bazasına daxil olan dərgilərdə artıq 4436 elmi əsər dərc edilib. Bu əsərlərə ümumilikdə 37000-dən çox istinad edilib ki, bu göstərici ötən il 29000 idi.

Universitetimiz son illər bir sıra reytinqlər üzrə göstəricilərini də artırıb. BDU, eyni zamanda, Azərbaycanda “Times Higher Education Subject” reytinq siyahısında yer alan yeganə ali təhsil müəssisəsidir. BDU-nun bu sahədə daha bir uğuru ilk dəfə olaraq “QS Sustainability 2024” reytinqində yer almasıdır. 2024-cü ildə THE qlobal reytinqinə də Azərbaycan ali təhsil müəssisələrindən yalnız BDU daxil olub.

Bütün bunlar kollektivimizin birgə, yüksək səylə çalışması nəticəsində əldə edilmiş uğurlardır. Əminik ki, bu nəticələr ildən-ilə daha da yüksələcək. Bu uğurlar universitetimizdə müasir tələblərə uyğun elmi-tədqiqat mühitini inkişaf etdirir, beynəlxalq əməkdaşlıq imkanlarını daha da artırır, rəqabətədavamlı elmi araşdırmaların aparılmasına şərait yaradır.




Beynəlxalq əməkdaşlığa, tələbə və müəllim mübadiləsinə xüsusi önəm verən BDU bu istiqamətdə də səylərini davam etdirir. Universitet əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması məqsədilə ABŞ, Çin, Almaniya, İsrail, İsveçrə, Qazaxıstan və digər ölkələrin qabaqcıl universitet və institutları ilə (Yerusəlim İbrani Universiteti, Holon Texnologiya İnstitutu, Anhui Universiteti, Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti, Linkoln Universiteti, Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti, Əl-Fərabi adına Qazax Milli Universiteti və s.) bakalavriat, magistratura, doktorantura səviyyələri üzrə 12 beynəlxalq ikili diplom proqramlarını tətbiq edir. Təhsilin keyfiyyətinin yüksəldilməsi, elm tədqiqatların sənayeyə tətbiqi, tələbələrin öz nəzəri biliklərini təcrübədə tətbiqetmə imkanının yaradılması üçün nüfuzlu universitetlərlə əməkdaşlığı gündən-günə artırılır. Bunlar BDU-nun dünyanın qabaqcıl elm və təhsil məkanına inteqrasiyasını şərtləndirir və bu prosesi daha da sürətləndirir.

Ötən tədris ilində də BDU-nun beynəlxalq əməkdaşlıq strategiyası uğurla davam etdirilib. Bu dövrdə BDU ilə Türkiyənin Tokat Qaziosmanpaşa, Orta Doğu Texniki, İstanbul Texniki, Muğla Sıtkı Koçman universitetləri, Litvanın Mikolas Romeris Universiteti arasında “Erasmus” mübadilə protokolu, Sarsen Amanjolov adına Şərqi Qazaxıstan Universiteti, Qırğız-Türk “Manas” Universiteti arasında “Orhun” mübadilə protokolu, Türkiyənin Hacettepe, Balıkesir, Ankara Sosial Elmlər universitetləri, İspaniyanın Qranada Universiteti, Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutu, Qazaxıstanın Atırau Dövlət Universiteti, Yaponiyanın Kanaqava və Kumamoto universitetləri, Çinin Pekin Xarici Dillər, Tongji, Hefei Texnologiya universitetləri arasında əməkdaşlıq memorandumu və bu istiqamətdə bir sıra digər sənədlər imzalanıb. BDU hazırda 50-dən çox ölkənin 160-dan artıq universiteti ilə əməkdaşlıq edir.

BDU xarici universitetlərlə birgə beynəlxalq elmi tədbirlərin təşkilinə də üstünlük verir. Son illər bu istiqamətdə bir sıra nəticələr əldə edilib, o cümlədən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfranslar, BMT-nin Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) ilə “Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer” üzrə BMT/Azərbaycan yüksək işçi seminarı (United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere), “Volkswagen” Fondu ilə “Kvant elminin və texnologiyasının müasir meylləri: kvant materiallarından kvant informasiyasına qədər” mövzusunda beynəlxalq yay məktəbi və s. elmi tədbirlər keçirilib.

BDU nüfuzlu beynəlxalq elmi təşkilatlarla əməkdaşlığı da özünün prioritetlərindən hesab edir. 2022-ci ildə Avropa Universitetlər Assosiasiyasının (EUA) və İslam Dünyasının Universitetləri Federasiyasının (FUIW), 2023-cü ildə Beynəlxalq Astronavtika Federasiyasının (IAF), 2024-cü ildə isə Sənaye və Texnoloji Tədqiqat Təşkilatlarının Dünya Assosiasiyasının (World Association of Industrial and Technological Research Organizations - WAITRO), Avropa Paytaxtları Universitetləri Şəbəkəsinin (Network of Universities from the Capitals of Europe - UNICA) üzvü seçilib.

Beynəlxalq əlaqələrlə yanaşı, ölkədaxili əməkdaşlığa da xüsusi önəm verilir. Universitetin sosial missiyasına müvafiq olaraq onun cəmiyyətdə nüfuzunun artırılması istiqamətində çoxşaxəli tədbirlər görülüb, universitetin sahib olduğu elmi potensialın cəmiyyətin sosial problemlərinin həllinə, sosial-iqtisadi proqramların həyata keçirilməsinə cəlb edilməsi məqsədilə ölkənin dövlət təşkilatları, nüfuzlu müəssisə və ictimai birlikləri ilə əlaqələr genişləndirilib, birgə sosial layihələrin sayı artırılıb. Dövlət və qeyri-hökumət təşkilatlarının, iri beynəlxalq və özəl şirkətlərin öz sosial layihələrini təqdim etdiyi platformaya çevrilməsi məqsədilə tərəfdaş qurumlarla birlikdə fəaliyyət planları tərtib edilib, universitetdə ölkənin elmi, mədəni, sosial-iqtisadi problemlərinə həsr olunmuş yüksək səviyyəli konfranslar, seminarlar və digər

*Ölkəmizdə keçirilən bütün beynəlxalq əhəmiyyətli tədbirlərdə hər zaman fəal iştirakı ilə seçilən BDU kollektivi “Yaşıl dünya naminə həmrəylik ili”ndə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransının (COP-29) ölkəmizdə keçirilməsini mühüm hadisə hesab edir.*

tədbirlər keçirilib. Cəmiyyətin sosial problemlərinin təhlilinə və həllinə, müəssisə və təşkilatların sosial tədqiqat və layihələrinin icrasına Universitetin elmi potensialının cəlb edilməsi ənənəsi inkişaf etdirilib.

Dövlət və özəl müəssisələrlə əməkdaşlıq bilavasitə tədris prosesinin, elmi-tədqiqat fəaliyyətinin səmərəli təşkilinə, eləcə də məzunların işlə təmin olunmasına xüsusi töhfə verir. Son illər BDU ilə Elm və Təhsil Nazirliyinin Fizika, Molekulyar Biologiya və Biotexnologiyalar, Riyaziyyat və Mexanika, akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya və Radiasiya Problemləri institutları, Azərbaycan Respublikasının Baş Prokurorluğu, Müdafiə Sənayesi Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi, Sosial Xidmətlər Agentliyi, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya, Bioloji Müxtəlifliyin Qorunması Xidməti, Qarabağ Dirçəliş Fondu, Azərbaycan Vəkillər Kollegiyası, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), PAŞA Bank, “PAŞA Həyat Sığorta”, “LU-MUN HOLDING” və s. təşkilatlar arasında müvafiq memorandumlar, müqavilələr imzalanıb. Əmək bazarının mövcud tələbatını, yeni dövrdə mütəxəssislərdən tələb olunan əsas bacarıqları öyrənmək, bu tələbatın kadr hazırlığında nəzərə alınması, eləcə də universitet-sənaye işbirliyinin yaradılması, tədris prosesinə sənayedə çalışan mütəxəssislərin cəlb olunması, tələbələrin istehsalatda yeni meyarlarla təcrübə keçməsi, həmçinin birgə layihələrin, elmi-tədqiqat işlərinin aparılması məqsədilə hazırda BDU 57 dövlət, özəl və qeyri-hökumət təşkilatı ilə əməkdaşlıq edir, birgə layihələr həyata keçirir.

BDU-nun 100 illik yubileyindən sonra keçən beş il ərzində universitetdə bir sıra mühüm layihələr reallaşdırılıb. Bunlara misal olaraq, “Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarına dair kompleks beynəlxalq hesabat”ı, “Vətən müharibəsi dövründə yerli və xarici medianın fəaliyyətinin təhlili”, “Azərbaycan Respublikasının tarixi (1991-2021)“ 2 cildlik kitabını, “Heydər Əliyev: dil, ədəbiyyat və incəsənət” nəşrini və s. göstərmək olar. Adıçəkilən layihələr BDU-nun professor-müəllim heyəti tərəfindən yüksək peşəkarlıqla yerinə yetirilib və ictimaiyyətə təqdim edilib.

Bu gün BDU-nun kollektivi və tələbələri Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Sərəncamına uyğun olaraq bu istiqamətdə öz fəaliyyət istiqamətini müəyyənləşdirib, bir sıra tədbirlər, layihələr həyata keçirməkdədir.

Ölkəmizdə keçirilən bütün beynəlxalq əhəmiyyətli tədbirlərdə hər zaman fəal iştirakı ilə seçilən BDU kollektivi “Yaşıl dünya naminə həmrəylik ili”ndə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransının (COP-29) ölkəmizdə keçirilməsini mühüm hadisə hesab edir. Bu mötəbər tədbirə Azərbaycanın ev sahibliyi etməsi Prezident İlham Əliyevin dünyadakı nüfuzunun göstəricisidir. Bütün dünya ölkələri tərəfindən qəbul edilən bu qərar ölkəmizə göstərilən böyük etimad və hörmətin parlaq nümunəsidir. Böyük potensiala malik elm və təhsil müəssisəsi kimi BDU da bu istiqamətdə tədbirlərini davam etdirir.

Qalib və qüdrətli ölkəmizin gündən-günə inkişaf etməsi, elm və təhsildə əldə olunan nailiyyətlər, BDU kollektivini və tələbələrimizi doğma universitetimizin 105 illik yubileyini daha yüksək ovqatla qeyd etməyə sövq edir, hər birimizdə sonsuz qürur hissləri yaradır. Əminik ki, möhtərəm Prezidentimizin diqqət və qayğısı ilə əhatələnən 105 yaşlı BDU yeni yubileyi ərəfəsində zəngin ənənələrini inkişaf etdirərək, beynəlxalq təcrübədən, dünya elminin nailiyyətlərindən faydalanaraq, Azərbaycan xalqına və beynəlxalq ictimaiyyətə elmi əsaslara, milli və mədəni dəyərlərə söykənən və müasir dövrün tələblərinə cavab verən kadrlar hazırlamaq missiyasını uğurla davam etdirəcək.

BDU-nun 105 illik yubileyi münasibətilə Universitetimizin kollektivini, məzunlarımızı və əziz tələbələrimizi təbrik edirik!

***Elçin Babayev***
*Bakı Dövlət Universitetinin rektoru*

# BDU-da "Ümummilli Lider: Heydər Əliyev mühazirələri" layihəsinin ilk görüşü



***Gənclər Fondunun dəstəyi, Bakı Dövlət Universiteti və "BDU könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə "Ümummilli Lider: Heydər Əliyev mühazirələri" layihəsinə başlanılıb. Layihənin ilk qonağı BDU-nun Tarix fakültəsinin müəllimi Anar Həmidov olub.***

Görüşdə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Ümummilli Lider, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevin siyasi irsinin xalqımızın milli sərvəti olduğunu deyib. Azərbaycan gəncləri Ulu Öndərin öz xalqına qoyub getdiyi zəngin və tükənməz irsdən faydalanaraq layiqli vətəndaş kimi yetişir və ölkəmizin inkişafına mühüm töhfələr verirlər. O qeyd edib ki, BDU hər zaman gənclərin milli ideologiya əsasında inkişafını prioritet məsələ kimi qarşıya qoyur. Gənclər Fondunun dəstəyi ilə keçirilən layihə də buna əyani sübutdur.

Daha sonra Tarix fakültəsinin müəllimi Anar Həmidov "Heydər Əliyev hakimiyyəti dövründə kadr siyasəti" mövzusunda məruzə edib. O, Ümummilli Lider Heydər Əliyevin daxili siyasəti, ölkədə sabitliyin, sosial və iqtisadi inkişafın təmin olunmasına yönəlmiş addımları haqqında tələbələrə məlumat verib. Bildirib ki, Ulu Öndərin hakimiyyəti dövründə kadr siyasəti ölkədə səmərəli idarəçilik sisteminin qurulmasına yönəldilib və əsas siyasi xətt kimi formalaşıb. Ulu Öndər dövlət idarəetməsində ixtisaslı kadrların yetişdirilməsinə və onların peşəkarlığının artırılmasına böyük önəm verirdi. Ümummilli Liderin respublikaya birinci və ikinci rəhbərliyi dövründə siyasi, iqtisadi, mədəni, elm və təhsil, sosial rifah istiqamətlərində atılan addımlar, reallaşdırılan iri layihələr bu günün müstəqil və müasir Azərbaycanının təməlini qoyub.

Görüş tələbələrin mövzu ilə bağlı suallarının cavablandırılması ilə başa çatıb.

# "Ümummilli Lider: Heydər Əliyev mühazirələri" layihəsinin növbəti görüşləri



***Sentyabrın 11-də Gənclər Fondunun dəstəyi, Bakı Dövlət Universiteti və "BDU könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə "Ümummilli Lider: Heydər Əliyev mühazirələri" layihəsinin növbəti görüşü keçirilib. Layihənin budəfəki qonağı Milli Məclisin üzvü, BDU-nun Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, professor Anar İsgəndərov olub.***

"Müstəqil Azərbaycan dövlətinin qurucusu - Heydər Əliyev" mövzusunda məruzə edən Anar İsgəndərov bildirib ki, Ulu Öndərin hakimiyyətə gəlişi ölkənin müstəqilliyinin möhkəmlənməsində, iqtisadi, siyasi və sosial sahələrdə böyük uğurların əldə edilməsində əsas amillərdən biri olub. Ümummilli Liderin milli dövlət quruculuğu siyasəti dünyanın mövcud reallıqları, təcrübəsi ilə yanaşı, milli–mənəvi dayaqlara və elmi potensiala əsaslanır.

Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində ölkədə əmin-amanlıq, siyasi sabitlik, ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş yaranıb, milli birlik təmin edilib, Azərbaycanın dünya birliyinə inteqrasiyası başlayıb. Görüş tələbələrin mövzu ilə bağlı suallarının cavablandırılması ilə başa çatıb.

***

***Sentyabrın 20-də Gənclər Fondunun dəstəyi, BDU və "BDU könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə "Ümummilli Lider: Heydər Əliyev mühazirələri" layihəsinin dördüncü görüşü keçirilib.*** Layihənin növbəti qonağı BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev olub.

Əliş Ağamirzəyev "Heydər Əliyev və Azərbaycan mətbuatı" mövzusunda məruzə ilə çıxış edib. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövrü milli ruhun, azərbaycançılıq ideologiyasının inkişafı ilə xarakterizə edilir: "1969-cu ildən başlayaraq Ulu Öndərin təşəbbüsü ilə ölkəmizdə ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinə dövlət mükafatlarının verilməsi, onlara hərtərəfli qayğının artırılması və yaradıcılıq uğurlarının dövlət səviyyəsində qeyd olunması təmin olundu. Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması Ulu Öndərin milli maraqları müdafiə etdiyinin bariz nümunəsi idi. Dahi rəhbərin Bakı Dövlət Universitetinin 50 illik yubileyindəki çıxışını Azərbaycan dilində etməsi keçmiş ittifaq səviyyəsində böyük ajiotaja səbəb olmuşdu".

Azərbaycanda jurnalist kadrlarının hazırlanmasında BDU-nun Jurnalistika fakültəsinin xüsusi roluna toxunan Əliş Ağamirzəyev Ulu Öndərin təşəbbüsü ilə keçmiş ittifaq dövründə tələbələrin təhsillərini davam etdirmələri üçün Moskva və Sankt-Peterburq Dövlət Universitetlərinin Jurnalistika fakültələrinə göndərildiyini qeyd edib: "Ümummilli Liderin təşəbbüsü ilə Azərbaycanda çap mediası, televiziya və radioya olan dövlət dəstəyinin artırılması nəticəsində bu gün mətbuatımız inkişaf mərhələsini yaşayır. 1998-ci ildə senzuranın ləğvi gələn il 150 illiyini qeyd edəcəyimiz Azərbaycan mətbuatı üçün ən uğurlu səhifədir. 1998-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 50-ci maddəsində məlumat azadlığının təsbit edilməsi də azad mətbuata etimadın göstəricisi idi. 2000-2001-ci illərdə Ulu Öndərin sərəncamı ilə qəzetlərin borclarının dondurulması və ardınca dövlət büdcəsi hesabına ödənilməsi KİV-ə dövlət dəstəyinin ən uğurlu nümunəsidir. Təsadüfi deyil ki, "Jurnalistlərin dostu" mükafatının ilk laureatı da elə Ulu Öndər Heydər Əliyev olub".

Görüş tələbələrin mövzu ilə bağlı suallarının cavablandırılması ilə başa çatıb.

# BDU Elmi Şurasının yeni tədris ilində ilk iclası

***Sentyabrın 10-da BDU-nun Elmi Şurasının 2024/2025-ci tədris ilində ilk iclası keçirilib.***

İclasda 2024/2025-ci tədris ilinin payız semestrində tədrisin təşkili, bakalavriatura və magistratura səviyyələri üzrə BDU-ya və Universitetin nəzdində "Gənc istedadlar" liseyinə qəbulun nəticələri müzakirə edilib.

Qeyd olunub ki, 10 sentyabr 2024-cü il tarixinə qədər bakalavriatura səviyyəsi üzrə BDU-ya qəbul olan 5410 nəfər elektron qeydiyyatdan keçib. Qəbul olan tələbələrin 74 faizi dövlət sifarisi əsasında təhsil alacaq. Bu tədris ilində 600-dən çox bal toplayaraq BDU-ya qəbul olunanların sayı 536 nəfər təşkil edib. Bu, keçən ilə nisbətən iki dəfə artım deməkdir. Magistratura səviyyəsi üzrə BDU-ya qəbul olanların isə 68 faizi dövlət sifarişi əsasında təhsil alacaq.

İclasda bildirilib ki, "Gənc istedadlar" liseyinə qəbul imtahanlarında iştirak etmək üçün 2533 nəfər müraciət edib. Qəbul imtahanının nəticələrinə əsasən, Azərbaycan bölməsi üzrə 100, rus bölməsi üzrə isə 50 nəfər liseydə təhsil almaq hüququ qazanıb.

Daha sonra cari məsələlərə baxılıb.

# BDU əməkdaşlarının əməkhaqları qaldırılıb

***Bakı Dövlət Universitetinin əməkdaşlarının sosial rifahı yaxşılaşdırılır.***

BDU-nun Elmi Şurasının yeni tədris ilində ilk iclasında qəbul edilən qərara əsasən, Universitetin 105 illik yubileyi münasibətilə əməkdaşlara 300 manat birdəfəlik mükafat veriləcək.

Elmi Şura həmçinin BDU əməkdaşlarının əməkhaqlarının sentyabrın 1-dən artırılması haqqında qərar qəbul edib.

# Çin Sosial Elmlər Akademiyasının nümayəndələri BDU-da

***Sentyabrın 20-də Çin Sosial Elmlər Akademiyasının vitse-prezidenti Qao Venşunun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

Rektor Elçin Babayev qonaqlara BDU-nun tarixi, strukturu, beynəlxalq əlaqələri, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edib ki, 25 minə yaxın tələbəsi olan BDU-nun 16 fakültəsi, bir kolleci, bir liseyi, Qazax filialı fəaliyyət göstərir. Təhsil-elm-tədqiqat-innovasiya mərkəzlərindən birinə çevrilməkdə olan BDU-da elmin bütün sahələri üzrə kadr hazırlığı həyata keçirilir.

Çin Sosial Elmlər Akademiyasının vitse-prezidenti Qao Vensu Çində təhsil almaq istəyən azərbaycanlı tələbələrə təhsil təqaüdlərinin ayrılmasında maraqlı olduqlarını bildirib. Qeyd edib ki, Akademiyada təhsil ingilis və Çin dillərində həyata keçirilir.

Tərəflər arasında tədris, elmi tədqiqat və sosial fəaliyyət sahələrində planlaşdırılan əməkdaşlığın detalları müzakirə edilib.

# BDU-da iki elektron tədris auditoriyası istifadəyə verilib

***Sentyabrın 17-də BDU-da iki yeni elektron tədris auditoriyası istifadəyə verilib.***

Açılış mərasimində çıxış edən rektor Elçin Babayev son zamanlar BDU-da rəqəmsallaşma istiqamətində mühüm addımların atıldığını bildirib.

O qeyd edib ki, elektron tədris auditoriyalarının istifadəyə verilməsi BDU-da tədris prosesinin elektron idarəedilməsi istiqamətində olan işlərdən biridir. 100-dək ən müasir kompüterlə təchiz olunan auditoriyalarda müxtəlif dərslər və imtahanlar keçiriləcək. Yaxın zamanlarda BDU-da belə otaqların sayının daha da artırılması nəzərdə tutulur.

Rektor diqqətə çatdırıb ki, BDU-da elektron sənəd dövriyyəsi də artıq başa çatdırılıb: "Elektronlaşma günün tələblərindən biridir. BDU-da elektron kadr sistemi üzərində də işlər bitmək üzrədir. BDU-nun yeni saytı da artıq hazırdır, yaxın zamanlarda istifadəyə veriləcək".

# BDU-da Anım Günü qeyd olunub

***BDU-da 27 sentyabr – Anım Gününə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, Vətən müharibəsinin başlandığı bu gün tariximizin dönüş nöqtəsi, xalqımızın misilsiz qəhrəmanlığı, fədakarlığı və birliyinin göstəricisidir. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi, qəhrəman Ordumuzun şücaəti ilə illər boyu həsrətində olduğumuz qələbə əldə olundu, torpaqlarımız azad edildi: "Bu qələbə yalnız döyüş meydanında qazanılmadı, bu, həm də xalqımızın birliyinin, iradəsinin və əzminin parlaq təntənəsi oldu. Şəhidlərimiz Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canını fəda edərək, tarixi ədalətin bərqərar olmasına nail oldular. Şəhidlərimizin qəhrəmanlıq tarixini gələcək nəsillərə çatdırmağı, onların əziz xatirəsini daim uca tutmağı özümüzə borc bilirik. BDU-da şəhidlərimizin adına yaradılmış guşələr, xüsusi tədbirlər və təhsil layihələri bu ruhun yaşadılmasına xidmət edir. Biz əminik ki, gələcək nəsillər də onların qəhrəmanlıq yolunu hər zaman hörmətlə anacaq və ölkəmizin müstəqilliyinə sahib çıxacaqlar".



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə "Böyük Qayıdış" proqramının uğurla icra edildiyini deyən rektor Qarabağın, Şərqi Zəngəzurun artıq cənnət məkana çevrildiyini qeyd edib: "Azad edilən torpaqlarımızda salınan yollar, körpülər, tikilən şəhər və qəsəbələr həm də şəhidlərimizin müqəddəs ruhları qarşısında borcumuzun yerinə yetirilməsi deməkdir. Bu gün Qarabağa mədəni mühit qayıdır. Beynəlxalq forumlar, festivallar keçirilir. Məktəblər, sanatoriyalar tikilir. İnfrastruktur yaradılır. Bu il Qarabağ Universiteti fəaliyyətə başladı, ilk tələbələrini qəbul etdi. Tamamilə dağıdılmış kənd və şəhərlərimizin yenidən tikilməsi, müqəddəs torpaqlarımızda aparılan geniş quruculuq işləri, dədə-baba torpaqlarına öz sahiblərinin qayıtması - bütün bunlar bizim şəhidlərimiz qarşısında vəfa borcumuzdur".

Rektor qeyd edib ki, Vətən sevgisi, milli ruh, vətəndaşlıq şüuru da təhsilin bir parçası olmalıdır. Tələbələrimiz xalqa, Vətənə dərin bağlılıq hissi ilə öz sahələrində ən yaxşı olmalı, ölkəmizin gücünü, inkişafını və azadlığını təmin etməlidirlər: "Şəhidlərimizin ruhu bizdən daha güclü, sadiq, vətənpərvər olmağı tələb edir. Onların bizə qoyub getdiyi azadlığı qorumaq və onu gücləndirmək hər birimizin borcudur".

Milli Qəhrəman, general-mayor Polad Həşimovun həyat yoldaşı, Təhsilin İnkişafı Fondunun əməkdaşı Ofeliya Salmanova, BDU-nun Şərqşünaslıq fakültəsinin dosenti Əsmətxanım Məmmədova, Filologiya fakültəsinin dosenti Etibar Talıblı, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin I kurs tələbəsi, Vətən müharibəsi şəhidi, gizir Mayis Səmədovun qızı Məleykə Səmədova, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin I kurs tələbəsi, "Füzuli, Xocavənd və Cəbrayılın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuş Vasif Qəhrəmanov xalqın eyni amal uğrunda mücadiləyə qalxdığı və qəhrəmanlıq tarixinin başlanğıcı olan bu günün yaddaşlarda əbədi iz buraxdığını bildiriblər. Çıxışlarda xalqımızın Vətən müharibəsi günlərində bir yumruq kimi Müzəffər Ali Baş Komandanın və Ordumuzun ətrafında birləşdiyi, müqəddəs şəhidlərimizin xatirəsinin əbədi yaşayacağı bildirilib.

# BDU-nun nəzdində "Gənc istedadlar liseyi"ndə şəhidlərin xatirəsi anılıb

***BDU-nun nəzdində "Gənc istedadlar liseyi"ndə 27 sentyabr - Anım Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Dövlət himni səsləndirildikdən sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Liseyin direktoru Fuad Babayev 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun şanlı Zəfəri haqqında şagirdlərə məlumat verib. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində tarixi qələbəsi və şücaətindən bəhs edib. Liseyin direktoru bildirib ki, 2020-ci il sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı başlayan növbəti hərbi təcavüzünə cavab olaraq Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda Vətən müharibəsinə başlayıb. Tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirib. Azərbaycan özünün haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirib. Ötən il sentyabrın 19-da cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim olub, suverenliyimiz tam təmin olunub.

Tədbirdə liseyin tarix müəllimi Kəmalə Qırxlarova 44 gün davam edən Vətən müharibəsinin tarixi əhəmiyyəti haqqında danışıb. Bu qələbənin Azərbaycanın hərb tarixinə qızıl hərflərlə həkk olunduğunu və heç bir zaman unudulmayacağını qeyd edib.

Daha sonra lisey şagirdlərinin təqdimatında vətənpərvərliyə dair xorun ifası və şeirlər səsləndirilib.

# BDU-da bir dəqiqəlik sükut…



***BDU-da 27 sentyabr – Anım Günü ilə əlaqədar saat 12.00-da bütün ölkə ərazisində olduğu kimi, ərazi bütövlüyümüz uğrunda şəhid olmuş qəhrəman Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd olunur.

# Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində BDU-nun təşkilatçılığı ilə elmi konfrans keçiriləcək

***Sentyabrın 30-da Bakı İqlim Fəaliyyəti Həftəsi (BİFH) fəaliyyətə başlayıb. Oktyabrın 4-dək davam edəcək Bakı İqlim Fəaliyyəti Həftəsi bu ilin noyabr ayında Bakı şəhərində keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasına (COP-29) hazırlıq çərçivəsində London İqlim Fəaliyyəti Həftəsi ilə əməkdaşlıq şəraitində təşkil olunub.*** Tədbir COP-29-a hazırlıq məqsədi ilə ictimaiyyəti iqlim dəyişmələrinə həsr olunan tədbirlərə cəlb etmək və iqlim dəyişmələri ilə mübarizədə qlobal səyləri səfərbər etmək üçün mühüm platforma yaratmaq məqsədi daşıyır.

Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində 2024-cü il 4 oktyabr tarixində saat 10.00-da "JW Marriott" otelində Bakı Dövlət Universitetinin təşkilatçılığı ilə "İqlim fəaliyyəti üçün tədqiqat və əməkdaşlığın sürətləndirilməsi" mövzusunda elmi konfrans keçiriləcək.

Konfransın əsas mövzuları iqlim dəyişikliklərinin elmi və praktik aspektlərinə həsr olunub. Konfransda iqlim fəaliyyəti sahəsində böyük irəliləyişlər əldə etmək üçün empirik məlumatların, süni intellekt və qabaqcıl analitik vasitələrin əhəmiyyəti, iqlim dəyişikliyinin transsərhəd su ehtiyatlarının idarə olunmasına təsiri, bu istiqamətdə yeni yanaşmalar və beynəlxalq əməkdaşlıq mexanizmləri, eləcə də beynəlxalq səviyyədə ortaq təşəbbüslərin sinerjisi, müvafiq zəruri qlobal və regional əməkdaşlıq imkanları müzakirə ediləcək.

Konfransın əsas mövzuları ətrafında geniş müzakirələr aparılacaq:

Süni intellekt və qabaqcıl analitik vasitələrin rolu: Konfransda iqlim dəyişikliyinin proqnozlaşdırılması və onunla mübarizədə süni intellekt texnologiyalarının istifadəsi geniş müzakirə olunacaq.

Transsərhəd su ehtiyatlarının idarə olunmasına təsiri: İqlim dəyişikliyi xüsusilə su resurslarının idarə olunmasında ciddi təsir göstərir. İqlim dəyişiklikləri su ehtiyatlarının miqdarını və keyfiyyətini dəyişərək, bölgələrarası və ölkələrarası su paylanmasında problemlər yarada bilər.

Yeni beynəlxalq əməkdaşlıq mexanizmləri və sinerji yaradan ortaq təşəbbüslər: İqlim dəyişiklikləri ilə mübarizədə beynəlxalq əməkdaşlıq müzakirələrin mərkəzində olacaq.

İqlim fəaliyyətində empirik məlumatların rolu və innovativ həllər: Empirik məlumatların düzgün toplanması, analizi və istifadəsi iqlim dəyişiklikləri ilə mübarizədə mühüm rol oynayır. Konfransda bu məlumatların effektiv şəkildə necə toplanması və paylaşılması məsələləri müzakirə olunacaq. Eyni zamanda, iqlim fəaliyyətində innovativ texnologiyalar və həll yolları, o cümlədən karbon tutma və saxlama texnologiyaları, bərpa olunan enerji mənbələrinin tətbiqi, enerji effektivliyi və tullantıların azaldılması üzrə yeniliklər də konfransın mühüm müzakirə mövzularından biri olacaq.

İqlim dəyişikliyinin sosial-iqtisadi təsirləri və qlobal siyasət: İqlim dəyişikliyi yalnız ekoloji deyil, həm də sosial-iqtisadi sistemlərə güclü təsir edir.

Bu geniş proqram qlobal iqlim mübarizəsində təcrübə, tədqiqat və əməkdaşlıq üçün imkanlar açacaq və COP-29-a hazırlıq mərhələsində önəmli addım kimi diqqət çəkəcək.

# Azərbaycan şərqşünaslığının görkəmli siması Aida İmanquliyevanın xatirə günüdür

***19 sentyabr görkəmli şərqşünas alim, Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru, professor Aida İmanquliyevanın xatirə günüdür.***

Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olub. 1957-ci ildə Bakı şəhərindəki 132 nömrəli orta məktəbi qızıl medalla bitirib və Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olunub. 1962-ci ildə universiteti bitirəndən sonra bu təhsil müəssisəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olub, həmçinin keçmiş SSRİ Elmlər Akademiyasının Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil alıb. 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda əmək fəaliyyətinə başlayıb. O, istedadı, zəhmətsevərliyi sayəsində kiçik elmi işçidən şöbə müdiri, elmi işlər üzrə direktor müavini və İnstitutun direktoru vəzifəsinədək yüksəlib.

Ömrünü Şərq mədəniyyətini və məhcər ədəbiyyatını öyrənməyə sərf edən Aida xanım İmanquliyeva müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açıb, öz fundamental araşdırmaları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, dünya şərqşünaslığını da zənginləşdirib və inkişaf etdirib. 1989-cu ildə Aida İmanquliyeva



Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə edib və çox keçmədən bu ixtisas üzrə professor adı alıb.

Üç fundamental monoqrafiyanın - "Mixail Nüaymə və "Qələmlər birliyi"", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatı korifeyləri" və 70-dən çox elmi məqalənin müəllifi Aida İmanquliyeva Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru idi. O, Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları" ixtisası üzrə müdafiə şurasının sədri olub. Azərbaycan şərqşünaslıq elmini keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda layiqincə təmsil edib. Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrların hazırlanmasına da böyük diqqət yetirirdi.

Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olan Aida İmanquliyeva uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, Bakı Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub.

Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, bütövlükdə müasir Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır.

Bir alim kimi Aida İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Amma onun elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı olub. Aida xanımın ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən sanballı tədqiqatçısı olduğunu keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları etiraf edirlər. Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yol açıb. Onun bu gün də aktuallığını qoruyub saxlayan əsərləri, monoqrafiyaları ərəb ədəbiyyatını araşdıran gənc alimlər üçün əsas istinad qaynağıdır.

Aida İmanquliyevanın işıqlı xatirəsi ürəklərdə daim yaşayacaq!

***

***Sentyabrın 19-da Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasında görkəmli şərqşünas alim, professor Aida İmanquliyevanın anım günü ilə bağlı dəyirmi masa keçirilib.***

Kafedra müdiri, dosent Vüqar Qaradağlı tədbir iştirakçılarına görkəmli şərqşünas Aida İmanquliyevanın həyatı və fəaliyyəti ilə bağlı məlumat verib. Qeyd edib ki, Aida İmanquliyeva Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk qadın professordur. Ərəb ədəbiyyatı sahəsində böyük bir məktəbin əsasını qoyan professor Aida İmanquliyeva fundamental əsərləri ilə Azərbaycan şərqşünaslığına böyük töhfə verib.

Fakültə dekanı, dosent Aydan Xəndan görkəmli alimin zəngin elmi fəaliyyətindən bəhs edib. O vurğulayıb ki, ömrünü Şərq mədəniyyətini və məhcər ədəbiyyatını öyrənməyə sərf edən Aida xanım İmanquliyeva müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açıb, öz fundamental araşdırmaları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, dünya şərqşünaslığını da zənginləşdirib.

Ərəb filologiyası kafedrasının professoru Aida Qasımova çıxışında Aida İmanquliyevanın elmi fəaliyyətinin səciyyəvi cəhətləri, Azərbaycanda ərəb ədəbiyyatının tədqiqi məktəbinin formalaşmasındakı rolundan danışıb.

Elmi işlər üzrə dekan müavini, dosent Nigar İsmayılzadə professor Aida İmanquliyevanın zəngin insani keyfiyyətlərə malik xanım, unudulmaz müəllim, səmimiyyət və xeyirxahlıq mücəmməsi kimi də yaddaşlarda daim yaşayacağını diqqətə çatdırıb.

Tədbirin sonunda professor Aida İmanquliyevanın həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

# Görkəmli alim, yazıçı və pedaqoq - Mir Cəlal Paşayev

***28 sentyabr XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin vəfatından 46 il ötür.***

Mir Cəlal Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanda (Ərdəbil ostanı) yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçib. Mir Cəlal 10 yaşında olanda atası vəfat edib və o, böyük qardaşının himayəsində yaşayıb.

Mir Cəlal Paşayev 1918–1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil alıb və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəllimliyinə daxil olub. Tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilib. Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik edib və millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini mənimsədib. Bu mənada Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri misilsizdir.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. Görkəmli yazıçının "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi müəllifinə əbədiyaşarlıq qazandırıb. Onun böyük zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir.

Bakı Dövlət Universitetinin sevimli müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayan Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını, tələbələrini sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir".

XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınıb. Mir Cəlal öz yazı üslubu ilə həmkarlarından fərqlənərək Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib. XX əsr Azərbaycan ədəbiyyatının bir sıra nailiyyətləri bilavasitə Mir Cəlal Paşayevin adı ilə bağlıdır. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub. Təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı yox idi. 1928-ci ildə mətbuatda ilk



şeirləri ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunub. O dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" və digər hekayələrini çap etdirib. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabları işıq üzü görüb.

Mir Cəlalın ilk irihəcmli əsəri "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunub. Hələ yarım əsr bundan əvvəl akademik Məmməd Arif yazırdı: "Mir Cəlal "Dirilən adam"la diqqəti bir realist yazıçı olduğunu göstərib".

"Bir gəncin manifesti" əsəri isə yazıçının həyatında böyük bir dönüş yaradıb, ədəbi zirvəyə aparan yoluna cığır açıb və müəllifə böyük oxucu auditoriyası qazandırıb.

Mir Cəlalın "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınıb. Yazıçının "İnsanlıq fəlsəfəsi" (1961) kitabında toplanmış hekayələri də böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malikdir. "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Vicdan mühakiməsi", "Vicdan əzabı", "Hesab dostları", "Təsadüf, ya zərurət", "Qocaların uşaq söhbəti" və digər hekayələrində isə real həyat lövhələri, fəlsəfi düşüncələr əks olunub. İndiyədək yazıçının 70-dən çox kitabı çap edilib.

Mir Cəlal Paşayev çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutub.

Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb. Füzuli poeziyasının qüdrətinə heyran olan, ümumiyyətlə, klassik ədəbiyyata qəlbən bağlı Mir Cəlal Paşayev 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirib.

Mir Cəlal Paşayevin tanınmış tədqiqatçı Firudin Hüseynovla birgə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" əsəri uzun illərdir ki, ali məktəblər üçün dərs vəsaitidir. Bu dərslikdə XX əsrin böyük ədəbi şəxsiyyətləri, onların yaradıcılığı, ədəbi mühitə gətirdikləri yeniliklər haqqında əhatəli elmi fikirlər əks olunub.

1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşmuş gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, özündən sonra gələn nəsillərə də örnəkdir.

"UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. UNESCO-nun Parisdə yerləşən iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. Bu, həm də Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür.

# BDU-da Dövlət Suverenliyi Günü ilə bağlı tədbirlər keçirilib

***"BDU könüllüləri" təşkilatı və İnformasiya və sənəd menecmenti fakültəsinin birgə təşkilatçılığı ilə 20 sentyabr - Dövlət Suverenliyi Günü ilə bağlı tədbir keçirilib.***



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

İnformasiya və sənəd menecmenti fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Daşqın Məhəmmədli bildirib ki, Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən, hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd ediləcək. O, 2023-cü il sentyabrın 19-20-də keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpa olunduğunu və şanlı tariximizə ən parlaq səhifələr yazıldığını diqqətə çatdırıb.

Redaksiya və nəşriyyat işi kafedrasının müdiri, 1-ci Qarabağ müharibəsinin iştirakçısı Knyaz Aslan qeyd edib ki, cəmi 23 saat davam edən, suverenliyimizin tam bərpası ilə yekunlaşan, separatizmə son qoyan lokal xarakterli antiterror tədbirləri Vətən müharibəsində qazanılan böyük Zəfərin yekun möhürü oldu. Qürurvericidir ki, bu gün Azərbaycanın Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanır.

Sonda isə Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüzün, suverenliyimizin xalqımızın milli sərvəti olduğunu bildirib.

***

***Tarix fakültəsinin təşkilatçılığı ilə Azərbaycan Ordusunun Qarabağ iqtisadi rayonunda həyata keçirdiyi antiterror əməliyyatının birinci ildönümü və Dövlət Suverenliyi Günü münasibətilə tədbir keçirilib.***

Tədbirdə çıxış edən Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov tariximizə qızıl hərflərlə yazılan böyük Zəfərimizdən və onun məntiqi davamı olan antiterror əməliyyatından söz açıb. Qeyd edib ki, Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il 27 sentyabrda başlanan 44 günlük Vətən Müharibəsindəki parlaq qələbə nəticəsində tarixi Azərbaycan torpaqları 30 illik işğaldan azad edilib. 2023-cü il sentyabrın 19-da isə Azərbaycanın Qarabağ iqtisadi rayonunda ermənilər tərəfindən törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və erməni silahlı qüvvələrinin qalıqlarının tərkisilah edilərək torpaqlarımızından çıxarılması, həmin ərazidə Azərbaycanın Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatı həyata keçirilib. Cəmi 23 saat davam edən əməliyyat nəticəsində dövlət suverenliyimiz bərpa edilib. Azərbaycanın bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və dövlət suverenliyinin tam bərpa edildiyini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu il sentyabrın 19-da Azərbaycanda Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Sərəncam imzalanıb. Sərəncama əsasən, hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd ediləcək.

Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, akademik Yaqub Mahmudov, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri, dosent Mehman Abdullayev Qarabağdakı erməni hərbi birləşmələrinin darmadağın edilməsi, Xocalı, Xocavənd, Ağdərə, Xankəndi və Əsgəran kimi şəhər və yaşayış məntəqələrimizin işğaldan azad edilməsi nəticəsində Azərbaycanın suverenliyinin və Konstitusiya quruluşunun tamamilə bərpa edilməsinin tarixi əhəmiyyətindən danışıblar. Bildiriblər ki, Azərbaycan tarixinin 200 illik dövründə qazanılan ən böyük qələbənin davamı ötən ilin 19-20 sentyabr tarixlərində yaşanıb. Antiterror əməliyyatı düşmən qüvvələrinin məğlubiyyətini başa çatdıraraq, bu torpaqların əzəli və əbədi olaraq Azərbaycana aid olduğunu bütün dünyaya nümayiş etdirib.

# BDU-da ədəbi-bədii tədbir: "Unudulmazlar"

***Filologiya fakültəsində "BDU könüllüləri"nin təşkilatçılığı və "Lin-Orph" musiqi klubunun dəstəyi ilə 27 sentyabr - Anım Gününə həsr olunmuş "Unudulmazlar" adlı tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov 44 günlük Vətən müharibəsinin Prezident-Ordu-Xalq birliyinin ən güclü nümunəsi olduğunu, xalqımızın tarixinə qızıl hərflərlə yazıldığını bildirib. Vətən müharibəsi nəticəsində 30 illik işğala, yurd həsrətinə son qoyulub. Ötən il həyata keçirilən antiterror tədbirləri ilə isə erməni seperatizminin kökü kəsilib, suverenliyimiz tam bərpa olunub.

BDU-nun şəhid məzunu Nicat Əhmədovun bacısı Lalə Zeynalova qeyd edib ki, Universiteti bitirdikdən sonra, 2020-ci ilin iyulunda hərbi xidmətə yollanan Nicat əsgərlikdə rabitə bölüyündə qulluq edib. Sentyabrın 22-də – doğum günündə yaxınları onu görməyə gəlib, həmin günü ailəsi ilə birlikdə hərbi hissədə qeyd edib. Beş gün sonra Vətən müharibəsi başlayıb və Nicat da bu müqəddəs döyüşlərə qoşulub. Oktyabrın 8-i səhər saatlarında Füzuli istiqamətindəki döyüşlərdə şücaət göstərərək əbədiyyətə qovuşub.

Vətən müharibəsi şəhidi, polkovnik-leytenant Nail Orucovun həyat yoldaşı Nigar Ağamalıyeva çıxışında qəhrəman şəhidimizin döyüş yolundan bəhs edib. Diqqətə çatdırıb ki, Nail Orucov 2015-ci ildə hərbi xidmətdən ehtiyata buraxılsa da, 2020-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən təlimlərə cəlb olunub.

Oktyabrın 31-də düşmən təxribatı nəticəsində Qubadlıya yenidən hücum olunub və Nail Orucov düşmənin artilleriya atəşi nəticəsində şəhadətə yüksəlib.

Tədbirdə Vətən müharibəsi şəhidləri - polkovnik-leytenant Nail Orucov və Nicat Əhmədov haqqında videoçarxlar nümayiş olunub, II kurs tələbəsi Hümbət Bədəlovun çıxışı dinlənilib, "Lin-Orph" musiqi klubunun üzvləri vətənpərvərlik mövzusunda mahnılar ifa ediblər.

# BDU-nun şəhid məzunu Nicat Əhmədovun məzarı ziyarət olunub



***Sentyabrın 23-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Universitetin bir qrup əməkdaşı və tələbəsi Vətən müharibəsi şəhidi, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu Nicat Əhmədovun doğum günündə ailəsi ilə görüşüb, məzarını ziyarət edib.***

Ziyarətdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, THİK sədri Zöhrab Cavadzadə və qurumun fəal üzvləri iştirak ediblər.

Görüşdə çıxış edənlər Nicat Əhmədovun Vətən torpağı uğrunda qəhrəmancasına vuruşduğunu qeyd ediblər. Təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Nicat Əhmədovun müəllimləri və tələbə yoldaşlarının qəlbində daim yaşayacağı vurğulanıb.

Qeyd edək ki, Nicat Əhmədov 2016-2020-ci illərdə BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində təhsil alıb. 2020-ci il oktyabrın 8-də Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

# Kimya fakültəsinin kollektivi II Fəxri Xiyabanı ziyarət edib

***Sentyabrın 25-də Kimya fakültəsinin tələbə və əməkdaşları 27 sentyabr - Anım Günü ilə əlaqədar II Fəxri Xiyabanı ziyarət ediblər.***

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi yad edilib, ruhlarına dualar oxunub, məzarları üzərinə gül dəstələri düzülüb.

Onlar ziyarət zamanı şəhid ailələri ilə də görüşüb, qəhrəman şəhidlərin döyüş yolunun hər bir azərbaycanlı gənc üçün örnək olduğunu, cəsur, vətənpərvər oğullar böyüdən valideynlərlə qürur duyduqlarını bildiriblər.

# Suraxanı Gənclər Evində tələbələrin hazırladığı "Yarımçıq qalmış.." tamaşası nümayiş olunub

***Sentyabrın 26-da Suraxanı Gənclər Evinin təşkilatçılığı ilə 27 sentyabr - Anım Günü münasibətilə BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin tələbələrinin ifasında "Yarımçıq qalmış..." tamaşası nümayiş olunub.***

Tamaşanın nümayişindən əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Suraxanı Rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər üzrə iş şöbəsinin əməkdaşı Azad Əzizov, Əmircan və Bülbülə qəsəbə nümayəndələri, Müdafiə Cəmiyyətinin Suraxanı rayon şöbəsinin sədri Nəsibə Əliyeva, həmçinin şəhid ailələri iştirak ediblər.

Vahid Orucoğlunun quruluşçu rejissorluğu ilə hazırlanan səhnə əsərində Universitetin müxtəlif fakültələrinin istedadlı tələbələri şəhid olmuş qəhrəman oğullarımızın, onların ailə üzvlərinin obrazlarını məharətlə yaradıblar.

Əsərin müəllifi Yefim Abramov, şeirlərin müəllifi Leyla Bəyimdir. Səhnə əsərində rolları Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının aktyoru Vahid Orucoğlu, tələbələr Eltac Abbasov, Hüseyn Cabbarlı, Nərmin Zeynalova, Ramazan Ramazanlı, Tural Behbudov, Fidan Sultan, Mədinə Hüseynzadə, Nuran Atakişiyev ifa ediblər.

# BDU-105: Peşəkar İT mütəxəssisləri hazırlayan Tətbiqi riyaziyyat və kibernetika fakültəsi





***Tətbiqi riyaziyyat və kibernetika fakültəsi 1972-ci ildə müstəqil Azərbaycan Respublikasının qurucusu, Ümummilli Lider Heydər Əliyevin göstərişi və şəxsi himayəsi ilə yaradılıb. BDU-nun Mexanika-riyaziyyat fakültəsinin Tətbiqi riyaziyyat, Riyazi fizika tənlikləri və Nəzəri mexanika kafedraları bazasında yaradılmış Tətbiqi riyaziyyat fakültəsi inkişaf edərək universitetin qabaqcıl fakültələrindən birinə çevrilib.*** 1992-ci ilin sentyabr ayından fakültə Tətbiqi riyaziyyat və kibernetika fakültəsi adlanmağa başlayıb. Yarandığı ildən başlayaraq fakültədə "Tətbiqi riyaziyyat", 1991-ci ildən isə "İqtisadi kibernetika" ixtisasları üzrə kadrlar hazırlanıb. Fakültədə 2009-cu ildən "Kompüter elmləri" və "İnformatika müəllimliyi", 2021-ci ildən isə "İnformasiya təhlükəsizliyi" ixtisasları üzrə kadrlar hazırlanır.

Fakültəyə dosent Mustafa Vəliyev (1972-1988), akademik Mirabbas Qasımov (1989), professor Rizvan Paşayev (1989-1999, 2005-2007), AMEA-nın həqiqi üzvü, professor Yusif Məmmədov (2000-2004), AMEA-nın həqiqi üzvü, professor Məhəmməd Mehdiyev (2008-2024) rəhbərlik edib. Onların hər birinin fakültənin inkişafında, təhsil və elm sahəsində uğurların əldə olunmasında əvəzsiz xidmətləri olub. Hazırda fakültənin dekanı professor Ələkbər Əliyevdir.

Fakültədə tədrisin və elmin inkişafı üçün akademiklər Məcid Rəsulov, Mirabbas Qasımov, Cəlal Allahverdiyev, professorlar Niyaz Məmmədov, Rzabala Fərəcov, Tamilla Nəsirova, Rizvan Paşayev, dosent Ramin Mahmudzadə və digərləri müstəsna xidmət göstəriblər. Fakültənin məzunları hazırda respublikanın müxtəlif elm və təhsil ocaqlarında, o cümlədən dünyanın müxtəlif ölkələrində çalışırlar. Onların arasında İngiltərədə Elnur Seyidovu, Aqil Əliyevi, İsmayıl Əliyevi, Turan Məmmədovu, Danimarkada Aslan Əsgərovu, İrlandiyada Xalid Həsənovu, Kanadada Adil Əliyevi, Almaniyada Murad Talıbovu, Niderlandda Aydın Kazımovu, İspaniyada Nurlan Sofiyevi və digərlərini misal göstərmək olar.

Ölkə iqtisadiyyatının ən müxtəlif istiqamətlərində, tətbiqi və fundamental riyazi tədqiqatlar, informasiya texnologiyaları sahələrində çalışan məzunlar haqqında mütəmadi olaraq fakültəyə xoş rəylər, təşəkkür məktubları daxil olur. Fakültənin elmlər doktoru və elmlər namizədi alimlik dərəcələri almış məzunları çoxdur. Onlar arasında yüksək elmi vəzifələr, hətta yüksək dövlət vəzifələri tutan məzunlar da var. Bu sıradan AMEA-nın müxbir üzvü, professor Əyyub Quliyevi, professorlar Əli Nağıyevi, Asəf Zamanovu, Uğur Abdullayevi, Qərib Mürşüdovu, Aslan Əsgərovu, Bilal Bilalovu, Qabil Yaqubovu və başqalarını qeyd etmək olar.

"Kompüter elmləri", "İnformatika müəllimliyi" və "İnformasiya təhlükəsizliyi" ixtisasları üzrə peşəkar kadrlar hazırlayan, yüksək elmi və texniki bazası olan Tətbiqi riyaziyyat və kibernetika fakültəsi 50 ildən artıqdır ki, fəaliyyət göstərir. Fakültədə Tətbiqi riyaziyyat, Riyazi fizika tənlikləri, Optimallaşdırma və idarəetmə, Riyazi kibernetika, Əməliyyatlar tədqiqi və ehtimal nəzəriyyəsi, İnformasiya texnologiyaları və proqramlaşdırma, İnformatika, İqtisadi kibernetika və Tətbiqi analizin riyazi üsulları kafedraları fəaliyyət göstərir. Fakültədə 17 professor və elmlər doktoru (onlardan ikisi AMEA-nın həqiqi üzvü), 54 dosent və elmlər namizədi çalışır.

Son beş il ərzində fakültənin professor-müəllim heyəti və elmi işçilər tərəfindən 40 kitab, 418 elmi məqalə (xarici nəşrlərdə 215 məqalə), 537 tezis (xaricdə 272 tezis) nəşr olunub.

Fakültədə elmi-pedaqoji kadrların hazırlanmasına xüsusi diqqət yetirilir. Tətbiqi riyaziyyat və kibernetika fakültəsində bakalavriat səviyyəsində 3 ixtisas üzrə ("Kompüter elmləri", "İnformatika müəllimliyi" və "İnformasiya təhlükəsizliyi") 1741 tələbə, magistratura səviyyəsində 19 ixtisaslaşma üzrə 280 magistrant, doktorantura səviyyəsində (fəlsəfə doktoru, elmlər doktoru proqramları üzrə) 7 doktorant olmaqla cəmi 2028 nəfər təhsil alır. Son beş il ərzində fakültənin müəllimləri tərəfindən 4 elmlər doktoru və 6 fəlsəfə doktoru dissertasiyası müdafiə edilib.

Fakültədə müntəzəm olaraq elmi seminarlar keçirilir. Bu seminarlarda yalnız fakültə əməkdaşları deyil, digər fakültə və elmi-tədqiqat müəssisələrinin əməkdaşları da iştirak edirlər.

Fakültədə müasir kompüterlərlə təchiz olunmuş Azərbaycan-Koreya İnformasiya Mərkəzi tələbələrin və elmi tədqiqatçıların istifadəsinə verilib ki, bu da müasir standartlara cavab verən kadrların hazırlanmasında əhəmiyyətli rol oynayır.

Hazırda bütün dünyada informasiya-kommunikasiya texnologiyaları hər bir dövlətin, xalqın inkişaf səviyyəsini, intellektual potensialını qiymətləndirməyə imkan verən, sosial, iqtisadi və mədəni yüksəlişini təmin edən mühüm göstəricilərdən biridir. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı və çevik tətbiqi nəticəsində cəmiyyətin bütün sahələrində köklü dəyişikliklər baş verir. İnformasiya iqtisadiyyatının formalaşması və inkişaf etdirilməsinə, cəmiyyətin informasiya-kommunikasiya infrastrukturunun yaradılmasına, genişləndirilməsinə hazırda böyük diqqət yetirilir. Müasir dövrü kompüter elmləri və texnologiyaları olmadan təsəvvür etmək olmaz. Onların sürətli inkişafı bir çox problemlərin və mürəkkəb praktiki məsələlərin həllinin aktuallaşmasına gətirib çıxarır. Bunların arasında istifadəçilərin ehtiyaclarına yönəlmiş müasir tətbiqi və sistem proqram təminatının, veb dizaynın, elektron ticarət sistemlərinin, böyük məlumat bazalarının, süni intellekt sistemlərinin, kompüter qrafikasının, hesablama buludlarının, informasiyanın təhlükəsizliyinin təmin olunması sistemlərinin və s. yaradılmasını qeyd etmək olar. Göstərilən problemlərin həlli üçün Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin "Kompüter elmləri" ixtisasının məzunlarına ehtiyac duyulur.

Bu ixtisasın aktuallığını nəzərə alaraq, İsrailin Holon Texnologiya İnstitutu və Bakı Dövlət Universiteti arasında "Kompüter elmləri" ixtisası üzrə bakalavriat səviyyəsində ikili diplom layihəsi çərçivəsində memorandum imzalanıb. Bu ikili diplom layihəsinin əsas məqsədi "Kompüter elmləri" ixtisası üzrə əmək bazarının tələblərinə uyğun ixtisaslı mütəxəssislərin hazırlanmasıdır.

Bu gün əmək bazarının əsas tələblərindən biri kompüter elmləri və texnologiyalarının fundamental və xüsusi tətbiqi metodlarından istifadə edərək öz peşə fəaliyyətlərində praktik problemləri effektiv həll etmək imkanına malik olan yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasından ibarətdir. Tətbiqi riyaziyyat və kibernetika fakültəsi kompüter elmləri sahəsində hərtərəfli riyazi biliyə, alqoritmik düşüncəyə sahib, effektiv alqoritmlərin qurulması və təhlilinin müasir metodlarını, texnologiyaların biləm və onları real sənaye məsələlərində tətbiq etmək bacarığına malik olan peşəkar mütəxəssislər hazırlayır.

Tətbiqi riyaziyyat və kibernetika fakültəsində SABAH layihəsi çərçivəsində "Kompüter elmləri və texnologiyaları" ixtisaslaşması üzrə yeni məzmun yaradılıb və tətbiqi həyata keçirilib.

BDU Avropa İttifaqının maliyyələşdirdiyi və İsveçin Linköping Universiteti, Böyük Britaniyanın Derbi Universiteti, Estoniyanın Tallin Universiteti və Portuqaliyanın Tomar Universiteti, həmçinin Rusiya Federasiyasının Həştərxan Universiteti, Voronej Universiteti, Cənubi Federal Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Mühəndislik Universiteti tərəfindən birgə icra olunan "MAGNUS – Partnyor universitetlərdə mobil tətbiqlər və kompüter oyunları üzrə magistr tədris proqramlarının yaradılması" adlı "Erasmus+ KA2" layihəsinə tərəfdaş universitet kimi qatılıb. Sözügedən layihənin məqsədi tərəfdaş universitetlərdə magistratura səviyyəsində "Kompüter elmləri" ixtisasında "Mobil tətbiqlərin hazırlanması və oyun dizaynı" adlı yeni ixtisaslaşmanın açılması və bu sahədə kadr hazırlığıdır. Bu məqsədlə Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin əməkdaşları Avropa İttifaqının beynəlxalq "MAGNUS" layihəsində iştirak edib.

Hər il Ulu Öndər Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş "Tətbiqi riyaziyyatın müasir problemləri" mövzusunda gənc tədqiqatçılar və magistrantların elmi konfransı keçirilir. Belə konfranslar tətbiqi riyaziyyat və informasiya texnologiyalarının bir çox aktual problemləri üzrə fikir və bilik mübadiləsi üçün geniş platforma yaradır. Konfransa təqdim olunan elmi işlər əsasən dərin öyrənmə və maşın öyrənməsi alqoritmlərinin effektivliyinin artırılmasına, süni intellekt metodlarının tətbiq sahələrinə, informasiya təhlükəsizliyinin qorunması üsullarına, mobil tətbiqlərin yaradılmasına, kompüter şəbəkələrinin texniki və proqram təminatına və informasiya texnologiyalarının digər aktual sahələrinə həsr edilir.

BDU-nun 105 illik yubileyi günlərində Tətbiqi riyaziyyat və kibernetika fakültəsi tətbiqi riyaziyyat və informasiya texnologiyaları sahəsində yüksək ixtisaslı mütəxəssislər yetişdirmək, elmi tədqiqatlar aparmaq və cəmiyyətin inkişafına töhfə vermək missiyası daşıyır. Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin məqsədi regionda və dünya miqyasında tanınan, qabaqcıl elmi araşdırmalar və yenilikçi tədris proqramları ilə fərqlənən lider bir təhsil mərkəzi olmaqdır. Fakültə təhsil və elmi araşdırmalarda yüksək keyfiyyət standartlarını qorumaq, texnoloji yeniliklərə açıq olmaq, onları tədris və tədqiqatlarda tətbiq etmək, yerli və beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmək üçün daim çalışır. Elmi tədqiqatların nəticələrini tədris prosesinə daxil etmək, tələbələri əmək bazarına hazırlamaq üçün praktiki bacarıqları inkişaf etdirmək, yaradıcılıq və innovasiyanı təşviq edən təhsil mühiti yaratmaq əsas hədəflərdəndir. Bu prinsip və dəyərlər əsasında fakültənin inkişafına və tələbələrin uğuruna töhfə vermək mümkündür.

# BDU-105: Azərbaycan və xarici ölkələr üçün yüksək ixtisaslı mütəxəssislər hazırlayan Geologiya fakültəsi

***Geologiya fakültəsi Azərbaycanın geologiya üzrə elmi-pedoqoji kadr ehtiyaclarının ödənilməsində əhəmiyyətli rol oynayan elm və təhsil mərkəzidir.*** BDU-da Geologiya fənninin tədrisi hələ 1934-cü ildən Biologiya fakültəsinin tərkibində təşkil edilib. Universitetdə geoloq kadrların hazırlanmasına isə 1943-cü ildən başlanılıb. 81 il ərzində fakültənin aparıcı alimlərinin səyi nəticəsində BDU-da geologiya təhsili ali təhsil sisteminin ən əsas bölmələrindən birinə çevrilib, minlərlə yüksəkixtisaslı mühəndis-geoloq, geofizik, hidrogeoloq, neftçi-geoloq, dağ-mədən mühəndisi və geokimyaçı əmək bazarına daxil olub. Fakültənin məzunlarının bilavasitə iştirakı sayəsində ölkəmizdə etibarlı mineral-xammal bazası yaradılıb. Azərbaycan ərazisində istismar edilən və yaxud balans ehtiyatlarına malik əksər faydalı qazıntı yataqları fakültənin yetişdirmələri tərəfindən kəşf edilib. Fakültənin məzunları ölkəmizdə və xaricdə yaxşı tanınır, bir sıra elm və təhsil müəssisələrinin kadr potensialının əsasını təşkil edir və rəhbər vəzifələrdə çalışırlar.






Geologiya-coğrafiya fakültəsi 1943-1944-cü tədris ilində Geologiya və paleontologiya, Kristalloqrafiya, mineralogiya və petroqrafiya və Coğrafiya kafedralarının bazasında yaradılıb. 1991-ci ildən Geologiya-coğrafiya fakültəsi iki struktura - Geologiya və Coğrafiya fakültələrinə ayrılıb. Ümumi və tarixi geologiya kafedrası 1943-cü ildə yaranan Geologiya-coğrafiya fakültəsinin ilk kafedralarından biri olub, əvvəl Ümumi geologiya və hidrogeologiya kafedrası adlanıb. Bu kafedra sonralar yaradılan digər kafedraların əsas bazası hesab olunur. Müxtəlif illərdə yeni kafedraların açılması, mövcud kafedraların elmi kadr potensialının artırılması və gücləndirilməsi, elmi tədqiqat və tədris laboratoriyalarının yaradılması, digər olkələrin elm və tədris mərkəzləri ilə əməkdaşlıq fakültənin fəaliyyətinin əsas prioritet istiqaməti olub. Fakültənin məzunları arasında görkəmli alimlərlə yanaşı, ölkəmizin inkişafında xüsusi əməyi olan ictimai-siyasi xadimlər, ərazi bütövlüyümüz uğrunda vuruşan qəhrəmanlarımız var.

Fakültə təkcə Azərbaycan üçün deyil, yaxın və uzaq xarici ölkələr üçün də yüksəkixtisaslı mütəxəssislər, elmi kadrlar hazırlayıb. Geologiya fakültəsində xarici ölkələr üçün mütəxəssis hazırlığına 1968-ci ildən başlanılıb. Qısa müddət ərzində BDU, xüsusən Geologiya fakültəsi keçmiş İttifaqda bu sahədə peşəkar kadrlar hazırlayan əsas mərkəzlərdən birinə çevrilib. Bu illər ərzində xarici ölkələr üçün (Kuba, Əlcəzair, Misir, Suriya, Vyetnam, İordaniya, Şri-Lanka, Əfqanıstan, Yəmən, Türkiyə, İran və s.) 500-dən artıq yüksəkixtisaslı mütəxəssis, o cümlədən 40-a yaxın elmlər namizədi və doktoru hazırlanıb. Məzunlardan bir qismi öz ölkələrində yüksək dövlət vəzifələrində çalışıblar. 1980-1981-ci illərdə Geologiya fakültəsi keçmiş SSRİ-də ilk dəfə olaraq BMT-nin geologiya kursu təcrübəçiləri üçün tədris-laboratoriya bazası kimi (Faydalı qazıntılar kafedrasının moderatorluğu ilə) fəaliyyət göstərib. Təcrübəçilərin akademik hazırlığı bir aylıq kurslarda "Sedimentalogiya" (1980) və "Polimetal yataqların geologiyası" (1981) istiqamətlərində aparılıb. Kurslarda 16 ölkənin nümayəndəsi hazırlıq keçib. Fakültədə uzun illər keçmiş SSRİ-nin və xarici ölkələrin aparıcı alimləri geologiyanın başlıca problemlərinə həsr olunmuş açıq mühazirələrlə (ustad dərsləri) çıxış ediblər.

Geologiya-coğrafiya fakültəsinə 1943-1952-ci illərdə professor Əziz Əsgərov, dosent Abdulla Şahbazov, professor Hadi Əliyev rəhbərlik edib. Sonrakı illərdə fakültə dekanı vəzifəsində professorlar Səttar Süleymanov (1952-1963), Ramiz Sultanov (1963-1965), dosent Mürsəl Həsənov (1965-1967), professor Rizvan Piriyev (1967-1972), akademik Vasif Babazadə (1973-1981), AMEA-nın müxbir üzvü Qədir Sultanov (1981-1986), professor Tofiq Şahsuvarov (1986-1992), dosentlər Adil Xasayev (1992-2016), Məhluqə Məmmədova (2016-2021) çalışıblar. Fakültəyə 2022-ci ildən dosent Mamoy Mansurov rəhbərlik edir.

Keçən əsrin 50-ci illərindən başlayaraq fakültə alimlərinin geologya elminin inkişafında, onun dünya miqyasında tanınmasında, tədrisin təşkili və yüksək ixtisaslı mühəndis-geoloq kadr hazırlığının həyata keçirilməsində, qızıl, mis, qurğuşun, sink, civə, xromit, barit və s. faydalı qazıntı yataqlarının öyrənilməsində və işlənilməsində müstəsna xidmətləri olub. Onlardan AMEA-nın həqiqi üzvləri Vasif Babazadə, Musa Əliyev, Əliəşrəf Məm¬mədov, Şəfayət Mehdiyev, Mirəli Qaşqay, Ədhəm Şıxəlibəyli, Arif İsmayılzadə, Akif Əlizadə, müxbir üzvləri Qədir Sultanov, Xudu Məmmədov, Tələt Kəngərli və digərlərinin adlarını çəkmək olar. Fakültədə çalışan alimlərdən akademiklər Şəfayət Mehdiyev və Faiq Bağırzadə müxtəlif illərdə (1958-1965 və 1970-1989) BDU-nun rektoru işləyiblər. BDU-nun prorektoru vəzifəsini daşımış akademiklər Əzəl Sultanov, Şirəli Məmmədov, müxbir üzvlər Qədir Sultanov və Ramiz Sultanov da fakültənin professorları olublar.

Geologiya fakültəsində təhsilin bakalavriatura, magistratura, doktorantura səviyyələrində elmi-pedoqoji kadr hazırlığı həyata keçirilir. Fakültədə 5 kafedra (Ümumi və tarixi geologiya, Hidrogeologiya və mühəndis geologiyası, Seysmologiya və Yer təkinin fizikası, Faydalı qazıntılar və Kristalloqrafiya, mineralogiya və geokimya kafedraları) və bir elmi-tədqiqat laboratoriyası (Kompleks geoloji və geofiziki tədqiqatlar ETL), Azərbaycanın Faydalı qazıntılar muzeyi, Akademik Musa Əliyev adına kabinet, Geologiya və Geofizika İnstitutunda yaradılan tədris elmi mərkəz fəaliyyət göstərir.

Geologiya fakültəsində 35-ə qədər professor-müəllim heyəti çalışır. Onlardan biri AMEA-nın həqiqi üzvü, 7 nəfəri elmlər doktoru, professor, 19-u yer elmləri üzrə fəlsəfə doktoru, dosent, baş müəllim və müəllimdir. Fakültədə tədris Azərbaycan, rus və ingilis dillərində həyata keçirilir. Fakültədə "Geologiya", "Geologiya və geofizika mühəndisliyi", "Mədən mühəndisliyi" və "Meliorasiya mühəndisliyi" ixtisasları üzrə mütəxəssis hazırlığı aparılır. 4 istiqamət, 11 ixtisaslaşma üzrə magistrlər, 7 ixtisas üzrə isə fəlsəfə və elmlər doktorları hazırlanır.

Geologiya fakültəsi yarandığı gündən tədris və elmi fəaliyyət günün tələblərinə uyğun qurulub, bu da fakültənin daim inkişafda olmasını təmin edib. Hazırda Geologiya fakültəsində fundamental təhsil verilir və dünya səviyyəli müasir elmi tədqiqatlar aparılır. Fakültə böyük elmi-texnoloji, kadr potensialına, elmin və texnologiyanın müxtəlif istiqamətlərində məqsədli kadr hazırlığını həyata keçirmək imkanlarına malikdir. Tədqiqat mövzuları müasir elmin inkişaf tendensiyalarına tamamilə uyğundur. Geologiyanın aktual problemləri hazırda fakültə əməkdaşlarının elmi-tədqiqat işlərinin əsasını təşkil edir. Fakültədə müasir standartlara cavab verən tədris proqramları hazırlanıb. Son iyirmi ildə fakültə əməkdaşları tərəfindən 60-dan artıq monoqrafiya, 30 dərslik və dərs vəsaiti hazırlanıb.

Fakültə alimləri bir çox ölkədaxili və beynəlxalq fondların qrantlarını alıblar, aparılan tədqiqatların nəticələri dünyanın nüfuzlu elm jurnallarında dərc olunub. Elmi-tədqiqat sahəsində yaxşı nəticələr əldə edən tələbələrə, magistrant və doktorantlara dünyanın aparıcı tədqiqat mərkəzlərində təcrübə keçmək, beynəlxalq konfranslarda məruzə ilə çıxış etmək imkanları yaradılır.

Elm və təhsil fəaliyyətinin əsas göstəricilərindən sayılan beynəlxalq əlaqələrin qurulması, yerli və beynəlxalq konfransların keçirilməsi, müasir və aktual problemlərə həsr olunmuş seminarların təşkili əsas məqsədlərdəndir. Fakültənin professor-müəllim heyəti müxtəlif təcrübə proqramlarında, ölkədaxili və beynəlxalq layihələrdə yaxından iştirak edirlər, onların məqalələri nüfuzlu beynəlxalq bazalarda indeksləşdirilmiş jurnallarda ("Web of Science", "Scopus" və s.) dərc olunur. Təkcə son beş ildə fakültənin əməkdaşlarının 200-dən artıq məqaləsi (o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan jurnallarda) çapdan çıxıb.

Geologiya fakültəsində hər il Ümumimilli Lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş "Yer təkinin öyrənilməsi və mineral xammal ehtiyatlarının proqnozlaşdırılması", Tələbə Elmi Cəmiyyətinin "Yer qabığında gedən proseslər haqqında müasir təsəvvürlər" mövzusunda Respublika elmi konfransları keçirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) qərarı ilə BDU-nun nəzdində "Petrologiya, vulkanologiya" və "Bərk faydalı qazıntıların geologiyası, axtarışı və kəşfiyyatı, minerageniya" ixtisasları üzrə Dissertasiya Şurası yaradılıb. 2024-cü ilin ilk 6 ayı ərzində Dissertasiya Şurasında fəlsəfə doktoru proqramı üzrə 3, elmlər doktoru proqramı üzrə isə 1 dissertasiya işi müdafə olunaraq, AAK-a təqdim olunub.

Fakültədə elmi-tədqiqat işlərinin səmərəliliyini və tədrisin keyfiyyət göstəricilərini yüksəltmək məqsədilə Türkiyə (İstanbul Texniki Universiteti, Orta Doğu Texniki Universiteti, Kocaeli Universiteti), Rusiya (M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, Novosibirsk Dövlət Universiteti), Ukrayna (T.Şevçenko adına Kiyev Dövlət Universiteti, Xarkov Dövlət Universiteti), İran (Payami Nur Universiteri), Qazaxıstan (K.İ.Satpayev adına Qazaxıstan Milli Texniki Universiteti), Gürcüstan (Tbilisi Dövlət Universiteti), ABŞ (Mayami Universitetı), Özbəkistan (Geoloji Elmlər Universiteti, Mineral Xammal İnstitutu) və digər ölkələrin qabaqcıl elm və təhsil müəssisələrilə elmi əməkdaşlıq aparılır, müştərək elmi məqalələrin və monoqrafiyaların yazılması həyata keçirilir. Fakültə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji-Kəşfiyyat Agentliyi, Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi, Geologiya və Geofizika İnstitutu, Neft və Qaz İnstitutu, Respublika Seysmoloji Xidmət Mərkəzi, SOCAR və onun nəzdində olan sahə elmi-tədqiqat institutları, "AzerGold" QSC, "Azerbaijan International Mining Company Limited" Şirkəti, BP və s. şirkətlərlə aktiv və səmərəli əməkdaşlıq edir.

Geologiya fakültəsi BDU-nun İnkişaf Strategiyasına uyğun olaraq öz yaxın, orta və uzaq perspektivdəki hədəflərini müəyyənləşdirib. Zəngin və məhsuldar keçmişi olan Geologiya fakültəsi yeni uğurlara doğru inamla addımlayır.

# Zəfər tariximizə qızıl hərflərlə yazılan gün

*Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 02 dekabr 2020-ci il tarixli sərəncamı ilə Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Anım Günü kimi qeyd edilir.*

***27 sentyabr qalib Azərbaycanımızın tarixinin ən şanlı, qürurverici səhifəsinin yazılmağa başladığı gündür - Vətən müharibəsinin başlanmasından dörd il ötür.***

2020-ci il 27 sentyabr tarixində səhər saatlarında Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmağa başladı. Buna cavab olaraq, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusu bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı ilə döyüşə atıldı.

İkinci Qarabağ müharibəsi əhali arasında Vətən müharibəsi və "Dəmir Yumruq əməliyyatı" kimi qəbul edilərək, Azərbaycan tarixinə ən parlaq səhifə kimi yazıldı. 44 gün davam edən müharibə zamanı Azərbaycan xalqı dünya tarixində misli görünməmiş, sözün əsl mənasında, qeyri-adi birlik və fədakarlıq göstərərək ölkə başçısının ətrafında sıx birləşdi. Azərbaycan əsgəri yüksək rəşadət nümayiş etdirib, dünya hərb tarixində yeni nailiyyətlərə imza atdı. Məhz peşəkarlıq Azərbaycan ordusunun az itki ilə qısa müddətdə parlaq qələbə qazanmasına şərait yaratdı.

30 ildir qisas hissi ilə yaşayan, hər an son döyüş əmrini gözləyən rəşadətli Ordumuz Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə əzmlə döyüşə atıldı. Ölkə rəhbərinin müdrik və qətiyyətli qərarları sayəsində əks-hücum əməliyyatlarına başlayan şanlı ordumuz qısa müddət ərzində ildırım sürətli əks-hücum planı ilə uzun illərdir işğal altında olan tarixi torpaqlarımızı bir-birinin ardınca azad etdi, əzəli yurd yerlərimizdə Azərbaycan bayrağı yenidən və əbədi dalğalanmağa başladı.

Taleyüklü Vətən müharibəsi günlərində qədirbilən xalqımızın hər zaman olduğu kimi, Prezident İlham Əliyevin ətrafında yumruq kimi sıx birləşməsi Zəfərə gedən yolumuzun uzaqda olmadığının müjdəsini verirdi. Noyabr ayının 8-də Qarabağın ürəyi Şuşanın azad edilməsi ilə düşmən sarsıdıcı zərbə aldı. Cəmi bircə gün sonra 72 yaşayış məntəqəsi və 8 strateji yüksəkliyin azad olunması isə düşmənin yerlə-yeksan edilməsi ilə nəticələndi. 10 noyabrda xain düşmənin kapitulyasiya aktını imzalamaqdan başqa çarəsi qalmadı. İşğalçı qüvvələr 20 noyabrda Ağdamı, 25 noyabrda Kəlbəcəri, 1 dekabrda isə Laçını tərk etdilər. Beləliklə, qüdrətli Azərbaycan dövləti Ulu Öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttə əsaslanaraq Müzəffər Ali Baş Komandanımız, yenilməz sərkərdəmiz İlham Əliyevin rəhbərliyi ilə tarixi zəfər qazandı. Xüsusi vurğulamaq lazımdır ki, 44 günlük müharibə günlərində cənab Prezidentimiz İlham Əliyev diplomatiya və informasiya cəbhəsində də əzmlə mübarizə apardı, Azərbaycanın haqlı mövqeyini məharətlə müdafiə etdi.

Ümummilli Liderimiz Heydər Əliyevin "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı, hər zaman məzunu olması ilə fəxr etdiyini ifadə edərək yüksək dəyər verdiyi Bakı Dövlət Universitetinin professor-müəllim heyəti, tələbələri və məzunları da, hər bir azərbaycanlı kimi, 44 günlük Vətən Müharibəsi günlərində həm ön, həm də arxa cəbhədə fədakarlıq göstərdi. Universitetin çoxsaylı tələbə və məzunu könüllü olaraq cəbhəyə yollandı, onlardan 22 nəfər müqəddəs şəhidlik zirvəsinə ucaldı. Torpaqlarımız uğrunda canlarından keçmiş bütün şəhidlərimizin, eləcə də Bakı Dövlət Universitetinin tələbəsi və məzunu olan şəhidlərimizin əziz və unudulmaz xatirəsi hər zaman qəlbimizdə yaşayacaq.

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 02 dekabr 2020-ci il tarixli sərəncamı ilə Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Anım Günü kimi qeyd edilir.

Azərbaycan dövlətinin qüdrəti, qəhrəman xalqımızın sarsılmaz birliyi, qazilərimizin qanı, şəhidlərimizin canı bahasına əldə edilən tarixi Qələbəmiz sonrakı zəfərlərə yol açdı. Ötən il sentyabrın 19-da cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, suverenliyimiz tam təmin olundu. Azərbaycanın qəhrəman oğulları bu tarixi qanları ilə yazdılar!

Prezident İlham Əliyev bu il sentyabrın 19-da "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan dövlətinin, xalqımızın tarixində ən parlaq səhifələrdən biri olan sentyabrın 20-si hər il ölkəmizdə Dövlət Suverenliyi Günü kimi qeyd ediləcək.

27 sentyabr - müqəddəs şəhidlərimizin Anım Günündə torpaqlarımız uğrunda canlarından keçən soydaşlarımızı bir daha ehtiramla anırıq. Bizə Qələbə bəxş edən şəhidlərimizin ruhları qarşısında baş əyirik!

Azərbaycanın şanlı bayrağı bütöv, suveren Vətənimizin hər bir qarışında əbədi dalğalanacaq!

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də bəyan etdiyi kimi, "Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".

# BDU-nun SABAH Mərkəzinə yeni rəhbər təyin olunub

***BDU-nun SABAH Mərkəzinə yeni rəhbər təyin olunub.***

Səbinə Novruz qızı Ömərova 1976-cı il noyabrın 10-da Bakı şəhərində anadan olub. 1997-ci ildə Bakı Dövlət Universitetinin (BDU) Biologiya fakültəsinin bakalavriat səviyyəsini "Biologiya" ixtisası, 1999-cu ildə magistratura səviyyəsini "Biokimya" ixtisaslaşması üzrə fərqlənmə ilə bitirib. Biologiya üzrə fəlsəfə doktoru, dosentdir.

1998-2002-ci illərdə BDU-nun Biologiya fakültəsinin Biokimya və biotexnologiya kafedrasında laborant, 2002-2014-cü illərdə müəllim, 2014-2022-cü illərdə Biologiya fakültəsinin tədris işləri üzrə dekan müavini işləyib. 2016-cı ildən Biofizika və biokimya kafedrasında dosent kimi çalışır.

O, "Erasmus Mundus" proqramının layihələri çərçivəsində 2014-cü ildə Fransanın Bolonya şəhərində tədrisin təşkili, 2015-ci ildə İspaniyanın Korunya Universiteti, 2016-cı ildə Çexiyanın Karlova Universitetində tədqiqat metodları, 2016-cı ildə isə Almaniyanın Berlin şəhərində Avropanın aparıcı universitetlərində tədrisin təşkilinə dair təlimlər keçib. Səbinə Ömərova 2009-cu ildən Dövlət İmtahan Mərkəzinin (DİM) ekspertidir. 2012-ci ildə magistraturaya qəbul proqramlarının təkmilləşdirilməsində, test bankının yaradılmasında və zənginləşdirilməsində xidmətlərinə görə DİM-in Fəxri Fərmanı ilə təltif olunub.

# BDU kollektivi Zəfər parkında



***Bakı Dövlət Universitetinin kollektivi 27 sentyabr – Anım Günü ilə əlaqədar Bakıda inşası davam etdirilən Zəfər parkında olub.***

Ziyarət zamanı parkın girişindəki xatirə daşının önünə gül dəstələri düzülüb, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi hörmət və ehtiramla yad edilib.

# BDU-nun kafedra müdiri APRSAF-30 Kosmik Fəzanın Müşahidəsi tədbirində məruzə edib

***Senytabrın 20-də "Azərkosmos", APRSAF və Yaponiya Aerokosmik Tədqiqat Agentliyinin (JAXA) təşkilatçılığı, BDU, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin SABAH qrupları layihəsinin dəstəyi ilə APRSAF-30 Kosmik Fəzanın Müşahidəsi (APRSAF-30 International Stargazing Event) tədbiri keçirilib.***

Fizika fakültəsinin Astrofizika kafedrasının müdiri, dosent Kəmalə Alışeva tədbirdə məruzə ilə çıxış edib.

Kəmalə Alışeva Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin kosmos sahəsinin inkişafı, elmi-texniki əməkdaşlığın beynəlxalq miqyasda genişləndirilməsi və perspektiv tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı tarixi xidmətlərinə, Prezident İlham Əliyevin hakimiyyəti illərində uzunmüddətli strateji yanaşma ilə kosmik sahənin yenidən qurulması və müasir prinsiplərlə formalaşdırılmasına dair iştirakçıları məlumatlandırıb. O, çıxışında Azərbaycanda astronomiya elminin keçdiyi tarixi inkişaf yolu, bu sahəyə töhfələr vermiş azərbaycanlı alimlər, ölkəmizdə fəaliyyət göstərən rəsədxanalar, səma cisimlərinə adları verilmiş ictimai xadimlər, Bakı səmasında yer alan səma cisimləri barədə məlumat verib, o cümlədən "Kasseqren-Shcit" teleskopu vasitəsilə əldə olunmuş səma obyektlərinin fotoşəkillərini tədbir iştirakçılarına şərh edib.

Tədbirdə Azərbaycanın ali təhsil müəssisələrinin 300-dən artıq tələbəsi, pedaqoji heyət üzvləri və alimləri iştirak edib.

Tədbir çərçivəsində eyni saat aralığında dünyanın müxtəlif ölkələrində kosmik fəzanın müşahidəsi aparılıb və dünyanın müxtəlif rəsədxanalarından çəkilmiş kosmik cisimlərin canlı müşahidəsi yayımlanıb. Dünyada tanınmış alimlərin, gənc tədqiqatçı və tələbələrin iştirak etdiyi tədbir insanları ulduzlar, kainat və kosmos təhsili barədə maarifləndirməyə, ulduzların və bürclərin səmadakı vəziyyətinin enlik və vaxt zonası ilə necə dəyişdiyini öyrənməyə, eyni zamanda kosmik fəza müşahidəsi altında beynəlxalq təcrübə mübadiləsinin həyata keçirilməsinə yönəlib.

APRSAF ölkələrinin kosmik aktyorlarının, icmalarının fəal iştirak etdiyi tədbir çərçivəsində ABŞ-da fəaliyyət göstərən Yaponiya Milli Astronomiya Rəsədxanası, Yaponiyada fəaliyyət göstərən Yaponiya Milli Astronomiya Rəsədxanası, Avstraliyada fəaliyyət göstərən Avstraliya Milli Universiteti və Qravitasiya Kəşf Mərkəzi, Vyetnamda fəaliyyət göstərən Milli Kosmik Mərkəz və BDU-nun alimləri təqdimatlar ilə çıxış ediblər.

# BDU – 105: Ölkəmizdə yüksəkixtisaslı kimyaçılar hazırlayan əsas elmi mərkəz

***105-ci yaşını qeyd edən Bakı Dövlət Universitetinin (BDU) ən köklü fakültələrindən biri də Kimya fakültəsidir. Fakültə BDU-nun ilk fakültələrindən olan Tibb fakültəsinin nəzdində fəaliyyət göstərən Ümumi və qeyri-üzvi kimya kafedrasının bazasında 1934-cü ildə yaradılıb.***

Azərbaycanda kimya elmi və sənayesinin inkişafı Ulu Öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi 1970-1980-ci illərdə geniş vüsət alıb. Bu dövrdə çoxsaylı fabrik və zavodlar işə salınıb, yenidən qurulub. Ümummilli Lider Heydər Əliyev 1993-cü ildən sonra Azərbaycana yenidən rəhbərlik etdiyi dövrdə də bu sahənin inkişafına xüsusi həssaslıqla yanaşıb. 2003-cü ildən etibarən bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Hazırda Azərbaycanda dünya kimya elminin ənənəvi istiqamətləri ilə yanaşı, yeni elmi istiqamətləri, o cümlədən biokimya, molekulyar biokimya, fiziki kimya, kimyəvi fizika və s. sahələr də uğurla inkişaf edir.

Azərbaycanda neft kimyası və kimya texnologiyası elmi məktəbinin banisi akademik Yusif Məmmədəliyevin ölkəmizdə kimyaçılar nəslinin yetişməsindəki xidmətləri xüsusilə əvəzsizdir. Akademik Yusif Məmmədəliyev 1945-1961-ci illərdə fakültənin Neft kimyası kafedrasına rəhbərlik edib, neft qazlarının və onların müxtəlif komponentlərinin halogenləşməsi, onların əsasında qiymətli maddələrin alınması sahəsindəki orijinal tədqiqatları ilə neft kimyası sahəsini xeyli zənginləşdirib. Onun tədqiqatları İkinci Dünya Müharibəsi illərində sovet aviasiyasının yüksək oktanlı yanacaqla təmin edilməsinə səbəb olub və müharibənin gedişində əhəmiyyətli dönüş yaradıb.

Respublikamızda kimya təhsilinin banisi olan professor Sadıq Hüseynov 1910-cu ildə Almaniyada Darmştadt Kimya Texnologiya İnstitutunu kimyaçı-mühəndis ixtisası üzrə bitirib. 1927-ci ildən BDU-da çalışan Sadıq Hüseynov 1936-cı ildə Qeyri-üzvi kimya kafedrasının müdiri olub. O, BDU-da ilk dəfə Azərbaycan dilində kimyadan mühazirələr oxuyub, eyni zamanda ölkəmizdə kimya terminologiyasının və ilk kimya dərsliklərinin yaradılmasında mühüm xidmətlər göstərib. Sadıq Hüseynov buruq sularından ozon üsulu ilə yodun, bromun alınması, işlənmiş sulfat turşusunun təmizlənməsi, xalq təsərrüfatına lazım olan bir sıra qiymətli kimyəvi birləşmələrin sintezi üsullarını işləyib hazırlayıb. İkinci Dünya Müharibəsi illərində cəbhənin ehtiyacını ödəmək üçün lazım olan bir sıra maddələrin alınmasının yeni üsullarını təklif edib. Alim həmçinin Azərbaycanda bir neçə zavod və fabrikin təşkilində elmi məsləhətçi olub.

Azərbaycanda milli kadrların yetişməsinə böyük əmək sərf etmiş professor Vladimir Tixomirov 1921-ci ildən BDU-da çalışıb və 1936-1946-cı illərdə Fiziki kimya kafedrasının müdiri olub. Onun əsas elmi-tədqiqat işləri Bakı neftinin və neft məhsullarının emalı zamanı baş verən mürəkkəb fiziki-kimyəvi proseslərin, vulkanik küllərin, gillərin, eləcə də bəzi mineralların katalitik xassələrinin öyrənilməsinə həsr edilib.



Akademik Rəfiqə Əliyeva Analitik kimya kafedrasının və ümumiyyətlə, analitik kimya elminin inkişafında mühüm rol oynayan alimlərimizdəndir. Rəfiqə Əliyeva 1952-1956-cı illərdə Kimya fakültəsində təhsil alıb və ömrünü Analitik kimya kafedrası ilə bağlayıb. Akademik Rəfiqə Əliyeva keçid və nadir torpaq elementlərinin fotometrik təyini və qatılaşdırma metodikalarının işlənilməsi sahəsində fundamental tədqiqatlar aparıb. O, piroqallol, teonilidin və asetilaseton əsasında bir neçə yeni üzvi reaktivlər sintez edib və onlardan istifadə ilə bir sıra metal ionlarının təyini üçün yüksək analitik göstəricilərə malik fotometrik metodikalar işləyib hazırlayıb. O, ilk dəfə olaraq analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığı müəyyən edib. Alim qarışıqliqandlı kompleks birləşmələrin tədqiqi sahəsində də mühüm tədqiqat işləri aparıb. O, 2001-ci ildə fakültədə Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasını yaradıb, 2017-ci ilə kimi həmin laboratoriya rəhbərlik edib. Azərbaycanda analitik kimya ixtisası üzrə ilk qadın akademik olan Rəfiqə Əliyeva Əməkdar elm xadimi fəxri adına layiq görülüb, həmçinin “Şöhrət” ordeni ilə təltif olunub. O, 450-dən çox elmi əsərin, 25-dən çox dərslik və dərs vəsaitinin, 6 tərcümə kitabının və 20 patentin müəllifi idi. Onun rəhbərliyi ilə 20 fəlsəfə doktoru və 2 elmlər doktoru yetişib.

Azərbaycanda kimya elminin və BDU-nun Kimya fakültəsinin inkişafında Əli Quliyev, Soltan Mehdiyev, Murtuza Nağıyev, Nadir Seyidov kimi akademiklərin də mühüm rolu olub. Fakültənin professor-müəllim heyəti Azərbaycanda kimya elminin və sənayesinin inkişafına mühüm töhfələr verib, bu sahədə elmi-pedaqoji kadrların hazırlanmasında müstəsna rol oynayıb. Fakültədə elmi varislik əlaqələrinin möhkəm təməl üzərində qurulması və inkişaf etdirilməsi bu sahənin daha da inkişaf etməsinə müsbət təsir göstərir.

Yarandığı dövrdən indiyədək kimya fakültəsinə dosentlər Məmmədəmin Hacı Əhməd oğlu Əfəndi (1934-1937), Murtuza Əhmədli (1937-1938), Mədət İskəndərov (1938-1939), Səttar Əbilov (1939-1946), professorlar İslam Əlizadə (1946-1950), Cümşüd Zülfüqarlı (1950-1952), Səkinə Ələkbərova (1952-1957; 1981-1983), dosent Qiyas Abdullayev (1957-1960), professor Cəbrayıl Hüseynov (1960-1967), dosentlər Bəşir Mirzəyev (1967-1975), Fikrət Babayev (1975-1978), Dəmir Qəmbərov (1978-1981), Ənvər Bəşirov (1983-1988), professorlar Valeh İsmayılov (1988-1993), Abel Məhərrəmov (1993-1999), Eldar Əhmədov (1999-2006), Abdulsəyid Əzizov (2006-2022) rəhbərlik edib. 2022-ci ildən isə fakültənin dekanı dosent Fuad Kərimlidir.

Yeni yaradıldığı vaxt Kimya fakültəsinin cəmi üç əməkdaşı olub. Hazırda isə fakültədə təhsil alan tələbə və magistrantlarla 100-ə yaxın professor-müəllim heyəti məşğul olur. Onlardan 3 nəfəri AMEA-nın həqiqi, 1 nəfəri müxbir üzvü, 27 nəfəri elmlər doktoru, professor, 47 nəfəri fəlsəfə doktoru, dosent, baş müəllim və müəllimdir.

Kimya fakültəsinin kafedra və elmi-tədqiqat laboratoriyalarında elmi fəaliyyət illər ərzində formalaşmış elmi məktəblər çərçivəsində həyata keçirilir. Fakültədə müxtəlif xəstəliklərə qarşı əlverişli dərman maddələri, neft çıxarma-neft emalında istifadə olunan materialar, “Avro-4”, “Avro-5” benzin istehsalı üçün yüksək oktanlı komponentlər, çirklənmiş obyektlərin təmizlənməsini həyata keçirən analitik reagentlər, müxtəlif təyinatlı polimerlər, polimer kompozisiyaları, nanomaterialların sintezi, eləcə də tədqiqi istiqamətdə elmi-tədqiqat işləri aparılır. Həmçinin fakültədə "Kimyanın tədrisində aktual problemlər", "Kimyanın tədris metodları, təcrübələr və metodika nəzəriyyəsinin hərtərəfli öyrənilməsi və təhlili" istiqamətində, ətraf mühit obyektlərində toksiki, eləcə də radioaktiv metalların təyinat metodikalarının işlənməsi, müasir qeyri-üzvi materialşünaslıq, o cümlədən yarımkeçirici materialşünaslığın aktual problemləri istiqamətində tədqiqat işləri həyata kecirilir.

Fakültənin professor-müəllim heyəti müxtəlif təcrübə proqramlarında fəal iştirak edir, əməkdaşların beynəlxalq bazalarda indeksləşdirilmiş jurnallarda məqalələri nəşr olunur. Müəllimlər, elmi işçilər, doktorantlar, magistrantlar ölkə, eləcə də beynəlxalq səviyyəli elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış edirlər. Fakültədə mütəmadi şəkildə elmi konfrans, elmi seminar və ustad dərsləri təşkil olunur. Fakültədə təhsilin fəlsəfə doktorluğu və elmlər doktorluğu səviyyələri üzrə elmi-pedaqoji kadr hazırlığı həyata keçirilir.

Kimya fakültəsi ölkəmizdə yüksəkixtisaslı kimyaçı kadrlar hazırlayan əsas elm mərkəzdir. Hazırda fakültədə 7 kafedra (Ümumi və qeyri-üzvi kimya, Üzvi kimya, Analitik kimya, Fiziki və kolloid kimya, Neft kimyası və kimya texnologiyası, Yüksəkmolekullu birləşmələr kimyası, Kimyanın tədrisi metodikası kafedraları), onların nəzdində elmi-tədqiqat və tədris laboratoriyaları fəaliyyət göstərir. Fakültədə 1500-dən çox tələbə, magistr və doktorant təhsil alır. Fakültənin elmi-tədqiqat və tədris laboratoriyaları müasir avadanlıqlarla təchiz olunub. 2011-ci ildən fakültənin “Kimya” ixtisasının ingilis bölməsinə tələbə qəbulu həyata keçirilir. 2014-2015-ci tədris ilindən etibarən Elm və Təhsil Nazirliyi yüksəkixtisaslı kadr hazırlığı məqsədi ilə “Kimya müəllimliyi” ixtisası üzrə SABAH qrupu yaradıb. 2019-2020-ci tədris ilindən fakültədə magistratura səviyyəsində ingilis bölməsi fəaliyyətə başlayıb. Bakalavr pilləsində tələbələr II kursdan etibarən kafedralarda aparılan elmi-tədqiqat işlərinə cəlb olunurlar. Fakültənin tələbə və magistrantları BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində fəaliyyət göstərən laboratoriyalarda və Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində tədqiqat aparmaq imkanlarına malikdirlər.

Fakültədə “Kimya”, “Kimya mühəndisliyi”, “Kimya müəllimliyi” ixtisasları üzrə bakalavr hazırlığı aparılır. Fakültədə magistratura və doktorantura səviyyələrində 16 ixtisaslaşma üzrə kadrlar hazırlanır. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının əmrinə əsasən, BDU-nun nəzdində “Analitik kimya”, “Üzvi kimya” və “Fiziki kimya” ixtisasları üzrə Dissertasiya Şuraları yaradılıb.

Fakültədə müasir cihazlarla təmin olunmuş Nüvə Maqnit Rezonansı (BRUKER-300 NMR spektrometri), Rentgen Quruluş Analiz (Smart Apexs II difraktometri), Xromato-kütlə analiz (Esgüise 6000 kütlə spektometri və Agilent 1200 maye xromatoqrafı), Derivatoqrafik analiz (Derivatoqraf-MS), Xromatoqrafik analiz (Agilent qaz xromatoqrafı) tədris və elmi-tədqiqat laboratoriyaları fəaliyyət göstərir.

Kimya fakültəsi yarandığı vaxtdan dünyanın qabaqcıl elm mərkəzləri ilə elmi əlaqələr qurub. Bu əlaqələr M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, Rusiyanın Birləşmiş Nüvə Tədqiqatlar İnstitutu, N.D.Zelinski adına Üzvi Kimya İnstitutu, Kazan Dövlət Universiteti, Rusiya Fizioloji Aktiv Birləşmələr İnstitutu, A.T.Arbuzov adına Üzvi və Fiziki Kimya İnstitutu, Şərqi Sibir EA-nın Favorski adına Üzvi Kimya İnstitutu, Fransanın Lumiere Matiere İnstitutu, ABŞ-nin Minnesota Universiteti, Şimal-Şərqi Ohayo Tibb Universiteti, İtaliyanın Pavia Universiteti, Portuqaliyanın Lissabon Universitetinin Ali Texniki İnstitutu, Türkiyənin Ankara Universiteti, Yıldız Texniki Universiteti, Ostim Texniki Universiteti, Qars Universiteti, Sivas Cümhüriyyət Universiteti və s. ilə uğurla davam etdirilir. Bunula yanaşı, “Erasmus-Mundus”, “Erasmus+”, ”Mövlanə” kimi proqramlar vasitəsilə mütəmadi olaraq tələbə və professor-müəllim mübadiləsi həyata keçirilir.

Kimya fakültəsinin təşkilatçılığı ilə tədqiqatçıların beynəlxalq və respublika elmi konfransları, istedadlı tələbələri aşkarlamaq, elmi-tədqiqat fəaliyyətinə cəlb etmək məqsədilə Kimya üzrə tələbələr arasında Respublika Olimpiadası keçirilir.

Kimya fakültəsi ölkədə fəaliyyət göstərən dövlət və özəl müəssisələrlə geniş əməkdaşlıq edir. Tədris prosesinin innovativ metodlar əsasında qurulması, elmi-tədqiqat fəaliyyətinin həyata keçirilməsi, eyni zamanda tələbələrin gələcəkdə işlə təmin edilməsi baxımından bu qurumlarla əməkdaşlıq olduqca əhəmiyyətlidir. Fakültənin elmi və intellektual potensialı Elm və Təhsil Nazirliyinin akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu, akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu, Polimer Materiallar İnstitutu, Radiasiya Problemləri İnstitutu, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Neft Şirkətinin Heydər Əliyev adına Neft emalı zavodu, Qaz emalı zavodu, “Azərkimya” və “Azneft” İstehsalat Birlikləri, Bakı şəhərində fəaliyyət göstərən orta ümumtəhsil müəssisələri ilə sıx əməkdaşlıq etməyə imkan verir.

# BDU-105: Əməkdaşlarının əksəriyyəti öz məzunları olan Coğrafiya fakültəsi

***2024-cü ilin sentyabr ayının 1-də ölkəmizin ilk ali təhsil müəssisəsi olan BDU-nun 105 yaşı tamam oldu. Bu illərdə BDU Azərbaycanın ictimai-siyasi, mədəni həyatında ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayıb, zəngin elm və təhsil məbədi kimi öz tarixi missiyasını şərəflə yerinə yetirib, xalqımızın maariflənməsində, ölkəmizdə elmin və təhsilin inkişafında əvəzsiz xidmətlər göstərib.***

Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbər təyin edildiyi ötən əsrin 70-ci illərindən başlayaraq, eləcə də müstəqillik illərində BDU onun hərtərəfli qayğısı ilə əhatə olunub. Ulu Öndər Heydər Əliyev BDU-nun inkişafı üçün müstəsna xidmətlər göstərib. Bu gün elmə və təhsilə qayğı və diqqət siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. BDU dövlətimizin dəstəyi ilə inkişafının yeni mərhələsini yaşayır.



Bakı Dövlət Universitetində mövcud olan 16 fakültədən biri də Coğrafiya fakültəsidir.

1943-cü ildə BDU-da "Geologiya", 1944-cü ildə isə "Coğrafiya" ixtisaslarına ilk tələbə qrupu qəbul edildikdən sonra bu ixtisasları birləşdirən Geologiya-coğrafiya fakültəsi yaradılıb. 1944-1948-ci illərdə fakültədə coğrafi fənlərin tədris olunduğu yalnız bir kafedra - Coğrafiya kafedrası mövcud olub. 1948-ci ildə həmin kafedra iki müstəqil: Fiziki coğrafiya və İqtisadi coğrafiya kafedralarına ayrılıb. 1961-ci ildə isə İqtisadi coğrafiya kafedrasının bazasında SSRİ-nin iqtisadi coğrafiyası və Xarici ölkələrin iqtisadi coğrafiyası kafedraları yaradılıb.

XX əsrin 70-ci illərində bir sıra nazirlik və komitələrin, eləcə də Azərbaycan Elmlər Akademiyası institutlarının coğrafiyanın yeni müasir istiqamətləri üzrə kadrlara olan tələbatını ödəmək məqsədi ilə həmin mütəxəssislərin hazırlığını həyata keçirən yeni kafedraların açılmasına ehtiyac yaranıb. Bu məqsədlə Fiziki coğrafiya kafedrasının bazasında üç müstəqil kafedra - Geodeziya və kartoqrafiya (1972), Hidrometeorologiya (1973), Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə (1980) kafedraları yaradılıb.

Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə kafedrası Dövlət Ekologiya və Təbii Ehtiyatlardan Səmərəli İstifadəyə Nəzarət Komitəsi, AMEA-nın Coğrafiya İnstitutu, Respublika Təbiəti Mühafizə Cəmiyyəti və şəxsən akademik Həsən Əliyevin birbaşa təşəbbüsü ilə yaradılıb.

2007-ci ildə Coğrafiya fakültəsində daha bir kafedra – Azərbaycan coğrafiyası kafedrası fəaliyyətə başlayıb, 2014-cü ildə isə onun adı dəyişdirilərək, Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrası adlandırılıb. 2011-ci ildə Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə kafedrası yeni yaradılan Ekologiya və torpaqşünaslıq fakültəsinin tərkibinə daxil edilib.

Hazırda Coğrafiya fakültəsində 6 kafedra - Fiziki coğrafiya, İqtisadi və sosial coğrafiya, Azərbaycan cografiyası və coğrafiyanın tədrisi metodikası, Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm, Geodeziya və kartoqrafiya, Hidrometeorologiya kafedraları fəaliyyət göstərir.

Geologiya-coğrafiya fakültəsinin ilk dekanı Azərbaycanın görkəmli geoloqu, professor Əziz Əsgərov (1944-1948) olub. Sonrakı illərdə məşhur pedaqoq Abdulla Şahbazov (1948-1952), professorlar Səttar Süleymanov (1952-1963), Ramiz Sultanov (1963-1965), dosent Mürsəl Həsənov (1965-1967), professor Rizvan Piriyev (1967-1972), AMEA-nın müxbir üzvü Vasif Babazadə (1972-1980), AMEA-nın müxbir üzvü Qədir Sultanov (1980-1984), professor Tofiq Şahsuvarov (1984-1991) fakültəyə rəhbərlik edib.

1991-ci ildə Geologiya-coğrafiya fakültəsi iki müstəqil fakültəyə - Geologiya və Coğrafiya fakültələrinə ayrılıb. Müstəqil Coğrafiya fakültəsinin ilk dekanı vəzifəsinə dosent Vüsət Əfəndiyev (1991-2000) seçilib. Onu bu vəzifədə professor Müseyib Müseyibov əvəz edib (2000-2011). Sonrakı illərdə professor Fərda İmanov (2011-2016), dosent Şəkər Məmmədova (2017-2022) fakültə rəhbəri olub. 2022-ci ildən isə professor Məqsəd Qocamanov fakültənin dekanı vəzifəsində çalışır.

1940-cı illərin ikinci yarısından etibarən Azərbaycan alimlərindən Qasım Gül Xəzər problemləri, Nurəddin Kərəmov Böyük Qafqazın fiziki coğrafiyası və landşaftları, Əbdürrəhim Hacızadə Azərbaycanın iqtisadi coğrafi rayonları sahəsində sanballı tədqiqatlar aparıb.

1967-1972-ci illərdə "Coğrafiya" ixtisası üzrə fakültəni bitirənlərdən Boris Antonov, Müseyib Müseyibov, Budaq Budaqov, Naib Şirinov, Əbdürəhim Hacızadə, Rizvan Piriyev doktorluq dissertasiyalarını müdafiə edib, fakültənin yüksəkixtisaslı kadr potensialını tədricən möhkəmləndiriblər.

Coğrafiya fakültəsinin professor-müəllim heyətinin böyük əksəriyyətini fakültənin məzunları təşkil edir. Bununla yanaşı, fakültədə Moskva, Sankt-Peterburq, Kiyev universitetlərinin, həmçinin Azərbaycanın digər ali məktəblərinin məzunları da çalışır.

Azərbaycanın ali və ümumtəhsil məktəblərində coğrafiya müəllimlərinə artan tələbatın ödənilməsində və yüksəkixtisaslı kadr hazırlığında fakültənin professor-müəllim heyətinin xidmətləri böyükdür.

Hazırda fakültədə təlim-tədris prosesi ilə 8 elmlər doktoru-professor, 18 fəlsəfə doktoru, dosent, 6 baş müəllim və 28 müəllim məşğul olur.

Fakültədə təhsil bakalavriat, magistratura və doktorantura səviyyələrində üç dildə (Azərbaycan, rus, ingilis) həyata keçirilir. Bakalavriat səviyyəsində "Coğrafiya müəllimliyi", "Coğrafiya", "Geomatika və geodeziya mühəndisliyi", "Hidrometeorologiya", "Turizm işinin təşkili", "Davamlı inkişafın idarə edilməsi" ixtisaslarında 1500-dən çox, magistraturada isə 20 ixtisaslaşma üzrə 130-dək tələbə təhsil alır. Fəlsəfə və elmlər doktorluğu proqramları üzrə 20 doktorant elmi-tədqiqat işləri üzərində çalışır.

Fakültədə tədris prosesi müasir innovativ üsullarla davamlı olaraq təkmilləşdirilir, xarici ölkələrin aparıcı universitetlərinin təhsil standartlarına uyğun tədris və təcrübə metodları öyrənilərək tətbiq edilir.

Fakültənin prioritet elmi istiqamətləri "Azərbaycan ərazisinin kosmik təsvirlər əsasında coğrafi tədqiqi" və "Davamlı inkişafın təmin olunmasında işğaldan azad olunmuş ərazilərin diaqnostikası və reabilitasiyası" mövzularından ibarətdir. Fakültədə elmi-tədqiqat işlərinin tətbiqi xarakterli olmasına üstünlük verilir. Fakültənin məzunları dövlət sərhədlərinin delimitasiya və demarkasiyası, işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq və davamlı inkişafın geomekan təminatında aktiv rol oynayırlar.

Son illərdə fakültədə "İqtisadi-coğrafi rayonlaşdırma", "Azərbaycanda qəsəbə", "Hidrometeorologiyada statistik metodlar", "Geodeziya ölçmələrinin hesablanması və tarazlaşdırılması", "Azərbaycan Respublikasının təbii landşaftlarının optimallaşdırılması", "Otelçilik fəaliyyətinin əsasları" və s. dəyərli əsərlər çap olunub.

Beynəlxalq indeksləmə bazalarına daxil olan jurnallarda Coğrafiya fakültəsinin əməkdaşlarının elmi məqalələrinin dərc olunma dinamikası ildən-ilə artır. Müvafiq ixtisaslar üzrə kadr hazırlayan xarici universitetlərlə beynəlxalq əməkdaşlıq gücləndirilir, dünyanın qabaqcıl elm mərkəzləri - Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universiteti, Novosibirsk Geosistem və Texnologiya Universiteti, Lvov Politexnik Universiteti, Minsk Texniki Universiteti, Vrotslav Universiteti (Polşa), Ryeston Universiteti (Kanada), Melburn Universiteti (Avstraliya), Tbilisi Texniki Universiteti və digər ölkələrin aparıcı elm mərkəzlərində çalışan alimlərlə sıx elmi əlaqələr qurulub.

Fakültədə magistratura səviyyəsində ikili diplom proqramının həyata keçirilməsi istiqamətində Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universiteti, Satbayev adına Qazaxıstan Milli Texniki Universiteti, Kozıbayev adına Şimalı-Qazaxıstan Dövlət Universiteti ilə tədris proqramlarının uyğunlaşdırılması üzrə danışıqlar davam etdirilir.

Fakültədə tələbələr arasında Azərbaycan dövlətinin apardığı gənclər siyasəti, azərbaycançılıq, vətənpərvərlik, milli-mənəvi dəyərlərin qiymətləndirilməsi və qorunması mövzularında davamlı təbliğatlar aparılır, Vətən müharibəsi iştirakçıları, qazilər və şəhid ailələri ilə görüşlər təşkil olunur.

BDU-nun 105 illik yubileyinin qeyd edildiyi günlərdə Coğrafiya fakültəsinin professor-müəllim heyəti və tələbələri Bakı Dövlət Universitetində çalışmaqdan, təhsil almaqdan qürur duyur, azad və müstəqil, öz ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycan dövlətinə xidmət göstərməyi özlərinin ali vəzifə borcu hesab edirlər.

# BDU-da "Fəlsəfə" fənni üzrə doktoranturaya qəbul imtahanları keçirilib

***Sentyabrın 2-4-də BDU-da BDU, Elm və Təhsil Nazirliyinin Fizika İnstitutu, Riyaziyyat və Mexanika İnstitutu, Radiasiya Problemləri İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu, İdarəetmə Sistemləri İnstitutu, Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası, Biofizika İnstitutu, akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu, akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu, Geologiya və Geofizika İnstitutu, Neft və Qaz İnstitutu, akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu, akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu, Botanika İnstitutu, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Zoologiya İnstitutu, Mikrobiologiya İnstitutu, Genetik Ehtiyatlar İnstitutu, İqtisadiyyat İnstitutu və İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutunun doktoranturasına qəbul üzrə "Fəlsəfə" fənnindən qəbul imtahanları keçirilib.***

Qəbul imtahanı BDU-nun professor-müəllimlərindən ibarət İmtahan Komissiyası tərəfindən şifahi formada aparılıb. İmtahanda BDU üzrə 181, Elm və Təhsil, İqtisadiyyat nazirliklərinin elmi-tədqiqat institutlarından isə 172 iddiaçı iştirak edib. İmtahan Komissiyasının yekun rəyi əsasında Elm və Təhsil, İqtisadiyyat nazirliklərinin elmi-tədqiqat institutlarının doktoranturasına qəbul olunmaq üçün 106, BDU üzrə isə 129 iddiaçıya müvafiq ixtisas fənni üzrə imtahanlarda iştirak hüququ verilib.

Bu il "Əməliyyatlar tədqiqi", "Ehtimal nəzəriyyəsi", "Topologiya", "Neft kimyası", "Petrologiya, vulkanologiya", "Xəritəşünaslıq, geoinformatika", "Aqrokimya", "Materiallar texnologiyası", "Türk xalqları ədəbiyyatı", "Dinin tarixi və fəlsəfəsi" və "Korreksiya pedaqogikası" kimi ixtisaslara da qəbul həyata keçiriləcək.

# Azərbaycanda analitik kimya ixtisası üzrə ilk və yeganə akademik Rəfiqə Əliyevanın anadan olmasından 92 il ötür

***20 sentyabr Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, kimya elmləri doktoru, professor, Əməkdar elm xadimi Rəfiqə xanım Əliyevanın anadan olmasından 92 il keçir.***



Görkəmli alim, akademik Rəfiqə Əlirza qızı Əliyeva onu tanıyanların yaddaşında əsl Azərbaycan qadını, elm fədaisi və humanist qəlbli insan kimi yaşayır, işıqlı xatirəsi daim ehtiramla anılır.

Rəfiqə Əliyeva 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. Ali təhsilini 1951–1956-cı illərdə Bakı Dövlət Universitetinin Kimya fakültəsində alıb. Əmək fəaliyyətinə 1956-cı ildə Azərbaycan Politexnik İnstitutunda başlayan Rəfiqə Əliyeva 1957-ci ildən etibarən BDU-da, 1958-1960-cı illərdə isə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda kiçik elmi işçi kimi çalışıb. 1960-1963-cü illərdə BDU-nun Kimya fakültəsinin aspiranturasında təhsil alan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər Universitetin Analitik kimya kafedrasında işləyib və burada assistent, baş müəllim, dosent, professor vəzifələrini tutub. O, 2001-ci ildən "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasına rəhbərlik edib.

Rəfiqə Əliyeva 1970-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyalarını müdafiə edib və həmin ildə professor adına layiq görülüb. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. O, Azərbaycanın elm tarixində analitik kimya ixtisası üzrə ilk və yeganə akademik kimi qalır. Görkəmli akademik 2017-ci il mayın 6-da əbədiyyətə qovuşub.

Ömrünü kimya elminə həsr etmiş Rəfiqə Əliyeva bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf edib. Yarım əsrdən artıq pedaqoji fəaliyyətlə məşğul olan alimin araşdırmaları analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığın müəyyən edilməsinə həsr olunub. Rəfiqə xanımın ətraf mühitin mühafizəsi ilə bilavasitə bağlı olan bir sıra tədqiqatları, eyni zamanda, üzvi reaktivlərin köməyi ilə metalların təyini və onların ayrılması metodikasının işlənib hazırlanmasına yönəlib.

Ekologiyanın aktual problemləri ilə bağlı işləri isə ölkəmizin davamlı inkişafının təmin olunmasına öz töhfəsini verib.

450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olan Rəfiqə Əliyeva bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olub. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişib.

Akademik Rəfiqə Əliyevanın elmi-pedaqoji fəaliyyəti Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycan Prezidentinin sərəncamı ilə o, "Əməkdar elm xadimi" adına layiq görülüb, "Şöhrət" ordeni ilə təltif edilib. Akademik Y.Məmmədəliyev adına mükafatın laureatı olan Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Amerika Biblioqrafiya İnstitutu tərəfindən "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" seçilib. 2018-ci ildə "Azərbaycanım" Beynəlxalq Jurnalının redaksiya şurası "Akademik Rəfiqə Əliyeva adına Qızıl Orden" təsis edib.

Onun ekologiyaya və ümumi ekologiyaya aid dərs vəsaitləri isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Həsən Əliyev adına mükafatı ilə qiymətləndirilib.

Görkəmli alim, həssas qəlbli insan, qayğıkeş ana Rəfiqə xanım Əliyevanın əziz xatirəsi qəlbimizdə həmişə yaşayacaq və gənc nəsil onun yaratdığı elmi istiqaməti davam etdirəcək.

# BDU məzunu: Küveytdə təhsilimi başa vurduqdan sonra ölkəmizdə tərcüməçi kimi fəaliyyət göstərməyi planlaşdırıram

***Xaricdə təhsil almaq qərarı adətən daha geniş imkanlar, fərqli perspektivlər və daha yaxşı karyera şansları ilə bağlıdır. Mənim də seçimim beynəlxalq təcrübə qazanmaq, fərqli mədəniyyətləri öyrənmək istəyimdən irəli gəldi.***




Bu fikri AZƏRTAC-a müsahibəsində Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin məzunu, Küveyt Universitetinin Dillər Mərkəzində bir il müddətində ərəb dilinin təkmilləşdirilməsi kursunun iştirakçısı Zeynəb Atamalıyeva söyləyib. O deyib: "Digər bir səbəb kimi isə onu qeyd etmək istərdim ki, dil daim inkişaf edən sosial varlıq olduğundan öz mühitində öyrənilərsə, daha yaxşı nəticə verər. Mənim də ixtisasım ərəb dili üzrə tərcüməçidir. Bununla yanaşı, bakalavr təhsilim müddətində Qətərdə və Omanda keçirilmiş beynəlxalq debatlarda və konfranslarda ölkəmizi təmsil etmişəm. Həmin layihələr zamanı tanıdığım əcnəbi ziyalılar və dostlarımın təhsil təcrübələrini öyrənməyim xaricdə təhsil qərarımın möhkəmlənməsinə səbəb olub".

Qeyd edək ki, Zeynəbin iştirakçısı olduğu Hökumətlərarası Təqaüd Proqramı (HTP) üzrə 2024-2025-ci il tədris ilində Küveyt Dövlətinin Azərbaycan Respublikası vətəndaşları üçün ayırdığı kvota hesabına 7 tələbə bu ölkədə təhsil alacaq. Bu təqaüd proqramına layiq görülən tələbələrin yaşayış, təhsil, nəqliyyat xərcləri Küveyt Dövləti tərəfindən qarşılanacaq. Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təqdim etdiyi namizədlər Küveyt Dövlətinin Dillər Mərkəzində ərəb dilinin təkmilləşdirilməsi kursunda iştirak etmək şansı qazanıblar.

Müsahibimiz qəbul prosesi ilə bağlı fikirlərini də bölüşüb. Onun sözlərinə görə, proqrama qəbul prosesi peşəkar və şəffaf şəkildə həyata keçirilib: "Bu proses tələbələrin potensialını və motivasiyasını dəyərləndirməyə yönəldilmişdi. Ərizə, sənədlərin qiymətləndirilməsi, müsahibə və qərarın verilməsi kimi mərhələlər, eyni zamanda, ixtisasımıza olan sevgimiz bizi səbirli və ümidli etmişdi".

Zeynəb Atamalıyeva qeyd edib ki, Küveyt Universiteti Yaxın Şərqdə nüfuzlu təhsil müəssisələrindən biridir və ərəb dili tərcüməsi sahəsində güclü akademik proqramlara malikdir: "Bu proqram öz biliklərimi inkişaf etdirmək və peşəkar tərcümə bacarıqları qazanmaq üçün ideal şərait yaradır. Küveytdə yaşamaq və təhsil almaq ərəb dilini yalnız auditoriyada deyil, gündəlik həyatda da istifadə etməyə şərait yaradır. Bu, dil bacarıqlarımı təkmilləşdirmək və ərəb xalqının mədəniyyəti haqqında dərin bilik qazanmaq üçün əvəzsiz bir fürsətdir".

HTP əsasında təhsil almaq istəyənlərə tövsiyələrini verən Zeynəb Atamalıyeva deyib: "Hökumətlərarası təqaüd proqramına müraciət etməzdən əvvəl müvafiq proqram haqqında ətraflı araşdırma aparılmalı, onun tələblərini, təklif etdiyi imkanları və məzunlar üçün perspektivləri öyrənməlidirlər. Odur ki, dərslərə diqqətlə yanaşmaq və mümkün qədər yüksək nəticələr əldə etmək əsas şərtlərdən biridir. Eyni zamanda, əlavə bir xarici dil öyrənmək və bunu təsdiq edən müəyyən sertifikatlar almaq lazımdır. Bu, müraciətin daha güclü olmasına kömək edəcək".

Zeynəb Atamalıyeva vurğulayıb ki, beynəlxalq səviyyədə tanınan bir universitetdə təhsil alaraq, ərəb dili üzrə dərin biliklər qazanmaq və tərcümə bacarıqlarını inkişaf etdirmək başlıca məqsədlərdən biridir. O, eyni zamanda bu proqramın həm akademik, həm də peşəkar mühitdə inkişaf etməyi üçün geniş imkanlar yaradacağına ümidvar olduğunu söyləyib: "Təhsilimi başa vurduqdan sonra, ərəb dili tərcüməçisi kimi ölkəmdə fəaliyyət göstərməyi planlaşdırıram. Məqsədim fərqli sahələrdə - diplomatiya, akademiya və ya mədəniyyət sahəsində tərcüməçilik etməklə, dillər və mədəniyyətlər arasında körpü yaratmaqdır".

Qeyd edək ki, Bakıda anadan olmuş Zeynəb Atamalıyeva Yasamal rayonu 3 nömrəli və Müşfiqabad qəsəbəsində 274 nömrəli orta məktəblərdə təhsil alıb. 2020-ci ildə 570 balla Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb dili üzrə tərcümə ixtisasına qəbul olub. 2024-cü ildə BDU-nu fərqlənmə diplomu ilə bitirib.

# BDU-nun Astrofizika kafedrası: "İkinci Ay tutulması baş verəcək"

***2024-cü ilin 2-ci Ay tutulması sentyabrın 18-də baş verib. Bu, qismən Ay tutulması olub.***

Fizika fakültəsinin Astrofizika kafedrasından verilən məlumata görə, qismən Ay tutulması Bakı vaxtı ilə saat saat 04:41:02-də başlayıb, saat 08:47:18-də sona çatıb. Tutulmanın maksimumu sentyabrın 18-i saat 06:44:10-da baş verib. Saat 06:12:48-də qismən tutulma başlayıb və saat 07:15:35-də sona çatıb. Saat 04:41:02-də yarımkölgəli tutulma başlayıb və saat 08:47:18-də sona çatıb.

2024-cü ilin 2-ci qismən Ay tutulmasını Şimali və Cənubi Amerika, Antarktida, Afrika, Avropa, Qərbi Asiya və Rusiyanın cənub-qərbi daxil olmaqla, Ayın üfüqün üstündə olduğu istənilən yerdən müşahidə etmək mümkün olub.

Azərbaycan ərazisində səhər saatlarında saat 04:41-dən 06:19-a kimi yarımkölgəli Ay tutulması müşahidə edilib.

# BDU – 105: Azərbaycanda riyaziyyat, mexanika üzrə elmi məktəblərin yaranmasında önəmli rol oynayan fakültə

***Bakı Dövlət Universitetinin köklü fakültələrindən olan Mexanika-riyaziyyat fakültəsi Fizika-riyaziyyat fakültəsinin bazasında (1920-1921) yaradılıb. Mexanika-riyaziyyat fakültəsi 1958-1959-cu tədris ilində müstəqil fakültəyə çevrilib. Bu fakültə riyaziyyat, mexanika və tətbiqi riyaziyyat üzrə elmi məktəblərin yaranmasında, bu sahədə peşəkar kadrların hazırlanmasında əvəzsiz xidmətlər göstərib.***



Respublikada riyaziyyat və mexanika elminin inkişafında neft sənayesinin, kibernetika və informatika sahələrinin çox böyük rolu olub. Rusiya və Ukraynanın tanınmış mexanik və riyaziyyatçı alimləri Aleksandr Buxştab, Yaroslav Lopatinski, Aleksandr Kovanko, Boris Rozenfeld, Vladimir Tartakovskinin dəvət olunması riyaziyyat və mexanika elmlərinin formalaşmasına təkan verib. Rusiyada təhsil almış ilk pedaqoq riyaziyyatçılar Məmməd Əfəndiyev, Mikayıl Xıdırzadə yüksəkixtisaslı milli kadrların hazırlanmasında mühüm xidmətlər göstəriblər. Ölkədə milli riyaziyyatçılar nəslinin yetişdirilməsində riyaziyyatçı alimlər Zahid Xəlilov, İbrahim İbrahimov, Əşrəf Hüseynov, Maqsud Cavadov, Qoşqar Əhmədovun da rolu çox böyükdür.

Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsindən sonra digər sahələrdə olduğu kimi, ali təhsil sahəsində də əsasli dəyişikliklər baş verdi. Həmin yeniliklərdən ən mühümü azərbaycanlı gənclərin xaricdə təhsil almaq üçün göndərilməsi idi. 1970-1980-ci illərdə Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə elə BDU-dan da onlarla gənc riyaziyyatçı keçmiş SSRİ-nin qabaqcıl elmi mərkəzlərinə və təhsil ocaqlarına göndərildi. Bu dövrdə onlarla elmlər doktoru və elmlər namizədi yetişdi, respublikada yeni elmi məktəblər yarandı. Bu riyaziyyatçılar hazırki Azərbaycanda, dünyanın qabaqcıl universitetləri və elmi mərkəzlərində çalışıblar. Ulu Öndərin təşəbbüsü ilə 1972-ci ildə Mexanika-riyaziyyat fakültəsinin bir sıra kafedralarının bazasında Tətbiqi riyaziyyat və kibernetika fakültəsi təşkil olundu.

XX əsrin ortalarından başlayaraq fakültədə funksional və riyazi analiz, diferensial və inteqral tənliklər, riyazi fizika tənlikləri, funksiyalar nəzəriyyəsi, hesablama riyaziyyatı, ehtimal nəzəriyyəsi, həndəsə, harmonik analiz, funksional fəzaların daxilolma nəzəriyyəsi, diferensial operatorların spektral nəzəriyyəsi, tərs məsələlər, optimal idarəetmə nəzəriyyəsinin riyazi məsələləri, xüsusi törəməli diferensial tənliklər üçün başlanğıc və sərhəd məsələləri, çoxobrazlılar, deformasiya olunan bərk cisim mexanikası sahələrində tədqiqatlar aparılıb və mühüm nəticələr əldə edilib. Akademiklər Zahid Xəlilov funksional analiz, Əşrəf Hüseynov qeyri-xətti sinqulyar inteqral tənliklər, İbrahim İbrahimov funksiyalar nəzəriyyəsi, Məcid Rəsulov diferensial tənliklər, Azad Mirzəcanzadə tətbiqi mexanika və neft mədəni işləri, AMEA-nın müxbir üzvləri Yusif Əmənzadə elastiklik, Qoşqar Əhmədov optimal idarəetmə, Arif Babayev sinqulyar inteqral tənliklər və analitik funksiyalar üçün sərhəd məsələləri, Yəhya Məmmədov hesablama riyaziyyatı, Maqsud Cavadov həndəsə və riyaziyyatın tədrisi metodikası, Mirabbas Qasımov diferensial operatorların spektral nəzəriyyəsi və tərs məsələlər sahələrinin yaradıcıları olublar.

Mexanika-riyaziyyat fakültəsi respublikada riyaziyyat elminin inkişafında xüsusi yer tutur. Fakültədə tədris Azərbaycan, ingilis və rus dillərində olmaqla əyani və qiyabi formada təşkil olunub. Bakalavriatura səviyyəsində "Riyaziyyat", "Riyaziyyat müəllimliyi", "Mexanika"ixtisasları üzrə kadr hazırlığı aparılır.

Magistratura səviyyəsində isə 10 ixtisaslaşma – "Riyaziyyatın tədrisi metodikası və metodologiyası", "Riyazi analiz", "Funksional analiz", "Diferensial tənliklər", "Həndəsə", "Cəbr", "Hesablama riyaziyyatı", "Optimal proseslərin riyazi nəzəriyyəsi", "Deformasiya olunan bərk cisim mexanikası", "Maye, qaz və plazma mexanikası" üzrə kadrlar hazırlanır. Fakültədə doktoranturaya "Cəbr, "Analiz və funksional analiz", "Həndəsə", "Ədədi analiz", "Topologiya", "Diferensial tənliklər", "Dinamik sistemlər və optimal idarəetmə", "Deformasiya olunan bərk cism mexanikası", "Maye, qaz və plazma mexanikası" ixtisaslarına qəbul aparılır.

Hazırda fakültədə 2 nəfər AMEA-nın müxbir üzvü, 20 nəfər elmlər doktoru, professor, 64 nəfər fəlsəfə doktoru, dosent, baş müəllim və müəllim çalışır.

Fakültənin professor-müəllim heyəti müxtəlif təcrübə proqramlarında fəal iştirak edir, əməkdaşların beynəlxalq bazalarda indeksləşdirilmiş jurnallarda məqalələri nəşr olunur. Müəllimlər, doktorantlar, magistrantlar ölkə, eləcə də beynəlxalq səviyyəli elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış edirlər. Fakültədə mütəmadi şəkildə elmi konfrans, seminar və ustad dərsləri təşkil olunur.

Mexanika-riyaziyyat fakültəsinin təşkilatçılığı ilə gənc tədqiqatçıların beynəlxalq və respublika elmi konfransları, riyaziyyat sahəsində ixtisaslı mütəxəssislərin hazırlanmasının keyfiyyətini daha da yüksəltmək, istedadlı tələbələri aşkar etmək və dəstəkləmək, onları elmi-tədqiqat fəaliyyətinə cəlb etmək məqsədilə tələbələr arasında Riyaziyyat üzrə Respublika Olimpiadası keçirilir. Bu il olimpiada qalibləri - Mexanika-riyaziyyat fakültəsinin IV kurs tələbələri Vüqar Quliyev və Amil Cəbiyev Bolqarıstanda keçirilən Beynəlxalq Riyaziyyat Olimpiadasında da böyük uğura imza atıblar. Belə ki, Vüqar Quliyev Olimpiadada I yeri qazanaraq qızıl, Amil Cəbiyev isə III yeri tutaraq bürünc medala sahib olub.

Mexanika-riyaziyyat fakültəsində 9 kafedra (Riyazi analiz kafedrası, Nəzəri mexanika və bütöv mühit mexanikası kafedrası, Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrası, Cəbr və həndəsə kafedrası, Diferensial və inteqral tənliklər kafedrası, Hesablama riyaziyyatı kafedrası, Riyaziyyat və onun tədrisi metodikası kafedrası, İdarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrası, Ali riyaziyyat kafedrası) fəaliyyət göstərir.

Fakültə yarandığı gündən Moskva Dövlət Universiteti, Steklov adına Riyaziyyat İnstitutu, Ukrayna Milli Elmlər Akademiyasının Riyaziyyat İnstitutu, Sankt-Peterburq Riyaziyyat İnstitutu, İstanbul Texniki Universiteti, Rostov Dövlət Universiteti, Tbilisi Dövlət Universiteti və digər universitetlərlə səmərəli elmi əməkdaşlıq edir.

Mexanika-riyaziyyat fakültəsinin tələbələri tələbə təşkilatlarında, elm klublarında fəal iştirak edir, bunun sayəsində xobbi və maraqlarını inkişaf etdirirlər. Tələbə təşkilatlarındakı fəaliyyətlər tələbələrimizin yeni mühitə uyğunlaşmalarına, istedadlarını üzə çıxarmağa, universitetdə və onun hüdudlarından kənarda qeyri-standart layihə və yaradıcı ideyalarını həyata keçirmələrinə kömək edir. Təhsil müddətində həyata keçirilən əlavə tədbirlər fakültə tələbələrinin əmək bazarında şanslarını artırır, onlara dəyərli peşəkar təcrübə qazandırır.

Fakültədə Tələbə Elmi Cəmiyyəti, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, "BDU könüllüləri" kimi tələbə təşkilatları fəaliyyət göstərir. Tələbə Gənclər Təşkilatının nəzdində "Xarici dil klubu", "Məntiq klubu" yaradılıb. Klubun məqsədi tələbələrin qarşılıqlı müzakirələr apararaq natiqlik və özünüifadə qabiliyyətlərini inkişaf etdirməkdir.

# Çində ilk dəfə azərbaycanşünaslıq üzrə beynəlxalq elmi konfrans keçirilir

***Sentyabrın 29-da Pekində "İpək yolu ruhuyla Çin-Azərbaycan münasibətlərini möhkəmləndir" devizi ilə 1-ci Çin azəbaycanşünaslıq beynəlxalq elmi konfransı keçirilib.***

Pekin Xarici Dillər Universitetinin (PXDU) təşkilatçılığı və ev sahibliyi ilə keçirilən tədbirin məqsədi Azərbaycanın qədim tarixi, dili və mədəniyyətinin Çində elmi yolla tanıdılmasına töhfə vermək, iki xalq arasında mədəni əlaqələri dərindən araşdırmaq, iqtisadi əlaqələrin mövcud potensialını elmi yolla dəyərləndirmək, Çində azərbaycanşünaslıq elminin inkişafına təkan verməkdir.

Açılış mərasimində çıxış edən Pekin Xarici Dillər Universitetinin prorektoru Gao Qanq konfransın iki ölkə arasında akademik mübadiləni təşviq etmək, "Bir kəmər, bir yol" əməkdaşlığını birgə irəlilətmək baxımından olduqca böyük əhəmiyyət daşıdığını diqqətə çatdırıb. O, "Bir kəmər, bir yol" təşəbbüsünün təkcə ölkələr arasında iqtisadi əməkdaşlığa deyil, həm də xalqlar arasında mədəni, elm və təhsil əlaqələrinin də dərinləşməsi üçün imkanlar yaratdığını deyib. Prorektor təmsil etdiyi ali təhsil ocağının Azərbaycan universitetləri ilə səmərəli əməkdaşlığından danışıb, bu çərçivədə qarşılıqlı tələbə mübadiləsinin reallaşdığını deyib. Gao Qanq Çində azərbaycanşünaslıq elminin ömrünün İpək yolu kimi davamlı və uzun olacağına ümidvar olduğunu söyləyib.

Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov iki ölkə arasında münasibətlərin tarixindən və hazırkı vəziyyətindən danışıb, konfransın Azərbaycan ilə Çinin elmi-mədəni dairələrinin daha da yaxınlaşmasına önəmli töhfə verəcəyinə əminliyini bildirib. O, Azərbaycan mədəniyyətinin Çində, Çin mədəniyyətinin isə Azərbaycanda təbliğinə yönəlmiş çoxsaylı tədbirlərin xalqların bir-birinə daha da yaxınlaşması üçün zəmin yaratdığını, Azərbaycanda Konfutsi institutlarının fəaliyyəti də daxil olmaqla Çin dilinin, Çində isə Azərbaycan dilinin tədrisinin əhəmiyyətini vurğulayıb. Bildirib ki, PXDU-da Azərbaycan dilinin ixtisas kimi tədrisi, Azərbaycan dili kafedrasının azərbaycanşünaslıqla bağlı çoxsaylı araşdırmalar aparması və elmi tədbirlərin təşkili sayəsində Çində azərbaycanşünaslıq müstəqil bir tədqiqat istiqaməti kimi formalaşmağa başlayıb.

Xəzər Universitetinin təsisçisi, direktorlar və qəyyumlar şurasının sədri Hamlet İsaxanlı, videomüraciət formatında Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Dinq Tao, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli və Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Çində ilk azərbaycanşünaslıq elmi konfransının işinə uğurlar arzulayıblar.

Çin Dövlət Şurası yanında İnkişaf Mərkəzinin Avrasiya Cəmiyyətinin İnkişafı üzrə Tədqiqat İnstitutunun direktor müavini Sü Taonun "Çin-Azərbaycan münasibətləri tarixin ən yüksək dövründə", Hamlet İsaxanlının "Azərbaycanda və daha geniş regionda Çinin imici – Çin ilə Azərbaycan arasında tarixi əlaqələr", Çin İctimai Elmlər Akademiyası Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya Tədqiqat İnstitutunun Mərkəzi Asiya şöbəsinin direktoru Ganq Ninqin "Çin-Azərbaycan strateji tərəfdaşlıq münasibətləri" mövzularında əsas məruzələri dinlənilib.

Çinin elmi qurumlarının və ali təhsil ocaqlarının alim və tədqiqatçılarının, tələbələrin, Çində təhsil alan azərbaycanlı tələbələrin iştirak etdikləri konfransın "Azərbaycan dili ədəbiyyatı və təhsili", "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Çin-Azərbaycan əməkdaşlığı", "Çin-Azərbaycan mədəniyyət və sivilizasiyalararası münasibətləri" mövzularında bölmə iclaslarında ümumilikdə 44 çinli və azərbaycanlı alimin, o cümlədən gənc tədqiqatçının məruzələri dinləniləcək, suallar cavablandırılacaq.

# Gələcəyin hüquqşünası: “BDU peşəkar mütəxəssis olmaq üçün ideal bir mühit təqdim edir”



***2024/2025-ci tədris ili üçün ali məktəblərə qəbul imtahanlarında 600-dən çox bal toplayaraq BDU-ya qəbul olunan 539 nəfərdən ən yüksək nəticəni o göstərib – Sevil Gülməliyeva. Sevil 684.1 balla BDU-nun Hüquq fakültəsinə (tədris ingilis dilində) qəbul olub. Belə uğurlu nəticənin əzmkarlığının və davamlı çalışmasının bəhrəsi olduğunu deyir. BDU-da alacağı təhsildən isə gözləntiləri çoxdur...***

Onunla müsahibədə daha yaxından tanış olmağa, arzu-istəkləri, təəssüratları və gələcək planlarını öyrənməyə çalışdıq.

***- Özünüzü təqdim edə bilərsinizmi?***

- Mən, Gülməliyeva Sevil Rövşən qızı Quba rayonu Aşağı Atuc kənd tam orta məktəbinin IX sinfini fərqlənmə attestatı, XI sinfini isə "Xüsusi nümunəli attestat və qızıl nişan" ilə bitirmişəm. Dövlət İmtahan Mərkəzinin ali məktəblərə qəbul üçün təşkil etdiyi buraxılış imtahanında maksimum nəticə olan 300 bal topladım və blok imtahanında 384.1 bal əldə edərək ümumilikdə 684.1 balla tədrisi ingilis dilində olmaqla BDU-nun "Hüquqşünaslıq" ixtisasına qəbul oldum.

***- Niyə Bakı Dövlət Universitetini seçdiniz?***

- Bakı Dövlət Universitetini seçməyimin səbəbləri çoxşaxəlidir. Bu universitet ölkəmizin təhsil sistemində müstəsna yerə, 105 illik zəngin tarixə, yüksək təhsil standartlarına və peşəkar müəllim heyətinə malikdir. Mənim üçün bu cür nüfuzlu və köklü bir ali məktəbdə hüquqşünaslıq sahəsində təhsil almaq akademik və peşəkar bacarıqlarımı inkişaf etdirmək baxımından böyük əhəmiyyət kəsb edir. Bakı Dövlət Universiteti məqsədlərimə çatmaq və hüquq sahəsində peşəkar mütəxəssis olmaq üçün ideal bir mühit təqdim edir.

***- Respublika Fənn Olimpiadalarında hansı nailiyyətləriniz olub?***

- Respublika Fənn Olimpiadalarında Azərbaycan dili və ədəbiyyat fənni üzrə qazandığım nailiyyətlər də uğurlarımın bir parçasıdır. 2023-cü ildə bu fənn üzrə gümüş, 2024-cü ildə isə bürünc medal qazanaraq, Azərbaycan dili və ədəbiyyat sahəsindəki biliklərimi təsdiqlədim. Düşünürəm ki, bu uğurlar mənim təhsilə olan marağımı və bu sahədəki potensialımı əks etdirir.

***- Gələcəkdə özünüzü harada görürsünüz və gələcək üçün planlarınız nələrdir?***

- Hüquqşünaslıq fakültəsində peşəkar mütəxəssis kimi yetişmək istəyirəm. Universitetdə qazanacağım biliklərin mənə həm akademik, həm də peşəkar sahədə müstəsna üstünlüklər təqdim edəcəyinə inanıram. Gələcəkdə ölkəmi beynəlxalq səviyyədə uğurla təmsil etmək və müasir hüquqi məsələlərdə təsirli həllər təqdim etmək arzusundayam. Məqsədim cəmiyyətin inkişafına müsbət təsir etməkdir. Təcrübəmi artıraraq beynəlxalq arenada tanınan hüquqşünas olmaq istəyirəm. Əsas məqsədim xaricdə magistr təhsili alaraq, əldə etdiyim bilikləri ölkəmə gətirmək və dövlət sektorunda fəaliyyət göstərməkdir. İstəyirəm ki, müasir və hüquqlarını bilən bir cəmiyyətin formalaşmasına töhfə verim. BDU bu məqsədləri gerçəkləşdirmək üçün mənə güclü bir təhsil bazası təqdim edəcək.

*Müsahibəni hazırladı:*
*Nərminə Əsədova*

# BDU-nun həmtəşkilatçılığı ilə İzmirdə “Avrasiyanın biomüxtəlifliyinin qorunması” mövzusunda II Beynəlxalq konfrans keçirilib

***Türkiyənin İzmir şəhərində Ege Universiteti, BDU, Özbəkistanın Andijan Dövlət Universiteti, Qırğızıstanın Oş Dövlət Universitetinin birgə təşkilatçılığı ilə “Avrasiyanın biomüxtəlifliyinin qorunması” mövzusunda II Beynəlxalq konfrans keçirilib.***

Avrasiyanın biomüxtəlifliyinin qorunmasında mövcud problemlər və onların həlli yollarının müzakirə olunduğu konfransa 4 ölkədən 110 məruzə təqdim edilib.

Konfransda BDU-nun Biologiya fakültəsinin dekanı, professor Afət Məmmədova əsas dəvət edilmiş məruzəçi kimi “Ətraf mühitin bitkilərdən istifadə ilə bioindikativ qiymətləndirilməsi və idarə edilməsi” mövzusunda çıxış edib.

Konfransa BDU ilə yanaşı, Azərbaycanın digər təhsil və elmi-tədqiqat müəssisələrindən 23 alim qatılıb.

Beynəlxalq konfransda biomüxtəlifliyin, fotosintetik orqanizmlərin, göbələk və bakteriya kimi mikroorqanizmlərin mühafizəsi, su ekosistemlərinin monitorinqi kimi mövzularda məruzələr dinlənilib. Genetik biomüxtəlifikdəki problemlər və bitkilərdə viruslara qarşı müqavimətin inkişafı üçün yeni yanaşmalar müzakirə edilib. Avrasiyada onurğasız heyvanların qorunması, antropogen təsirlərin ekosistemlərə təsiri, iqlim dəyişikliyi şəraitində bitkilərin vəziyyəti və nadir bitki növlərinin mühafizə strategiyaları da konfransın müzakirə etdiyi məsələlərdən olub.

# BDU tələbəsi gənclər arasında şotokan karate üzrə Avropa çempionu olub

***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin IV kurs tələbəsi Yavərbəy Abdullayev Macarıstanın Tata şəhərində keçirilən gənclər arasında şotokan karate üzrə XIV Avropa çempionatının qalibi olub.*** Tələbəmiz 84 kq çəki dərəcəsində mübarizə aparıb. O, eyni zamanda böyüklər arasında komanda yarışlarında 1 yerə layiq görülüb.

Yavərbəy Abdullayev 10 ildən artıqdır ki, karate üzrə Azərbaycan millisinin üzvüdür.

Tələbəmizi təbrik edir, uğurlar arzulayırıq!

# Küveyt Universitetində təqaüdlə təhsil alacaq 7 azərbaycanlı gəncdən 4-ü BDU məzunudur




***2024/2025-ci tədris ilində Küveyt Dövlətinin Azərbaycan Respublikası vətəndaşları üçün ayırdığı kvota hesabına 7 nəfər Küveyt Universitetində təqaüdlə təhsil alacaq. Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təqdim etdiyi namizədlər siyahısından seçilmiş şəxslər Küveyt Universitetinin Dillər Mərkəzində bir il müddətində ərəb dilinin təkmilləşdirilməsi kursunda iştirak etmək imkanı əldə ediblər.***

Onlardan Simuzər Məmmədzadə, Şəfəq Ağalarlı, Aysun Abdullayeva və Zeynəb Atamalıyeva Bakı Dövlət Universitetinin (BDU) Şərqşünaslıq fakültəsinin məzunlarıdır.

Qeyd edək ki, təqaüdə layiq görülən tələbələrin yaşayış, təhsil və beynəlxalq nəqliyyat xərcləri Küveyt Dövləti tərəfindən qarşılanır.

Məzunlarımızı təbrik edir, uğurlar arzulayırıq!

# BDU 2 komanda ilə “TEKNOFEST-2024”ün finalında təmsil olunur

***BDU “TEKNOFEST-Akdeniz 2024” Aerokosmik və Texnologiya Festivalının final mərhələsində 2 komanda (“BSU Creativity Workz” və “ESST-6”) ilə təmsil olunur.***

Festivalın “Aqrar texnologiyalar” kateqoriyasında finala çıxan “BSU Creativity Workz” komandasının “Irrigo” layihəsində əşyaların interneti (IoT) texnologiyasındakı innovativ sistem vasitəsilə əkin sahələri, tarlalar və istixanaların uzaqdan monitorinqinin təmin edilməsi nəzərdə tutulub. Mobil tətbiq vasitəsilə 20-dən çox parametrin, o cümlədən torpaq nəmliyi, UV miqdarı, temperatur, torpaqdakı duzlaşma, pH dəyəri, CO2 səviyyəsi və gübrə miqdarı kimi göstəricilərin canlı izlənməsi mümkün olacaq. Bundan əlavə, sahibkarlar bu parametrləri uzaqdan idarə etməklə, aqrar sahədə insan əməyini və maddi resursları minimuma endirə biləcəklər.

Layihə həmçinin kənd təsərrüfatı sahələrini kamera nəzarəti altında saxlamaq, səmərəliliyi və davamlılığı artırmaq, ətraf mühitin təsirlərindən qorumaq, pul və vaxta qənaət etmək, kənd təsərrüfatında insan əməyini azaltmaq məqsədlərini daşıyan multidissiplinar bir məhsul kimi təqdim edilib. Bununla zərərvericiləri əkin sahəsindən uzaqlaşdırmaq üçün xüsusi səs sistemi də yaradılıb.

Layihə sintezlənmiş Super Absorbent Polimer (SAP) hidrogellərlə parklar və magistral yol kənarındakı yaşıllıq ərazilərdə suvarma sisteminə ehtiyac olmadan torpağın nəmliyini tənzimləyə bilən bir sistemin inkişafını da nəzərdə tutur.

“TEKNOFEST-2024”ün finalına yüksələn ikinci BDU komandası “ESST-6” isə “E-tarım sulama” layihəsi ilə təmsil olunur. Layihə kiçik maliyyəli və yüksək keyfiyyətli ağıllı suvarma texnologiyasının yaradılmasına yönəlib. Bu sistem bitkilərə yalnız ehtiyac duyduqları qədər su verərək su israfını minimuma endirir və su istifadəsini daha səmərəli idarə edir. Layihənin əsas məqsədi suvarma proseslərini daha effektiv və sürətl, kənd təsərrüfatı sahəsində çalışanları daha yüksək məhsuldarlıqla təmin etməkdir.

Qeyd edək ki, sentyabrın 8-dək davam edəcək “TEKNOFEST-Akdeniz 2024”ün finalında 1270 komanda, 6514 finalçı yarışır. Ümumilikdə yarışmada 774296 komanda və 1569944 nəfər iştirak edib.

# BDU-105: Şərqşünaslıq fakültəsi - tarix və müasirlik arasında köprü

***105 yaşlı BDU-nun qocaman fakültələrindən biri öz ənənələri və məzunları ilə şöhrət qazanmış Şərqşünaslıq fakültəsidir. Şərqşünaslıq fakültəsi universitet yaranandan 1922-ci ilə qədər Universitetin Tarix-filologiya fakültəsində Şərq şöbəsi kimi fəaliyyət göstərib.*** 1922-ci il iyulun 13-də respublika hökuməti Universitetin Tarix-filologiya fakültəsinin nəzdində Şərq şöbəsinin müstəqil Şərq fakültəsinə çevrilməsi haqqında müvafiq qərar qəbul edib. Fakültənin təşkili və kitabxananın təchizatı üçün vəsait ayrılıb. Fakültənin yaradılmasında məqsəd tədqiqatçı şərqşünasların elmi məktəbini yaratmaq, türk və İran xalqlarının tarixi, dili və ədəbiyyatı üzrə mütəxəssislər hazırlamaq idi. Şərqşünaslıq fakültəsinin məzunları ölkənin ictimai-siyasi həyatında, beynəlxalq əlaqələrində daim əhəmiyyətli və strateji rol oynayıblar.

Ötən əsrin 20-ci illərində Şərqşünaslıq fakültəsində görkəmli alimlər – akademiklər Nikolay Marr, İvan Meşşaninov, Vasili Bartold, Aleksandr Samoyloviç, professorlar Nikolay Aşmarin, Aleksandr Romaskeviç, Rozaliya Şor, Bəkir Çobanzadə, Əziz Qubaydulin və başqaları böyük elmi-pedaqoji iş aparıblar. Fakültənin ilk dekanı Panteleymon Juze olub. 1924-cü ildə professor Bəkir Çobanzadə, 1926-cı ildə isə professor Əziz Qubaydulin fakültəyə rəhbər təyin ediliblər.

1930-cu ildə Universitetin bazası əsasında 5 institut açıldığına görə Şərq şöbəsi bağlanıb, 1934-cü ildə yenidən təşkil edilib. Ötən əsrin 30-cu illərinin sosial-ictimai vəziyyətinin ən gərgin dövrlərində fakültə ilkin əhəmiyyətini bir qədər itirib, gah Filologiya fakültəsinin nəzdində İranşünaslıq və Türkologiya şöbələri olmaqla, gah da müstəqil fakültə kimi fəaliyyət göstərib. Professor Mübariz Əlizadə Şərqşünaslıq fakültəsinin ilk Azərbaycanlı dekanı təyin olunub (1945-1950). Fakültə 1946-cı ildə bərpa olunsa da, 1950-ci ildə yenidən öz müstəqil fəaliyyətini dayandırıb.

Nəhayət, 1957-ci ildən Ərəb, Fars və Türk şöbələri olmaqla Şərqşünaslıq fakültəsi yenidən təsis edilib. Fakültəyə 1957-1960-cı illərdə professor Rəhim Sultanov, 1960-1961-ci illərdə dosent Yusif Şirvan, 1962-1964-cü illərdə yenidən professor Mübariz Əlizadə, 1965-1977-ci illərdə professor Həsən Mahmudov, 1977-1981-ci illərdə professor Şulan Şirəliyev, 1981-1991-ci illərdə professor Vasim Məmmədəliyev, 1991-1999-cu illərdə dosent Elxan Əzizov, 1999-2002-ci illərdə dosent Əbdüləli Kərimov, 2002-2021-ci illərdə yenidən professor Elxan Əzizov rəhbərlik edib. 2022-ci ildən fakültənin dekanı türkoloq dosent Aydan Xəndandır.



1957-ci ildə ərəb, fars və türk dillərini əhatə edən Yaxın Şərq dilləri və ərəb, fars, türk ədəbiyyatları tədris olunan Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedraları yaradılıb. Yaxın Şərq və Orta Şərq xalqları ədəbiyyatı tarixi kafedrasına 1944-cü ildən akademik Həmid Araslı, 1957-1962-ci illərdə professor Mübariz Əlizadə, 1962-1965-ci illərdə yenidən akademik Həmid Araslı, 1967-1970-ci illərdə dosent Yusif Şirvan, 1970-1989-cu illərdə professor Mübariz Əlizadə, 1989-1991-ci illərdə professor Malik Mahmudov rəhbərlik edib. Yaxın Şərq dilləri kafedrasının rəhbəri isə 1957-ci ildən 1989-cu ilə qədər professor Rəhim Sultanov, 1989-1990-cı illərdə professor Həsən Mahmudov olub. 1990-cı ildən kafedraların balansında Ərəb, İran və Türk filologiyası kafedraları təşkil olunub, İran filologiyası kafedrasının ilk müdiri professor Həsən Mahmudov təyin edilib. Ardıcıl olaraq 1990-1996-cı illərdə professor Mirzə Rəhimov, 1996-2006-cı illərdə dosent Tofiq Cahangirov, 2006-2023-cü ilə qədər iranşünas-alim, professor Mehdi Kazımov eyniadlı kafedraya rəhbərlik edib. 2023-cü ildən kafedra professor Mehdi Kazımovun rəhbərliyi ilə Orta Şərq dilləri və ədəbiyyatı kafedrası adı altında fəaliyyətini davam etdirir.

1957-ci ildən Ərəb dili kafedrasının müdiri vəzifəsini Azərbaycanda müdafiə etmədən doktorluq dərəcəsi alan ilk alim, böyük ərəbşünas, professor Ələsgər Məmmədov (1957-1989) və dosent İsmayıl Şəms (1989-1991) tutublar. 1991-ci ildən 2019-cu ilə qədər Ərəb filologiyası kafedrasının müdiri akademik Vasim Məmmədəliyev olub. 2019-2022-ci illər arasında kafedra müdiri vəzifəsini dosent Vüqar Qaradağlı və professor Elxan Əzizov icra edib. 2022-ci ildən isə Ərəb filologiyası kafedrasına fəilologiya üzrə elmlər doktoru, dosent Vüqar Qaradağlı rəhbərlik edir.

1990-cı ildə fakültədə Türk filologiyası kafedrası yaradılıb. Kafedra yaradılandan indiyədək onun müdiri türkoloq-alim, professor Rüfət Rüstəmovdur.

Şərqşünaslıq fakültəsində 1957-ci ildən yaradılmış istiqamətlərlə yanaşı, uzun müddətdən sonra ölkəmizin müstəqilliyini bərpa etməsi, Yaxın və Uzaq Şərq ölkələri ilə yaranan münasibətlər kontekstində 1993-cü ildə İvrit, 2000-ci ildə Yapon, 2001-ci ildə Urdu, 2002-ci ildə Çin və 2007-ci ildə isə Koreya şöbələri yaradılıb. Çin, Yaponiya və Koreya dilləri 2004-cü ildə yaradılan vahid Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasına daxil edilib. 2005-ci ildən kafedraya professor Oqtay Cəlilbəyli rəhbərlik edir.

Şərqşünaslıq fakültəsində tədrisin yüksək səviyyədə aparılmasında, Vətənimiz üçün şərqşünas kadrların yetişdirilməsində, ərəbşünaslıq, iranşünaslıq və türkologiya sahəsində elmi nailiyyətlər əldə edilməsində akademik Həmid Araslı, professorlar Ələsgər Məmmədov, Rəhim Sultanov, Aida İmanquliyeva, Mübariz Əlizadə, Əhməd Şəfai, Neyyerzaman Hatəmi, Həsən Mahmudov, Malik Mahmudov, Mirzə Rəhimov, Aniyə Ələkbərova, Aslan Eyvazov, Şulan Şirəliyev, dosentlər Əli Azəri, Həsən Əlizadə, Yusif Şirvan, Yusif Ziya Şirvani, Təhmurəs Cahani, Ağadadaş Dadaşov, Əbdüləli Kərimov, Fəxrəntac Zülfüqarova, İsmayıl Şəms, Tofiq Cahangirov və başqaları əvəzsiz xidmətlər göstəriblər. Azərbaycanda şərqşünaslıq və islamşünaslığın inkişafında akademik Vasim Məmmədəliyev böyük rol oynayıb.

Fakültədə 900-dən çox tələbə təhsil alır, 100-dən artıq əməkdaş fəaliyyət göstərir. Tələbələr Türkiyə, Ərəb ölkələri, İran, Pakistan, İsrail, Yaponiya, Çin, Koreya üzrə regionşünaslıq, türk, ərəb, fars, Çin dilləri üzrə filologiya, ərəb və fars dili üzrə tərcümə ixtisasları üzrə təhsil alırlar.

Fakültə beynəlxalq əlaqələrin genişlənməsi sahəsində geniş işlər aparır. Belə ki, Türkiyə, Ərəb ölkələri, Uzaq Şərq ölkələri, Pakistan, İsrailin təhsil ocaqları ilə əməkdaşlıq genişləndirilir. Hər il Kuveyt Dillər Mərkəzinə təhsil almaq üçün ərəb dili üzrə yaxşı oxuyan tələbələr göndərilir. Yaponiyanın Gumma Universiteti, Tsukuba Universiteti ilə müqavilələr imzalanıb. Çin Xalq Respublikasının Anhui Universiteti ilə BDU arasında imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, "Çin filologiyası" ixtisası üzrə ikili diplom proqramı həyata keçirilir. Artıq bu ixtisas üzrə təhsil alan tələbələr təhsillərini Anhui Universitetində davam etdirə biləcəklər. Əldə olunmuş razılığa əsasən, cari ildə fakültənin "Çin dili üzrə filologiya" ixtisasının yüksək göstəricilərə malik tələbələri Anhui Universitetinin altı həftəlik yay məktəbi kursunda iştirak ediblər. Qətər Universiteti, Türkiyənin Pamukkale Universiteti, Misirin Ayn Şəms Universiteti, Çexiyanın Karlova Universiteti, Varşava Universiteti, Koreyanın Kyungun Universiteti ilə memorandumların imzalanması üzrə danışıqlar aparılır. Orta Asiyanın bir neçə universiteti ilə əməkdaşlıq çərçivəsində onlayn mühazirələr təşkil olunur. Yunus Əmrə İnstitutu, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Atatürk Mərkəzi, Füzuli adına Əlyazmalar İnstitutu, AMEA-nın Şərqşünaslıq İnstitutu, Şəms Tərcümə Mərkəzi ilə əməkdaşlıq davam etdirilir.

Fakültədə auditoriyalar texniki cəhətdən müasir proyektorlar, elektron lövhələrlə təmin olunub. Dərslərdə video-audio materiallardan istifadə olunur. Müəllimlər dil dərslərinin daha effektiv keçirilməsi üçün innovativ üsullardan istifadə edirlər. Həmçinin fakültədə danışıq klubları da fəaliyyət göstərir. Növbəti tədris ilində "Tərcüməçilik" ixtisası üzrə təhsil alan tələbələr üçün diplomatik görüşlərdə tərcümə prosesini əks etdirən simulyasiya oyunlarının təşkili nəzərdə tutulur. Fakültə Koreya, Çin, yapon, türk, ərəb dilləri üzrə natiqlik yarışları keçirir ki, bu da tələbələrin Şərq dillərini dərindən öyrənmələrinə yardım edir. Mütəmadi şəkildə məşhur şərqşünas alimlər, diplomatlar, dövlət xadimləri, incəsənət nümayəndələri ilə görüşlər keçirilir. Fakültədə "Qiraət" adlı kitab klubu fəaliyyət göstərir. Klubun görüşləri şəhərin elm və mədəniyyət ocaqlarında təşkil olunur. Hər il fakültənin Uzaq Şərq dilləri üzrə təhsil alan tələbələri yapon dili üzrə natiqlik, Çin dili üzrə "Çin dili körpüsü" yarışlarında iştirak edirlər. İllərdir ki, bu yarışların ənənəvi qalibləri arasında Şərqşünaslıq fakültəsinin tələbələri müstəsna mövqe tuturlar. Eyni zamanda fakültənin ərəb, fars, türk dilləri üzrə təhsil alan tələbələri ölkədə keçirilən beynəlxalq konfransların işinə könüllü qismində dəstək olur, xarici qonaqlarla işin qurulmasında effektiv rol oynayırlar. Bu tədbirlər arasında islamafobiya, UNESCO və ICESCO ilə bağlı keçirilən silsilə konfrans və tədbirlər də var. Fakültə tələbələri hər il Qətər Fondu tərəfindən keçirilən Ərəb dili üzrə dünya və Asiya debat yarışlarında iştirak edirlər. İndiyədək fakültə tələbələri Qətər, Malayziya, Türkiyə və Omanda dörd debat çempionatında önəmli nəticələr əldə ediblər.

Fakültə tələbələri Universitetin sosial həyatında yaxından iştirak edirlər. Hər il fakültə tələbələrinin iştirakı ilə şəhid məzarları ziyarət olunur, şəhid ailələri ilə əlaqə saxlanılır. Ulu Öndər Heydər Əliyevin məzarına, Şəhidlər Xiyabanına ziyarətlər təşkil olunur. Heydər Əliyev Mərkəzi, Hərbi Qənimətlər Parkına ekskursiyalar təşkil edilir, milli-mənəvi məsələlər, azərbaycançılıq ideyaları aşılanır. Tələbələr Xarici İşlər Nazirliyi, Dövlət Miqrasiya Xidməti, Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və s. dövlət orqanlarının fəaliyyətində yaxından iştirak edirlər. Hər il fakültədə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümlərinə həsr olunmuş "Şərq filologiyası məsələləri" mövzusunda Gənc alim və magistrantların konfransı keçirilir. Fakültə tələbələri Atatürk Mərkəzində, Şəms Tərcümə Mərkəzində, AMEA-nın Şərqşünaslıq, Əlyazmalar və Ədəbiyyat institutlarında, Azərbaycan Ədəbiyyatı Muzeyində, Yunus Əmrə İnstitutunda, Türk Mədəniyyəti və İrsi Fondunda təcrübə keçirlər.

105 illik tarixi ilə qürur duyan BDU-nun 101 yaşlı Şərqşünaslıq fakültəsi beynəlxalq əlaqələrini daha da inkişaf etdirmək, tədqiqat və tədris sahəsindəki uğurlarını artırmaq, müasir dövrün tələblərinə uyğun olaraq fəaliyyətini genişləndirmək niyyətindədir. Bu istiqamətdə atılan addımlar fakültənin akademik mühiti və elmi işlərinin daha da tanınmasına, beynəlxalq miqyasda rəqabət qabiliyyətinin artırılmasına kömək edəcək.

# BDU-105: Azərbaycanın sosial inkişafı üçün kadrlar hazırlayan Sosial elmlər və psixologiya fakültəsi

***BDU yarandığı gündən ölkəmizi yüksəkixtisaslı mütəxəssislərlə təmin etmək üçün daim yeni ixtisasların açılmasına üstünlük verib.*** 1990-cı ildə BDU-nun Tarix fakültəsinin tərkibində “Tarix-sosiologiya, “Tarix-psixologiya”, “Tarix-sosial psixologiya” və “Tarix-etnopsixologiya” ixtisaslarına tələbə qəbulu keçirilib. Bir il sonra həmin ixtisasların bazasında, habelə “Fəlsəfə” və “İqtisadi nəzəriyyə” ixtisaslarından ibarət yeni fakültə – Sosial elmlər və psixologiya fakültəsi yaradılıb. Fəaliyyətinin ilk günlərindən Sosial elmlər və psixologiya fakültəsində dörd ixtisas – “Psixologiya”, “Sosiologiya”, “Fəlsəfə” və “İqtisadi nəzəriyyə” ixtisasları üzrə kadr hazırlığına başlanılıb.

Ötən əsrin 80-ci illərin axırı - 90-cı illərin əvvəllərində ölkəmizdə baş verən sosial-siyasi hadisələr “Sosial-siyasi münasibətlər nəzəriyyəsi” ixtisası üzrə kadr hazırlığına ehtiyac yaradırdı. Həmin tələbatı ödəmək məqsədi ilə Sosial elmlər və psixologiya fakültəsində 1992-ci ildə “Sosial-siyasi münasibətlər nəzəriyyəsi” ixtisası (sonralar bu ixtisas “Politologiya” adlandırılıb) üzrə tələbə qəbulu keçirilib. Beləliklə, fakültədə beş ixtisas (“Psixologiya”, “Sosiologiya”, “Fəlsəfə”, “Politologiya”, “İqtisadi nəzəriyyə”) ixtisasları üzrə sistemli kadr hazırlığına başlanılıb. Sonradan “Politologiya” və “İqtisadi nəzəriyyə” ixtisasları yeni yaradılmış Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinə verilib. Sosial elmlər və psixologiya fakültəsində isə “Sosial iş”, “Təhsildə sosial-psixoloji xidmət” və “Korreksiyaedici təlim” ixtisasları açılıb.

Fakültə yaradılarkən onun tabeliyində bir kafedra – Fəlsəfə və sosiologiya kafedrası olub. Sonradan fakültə hazırladığı ixtisaslara uyğun olaraq öz fəaliyyətini genişləndirib. 1992-ci ildə ixtisas-buraxılış kafedralarına çevrilən daha üç ümumuniversitet kafedrası (Psixologiya, İqtisadiyyat, Politologiya və sosiologiya kafedraları) yaradılıb. 1999-cu ilin iyununda fakültənin daha səmərəli işləməsi və təşkilati baxımdan möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Psixologiya, Pedaqogika, Politologiya və sosiologiya, İqtisadiyyat, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq, Təbiət fakültələri üzrə fəlsəfə, Humanitar fakültələr üzrə fəlsəfə kafedraları Sosial elmlər və psixologiya fakültəsinin tərkibinə daxil edilib.

Hazırda Sosial elmlər və psixologiya fakültəsində 8 kafedra fəaliyyət göstərir. Bunlar Fəlsəfə, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq, Pedaqogika, Psixologiya, Gender və tətbiqi psixologiya, Sosiologiya, Sosial və pedaqoji psixologiya, Sosial iş kafedralarıdır.

Psixologiya elmləri doktoru, Əməkdar elm xadimi, professor Əkbər Bayramov fakültənin ilk dekanı olub. 1992-ci ilin noyabrından 2006-cı ilin dekabrına qədər isə fakültəyə fəlsəfə elmləri namizədi, dosent Fazil Vahidov rəhbərlik edib. Daha sonra pedaqoji elmlər doktoru, professor Hikmət Əlizadə fakültə dekanı seçilib. 2022-ci ildən fakültəyə dosent Rövşən Cavadov rəhbərlik edir.

Ümumiyyətlə, fakültənin inkişafında bir çox görkəmli alimlər – Əkbər Bayramov, Cəmil Əhmədli, Fuad Qasımzadə, Həsən Şirəliyev, Həmid İmanov, Fazil Vahidov, İzzət Rüstəmov, Rəbiyyət Aslanova və başqalarının əvəzsiz xidmətləri olub.

Hazırda Sosial elmlər və psixologiya fakültəsində bakalavriatura səviyyəsində 6 ixtisas (“Psixologiya”, “Sosiologiya”, “Sosial iş”, “Fəlsəfə”, “Təhsildə sosial psixologiya xidmətləri”, “Korreksiyaedici təlim”), magistratura səviyyəsində isə 19 ixtisaslaşma (“Ümumi psixologiya, “Uşaq və yaş psixologiyası”, “Klinik psixologiya”, “Hüquq psixologiyası”, “Sosial psixologiya”, “Pedaqoji psixologiya”, “İnkişaf psixologiyası”, “Təhsildə sosial-psixoloji xidmət”, “Pedaqogikanın tarixi və nəzəriyyəsi”, “Sosial pedaqogika”, “Təhsildə qiymətləndirmə və monitorinq”, “Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş”, “Gənclərlə sosial iş”, “Siyasət nəzəriyyəsi”, “İdarəetmənin nəzəriyyəsi”, “Sosioloji tədqiqatların metodları və metodologiyası”, “Sosial fəlsəfə”, “Təbiətşünaslıq fəlsəfəsi”, “Fəlsəfə tarixi”) üzrə kadr hazırlığı həyata keçirilir. Fakültədə təhsil forması həm əyani, həm də qiyabidir. Təhsil Azərbaycan, rus və ingilis dillərində aparılır. Fakültədə 100 nəfərlik professor-müəllim heyəti fəaliyyət göstərir. 2016/2017-ci tədris ilindən etibarən fakültədə “Psixologiya” ixtisası üzrə SABAH qrupu yaradılıb.

Hazırda Sosial elmlər və psixologiya fakültəsində 2081 nəfər (bakalavr pilləsində - 1792, magistr pilləsində - 185, fəlsəfə doktoru proqramı üzrə - 94, elmlər doktoru proqramı üzrə - 10 nəfər) təhsil alır.

Fəaliyyət göstərdiyi 33 il ərzində fakültə bir çox xarici ali məktəblərlə, beynəlxalq təşkilatlarla əlaqələr yaradıb, sosial və humanitar sahələr üzrə təhsilin metodoloji və nəzəri əsaslarını formalaşdırıb. Fakültənin kollektivi elmi tədqiqatları ilə cəmiyyətin təfəkkür mədəniyyətini formalaşdırmağa çalışıb. Fakültənin fəaliyyəti nəticəsində sosiologiya, fəlsəfə, korreksion pedaqogika, psixologiya, sosial iş sahələri bir elm və peşə olaraq təşəkkül tapıb, dövrün tələblərinə uyğun inkişafa nail olub. Fakültə çətin və şərəfli inkişaf yolu keçib. Nəticədə sosiologiya, fəlsəfə, psixologiya, pedaqogika sahələri üzrə cəmiyyətimizin mənəvi-mədəni və bütövlükdə sosial inkişafının ayrılmaz tərkib hissəsinə çevrilib. Fakültə tədris prosesinin təkmilləşdirilməsini, tələbələrin müstəqil işlə məşğul olmasını, mütəxəssis kadrların hazırlanmasında keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasını, tədris planlarında ixtisaslar üzrə elmin müasir sahələrinin və problemlərinin öz əksini tapmasını daim diqqət mərkəzində saxlayır.

BDU Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) və ona tabe qurumlarla sıx əməkdaşlıq edir. Bunların arasında DOST Agentliyi, Sosial Xidmətlər Agentliyi və s. göstərmək olar. Bu əməkdaşlıq çərçivəsində Sosial elmlər və psixologiya fakültəsinin bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbələri üçün istehsalat və elmi-tədqiqat təcrübə proqramları təşkil olunur. Eləcə də birgə sosial layihələr hazırlanır və həyata keçirilir.

Fakültə öz geniş profilinə uyğun olaraq bir çox dövlət və ictimai təşkilatlarla da əməkdaşlıq edir. Milli Məclisin komissiyaları, bir sıra qeyri-hökumət qurumları, BDU-nun psixoloji yardım sektoru, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Təhsil Problemləri İnstitutu, ölkədə fəaliyyət göstərən ali məktəblər fakültənin sıx əməkdaşlıq etdiyi qurumlardandır.

# Tarix fakültəsinin I kurs tələbələri Heydər Əliyev Muzeyini ziyarət ediblər



***Sentyabrın 30-da Tarix fakültəsinin I kurs tələbələri BDU-nun Heydər Əliyev Muzeyini ziyarət ediblər. Heydər Əliyev muzeyinin mütəxəssisi Afət Seyidbəyova muzey haqqında tələbələrə məlumat verib.***

Bildirilib ki, BDU-nun Heydər Əliyev muzeyi 1997-ci ildə Ulu Öndərin şəxsi razılığı ilə yaradılıb və fəaliyyətə başlayıb. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar BDU-nun tədbirlər planı çərçivəsində muzey ən müasir standartlar nəzərə alınmaqla əsaslı şəkildə yenidən qurulub. Muzeydə BDU-nun dünya şöhrətli məzunu və fəxri doktoru olan böyük şəxsiyyətin həyatının müxtəlif dövrlərini əks etdirən sənədlər nümayiş olunur.

# BDU-da ixtisas fənni üzrə doktoranturaya qəbul imtahanları keçirilib

***Sentyabrın 9-da BDU-nun doktoranturasına qəbul üzrə ixtisas fənnindən yazılı qəbul imtahanları keçirilib.***

İmtahanlarda BDU-nun doktoranturasına qəbul olmaq üçün müraciət etmiş və sentyabrın 2-4-də “Fəlsəfə” fənni üzrə doktoranturaya qəbul imtahanlarından müvəffəqiyyətlə keçmiş 129 iddiaçı iştirak edir.

Bu il “Əməliyyatlar tədqiqi”, “Ehtimal nəzəriyyəsi”, “Topologiya”, “Neft kimyası”, “Petrologiya, vulkanologiya”, “Xəritəşünaslıq, geoinformatika”, “Aqrokimya”, “Materiallar texnologiyası”, “Türk xalqları ədəbiyyatı”, “Dinin tarixi və fəlsəfəsi” və “Korreksiya pedaqogikası” kimi ixtisaslara da qəbul həyata keçirilir.

Qeyd edək ki, Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 163s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2024-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları” əsasında Elm və Təhsil Nazirliyi tərəfindən BDU-ya 2024-cü ildə fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul üçün 134 (53 əyani və 81 qiyabi olmaqla), dissertanturaya isə 39 yer ayrılıb. Elmlər doktoru proqramı üzrə doktoranturaya 21 (2 əyani və 19 qiyabi olmaqla), dissertanturaya isə 12 yer ayrılıb.

# BDU-nun SABAH qruplarında 916 tələbə təhsil alır

***2024/2025-ci tədris ilində Bakı Dövlət Universitetinin SABAH qruplarının II kursuna 6 ixtisas (“Biotexnologiya”, “Biologiya müəllimliyi”, “Fizika müəllimliyi”, “Kimya müəllimliyi”, “Kompüter elmləri”, “Psixologiya”) üzrə 162 tələbə qəbul olunub. Yeni tədris ilində BDU-nun SABAH qruplarında 6 ixtisas üzrə 674 tələbə təhsil alır.***

2024/2025-ci tədris ilində BDU-nun SABAH qruplarının magistratura səviyyəsinə 8 ixtisaslaşma (“Ehtimal nəzəriyyəsi və riyazi statistika”, “Əməliyyatlar tədqiqi və sistemli təhlil”, “Jurnalistika”, “Kimyəvi kinetika və kataliz”, “Kompüter elmləri və texnologiyaları”, “Molekulyar biologiya”, “Nanohissəciklər fizikası”, Optimallaşdırma və optimal idarəetmə) üzrə 111 tələbə qəbul olunub.

Yeni tədris ilində BDU-nun SABAH qruplarında magistratura səviyyəsində 8 ixtisaslaşma üzrə 242 magistrant təhsil alır.

# BDU-nun THİK üzvləri "Sağlam insan və dayanıqlı gələcək" mövzusunda yay məktəbində



***BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) rəhbərliyi və üzvləri 6-8 sentyabr tarixlərində Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə keçirilən "Sağlam insan və dayanıqlı gələcək" mövzusunda yay məktəbində iştirak ediblər.*** Xaçmaz rayonunun Nabran qəsəbəsində yerləşən "Təhsil" İstirahət Mərkəzində təşkil edilən yay məktəbində ali təhsil müəssisələrinin 120 tələbəsi, THİK sədrləri və media nümayəndələri iştirak edib.

Yay məktəbi çərçivəsində "Sağlam insan və dayanıqlı gələcək" mövzusunda konfrans keçirilib. Konfransda Respublika Komitəsinin rəhbərliyi və tələbələr ilə geniş fikir mübadiləsi aparılıb.

Yay məktəbi çərçivəsində həmçinin tələbələr üçün müxtəlif idman yarışları, intellektual oyunlar təşkil edilib, onların asudə vaxtlarının səmərəli təşkili istiqamətində işlər görülüb.

# BDU-da Milli Musiqi Günü qeyd olunub




***Sentyabrın 18-də BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzi Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin doğum günü və 18 sentyabr - Milli Musiqi Günü münasibətilə ədəbi-bədii kompozisiya hazırlayıb.***

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin 1995-ci ildə - dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində imzaladığı Fərmanla hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur. Azərbaycan musiqisinin inkişafında əvəzsiz rol oynayan Üzeyir Hacıbəylinin doğum günü ilə əlaqədar hər il ölkəmizdə təntənəli mərasimlər keçirilir.

Kompozisiyada dahi bəstəkarın "Arşın mal alan" operasından rəqs, "Leyli və Məcnun" operasından "Şəbi-hicran" xoru və görüş səhnəsi, "O olmasın, bu olsun" operettasından musiqi və səhnələr, "Arazbarı" ritmik muğamı, "Koroğlu" uvertürası təqdim olunub.

# "BDU könüllüləri"nin təşkilatçılığı ilə gələcək hüquqşünaslar üçün təlimlər

***"BDU könüllüləri" təşkilatının Hüquq fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə tələbələr üçün silsilə təlimlər keçirilir.***

2024-cü ilin mart ayından start götürən təlimlər mülki hüquq, mülki proses, ailə hüququ, əmək hüququ, beynəlxalq hüquq, inzibati hüquq, sosial təminat hüququ, insan hüquqları kimi fərqli hüquq sahələrini əhatə edir. İndiyədək təlimlərdə 850-dən artıq tələbə iştirak edib.

Təlimlər Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynov, Yasamal rayon məhkəməsinin hakimi Fariz Əlizadə, Vəkillər Kollegiyasının üzvləri Seymur Hüseynov, Nuranə Məmmədova, Tanrıqulu Vəliyev, Azərbaycan Metrologiya İnstitutunun hüquqşünası Türkan Kərimova, "Unibank"ın hüquqşünası Əlixan Qarayev, BDU-nun IV kurs tələbəsi İsmət Bayramov tərəfindən keçirilib.

Ümumilikdə əyani və onlayn qaydada 20-dən artıq təlim keçirilib. 17 təlimin videoyazısı internet platformalarda yerləşdirilib. Təlimlər barədə məlumatların paylaşıldığı, tələbələrin suallarını cavablandırmaq və gündəlik plenum qərarlarının izahı üçün yaradılmış sosial şəbəkə hesabları 1400-dən artıq tələbə və hüquqşünası əhatə edir. Qeyd edək ki, təlimlər hər həftə davam edir.

İndiyədək ümumilikdə 35 saatdan artıq təlim keçirilib, onlayn platformada yerləşdirilən məqalə, plenum qərarı və kitab sayı 500-dən artıqdır. 400-dən artıq sual cavablandırlıb.

# "QS Quacquarelli Symonds" Reytinq Agentliyi BDU əməkdaşları üçün təlim keçirib

***Nüfuzlu "QS Quacquarelli Symonds" Reytinq Agentliyi tərəfindən BDU-nun əməkdaşları üçün təlim təşkil edilib.***

Təlimdə açılış nitqi ilə çıxış edən rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov müxtəlif kateqoriyalar üzrə QS reytinq nəticələrinin BDU üçün əhəmiyyətindən bəhs edib. O, BDU-nun "QS World University Rankings 2025"də 179 pillə irəliləyərək, 951-1000 aralığında qərarlaşdığını və ölkədə lider mövqeyinə yüksəldiyini, eləcə də "QS Avropa 2025" reytinqində ötən illə müqayisədə 78 pillə irəliləməklə 336-cı mövqeyə yüksələrək, böyük uğura imza atdığını vurğulayıb.

# BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin məzunlarının hamısı tələbə adını qazanıb

***BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin builki məzunları qəbul imtahanlarında böyük uğura imza atıblar.***

Belə ki, liseyin 46 məzununun hamısı tələbə adını qazanıb. "Gənc istedadlar" liseyinin məzunlarından 14-ü təhsilini BDU tələbəsi kimi davam etdirəcək. Liseyin 9 məzunu isə xarici ölkələrin müxtəlif ali təhsil ocaqlarında təhsil alacaq.

# BDU-da "Gənc proqramçılar" müsabiqəsi keçirilib

***Gənclər Fondunun dəstəyi, Bakı Dövlət Universiteti və "BDU könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə "Gənc proqramçılar" adlı proqramlaşdırma müsabiqəsi keçirilib.***

Müsabiqədə ölkənin müxtəlif universitet, kollec və orta ümumtəhsil müəssisələrindən təhsilalanlar iştirak ediblər. Gənclər məntiqi, nəzəri, cəld kodlama və proqramlaşdırma bilikləri üzrə mübarizə aparıblar.

Müsabiqənin nəticələrinə əsasən, "The Compilers" komandası I, "Frack" komandası II, "Enigma" komandası isə III yerə layiq görülüb. Qaliblər kubok, medal və sertifikatlarla təltif olunublar.

Müsabiqənin keçirilməsində məqsəd gənclər arasında proqramlaşdırmaya olan marağı artırmaq, onların bu istiqamətdəki bacarıqlarını inkişaf etdirməkdir.

# BDU-nun "Acta Botanica Caucasica" jurnalı daha bir nüfuzlu bazaya daxil edilib

*"Acta Botanica Caucasica" beynəlxalq elmi araşdırmalar jurnalı məzmununa görə elmi-tədqiqat nəşridir. Jurnal orijinal eksperimental məlumatlar və ya mövcud nəticələrin yeni şərhləri ilə elmi məqalələr dərc edir.*

***BDU-nun təsis etdiyi "Acta Botanica Caucasica" jurnalı beynəlxalq xülasələndirmə və indeksləmə bazalarına daxil edilməsi istiqamətində son dövrlərdə əhəmiyyətli uğurlar əldə edib.***

Bu günlərdə "Acta Botanica Caucasica" jurnalı müvafiq meyarlarla qiymətləndirmə proseslərindən uğurla keçərək, "ICI Journals Master List" (İndex Copernicus International - https://journals.indexcopernicus.com/) bazasında indekslənib. Qeyd edək ki, nəşr "AGRIS" (International System for Agricultural Science and Technology) beynəlxalq bazasına və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının biologiya və aqrar elmlər sahəsində dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısına daxildir. Eyni zamanda nəşr edilən bütün məqalər DOI (digital object identifier) - rəqəmsal identifikatorlarla nişanələnir.

Hər il müntəzəm olaraq 4 nömrəsi dərc edilən jurnalın elektron saytı (https://www.botanic.az/) həm struktur, həm də məzmun baxımından təkmilləşdirilib, arxiv bazası genişləndirilib.

"Acta Botanica Caucasica" beynəlxalq elmi araşdırmalar jurnalı məzmununa görə elmi-tədqiqat nəşridir. Jurnal orijinal eksperimental məlumatlar və ya mövcud nəticələrin yeni şərhləri ilə elmi məqalələr dərc edir. Jurnalda fundamental və tətbiqi botanikanın anatomiya, morfologiya, fitosenologiya, floristika, sistematika, geobotanika, bitki ehtiyatları, dərman və aromatik bitkilər, aqrobotanika, paleobotanika, taksonomiya, lixenobriologiya, mikologiya, algologiya, biokimya, biofizika və s. kimi sahələr üzrə aparılan son tədqiqatlar və elmi yeniliklər dərc edilir.

Hazırda jurnalın digər nüfuzlu bazalara daxil edilməsi istiqamətində intensiv fəaliyyət davam etdirilir. Jurnalın baş redaktoru BDU-nun Biologiya fakültəsinin Botanika və bitki fiziologiyası kafedrasının müdiri AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor Elşad Qurbanovdur.

# BDU-nun Filologiya fakültəsində I kurs tələbələri ilə görüş

***Sentyabrın 13-də Filologiya fakültəsində 2024/2025-ci tədris ili üzrə bakalavriat səviyyəsinə qəbul olunmuş I kurs tələbələri ilə görüş keçirilib. Görüşdə Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor Fərda İmanov, fakültə rəhbərliyi, kafedra müdirləri, professor-müəllim heyəti və tyutorlar iştirak ediblər.***



BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov tələbələri ölkəmizin ən qədim və böyük ali təhsil müəssisəsinə qəbul olunmaları və yeni dərs ili münasibətilə təbrik edərək, onlara uğurlar arzulayıb. O, universitetdə kadr hazırlığı həyata keçirilən ixtisaslar, onların perspektivləri, tədris prosesinin təşkili və gələcək hədəflər haqqında məlumat verib, tələbələri qarşıdakı təhsil müddətində yüksək bilik və bacarıqlara yiyələnməyə çağırıb.

Fakültə dekanı Elçin Məmmədov bu il 105 illiyi qeyd edilən Bakı Dövlət Universiteti ilə yaşıd Filologiya fakültəsinin tarixi, elmi mühiti, kadr potensialı, nailiyyətləri haqqında tələbələri məlumatlandırıb, son illər Universitetdə həyata keçirilən islahat və yeniliklərdən bəhs edib. Bildirib ki, tədrisin keyfiyyətinin artırılması məqsədilə Universitetin maddi-texniki bazası daha da gücləndirilir, tələbələrin şəffaf mühitdə təhsil almalarına şərait yaradılır. Universitetdə fəaliyyət göstərən tələbə təşkilatları istedadlı və bacarıqlı gənclərin üzə çıxarılması istiqamətində mühüm işlər görür.

Dekan müavinləri Ülviyyə Hüseynova, Mehriban Əlizadə və Anar Fərəcov, kafedra müdirləri Məhərrəm Məmmədov, Tofiq Hacıyev, İngilis dili (humanitar fakültələr üzrə) kafedrasının professoru Əfqan Abdullayev, tələbə təşkilatlarının rəhbərləri çıxışlarında Azərbaycanda ictimai-siyasi və filoloji fikrin inkişafında BDU-nun Filologiya fakültəsinin tarixi xidmətlərindən, buradakı tədris prosesindən söz açıb, tələbələrin Universitetin elmi-mədəni və ictimai həyatındakı fəallığının əhəmiyyətini vurğulayıblar.

Sonra fakültənin tyutorları tələbələrə tədrisin təşkili, mövcud qaydalar və kredit sistemi haqqında ətraflı məlumat verib, onların qruplar üzrə bölgüsünə və tələbələri maraqlandıran digər məsələlərə aydınlıq gətiriblər.

Qeyd edək ki, cari tədris ilində BDU-nun Filologiya fakültəsinə 320 nəfər qəbul olunub. Onlardan 12 nəfəri 600-dən yuxarı bal toplayıb. Fakültə üzrə ən yüksək qəbul göstəricisi 644,2 baldır.

# BDU-nun Fizika fakültəsində I kurslarla görüş

***Sentyabrın 25-də Fizika fakültəsinin I kurs tələbələri ilə fakültə rəhbərliyinin və professor-müəllim heyətinin görüşü keçirilib.***



Fakültənin dekanı Bəxtiyar Paşayev I kurs tələbələrini təbrik edib, onlara BDU və Fizika fakültəsi barədə məlumat verib. Fakültənin tarixi, tədrisin, elmi fəaliyyətin təşkili, tanınmış məzunları barədə danışan dekan BDU tələbəsi adını qazanmağın hər bir gənc üçün qürurverici hadisə olduğunu bildirib.

Nanomateriallarım kimyəvi fizikası kafedrasının müdiri Maarif Cəfərov və Nəzəri fizika kafedrasının müdiri Məmməd Rəcəbli də tələbələri təbrik edərək, rəhbərlik etdikləri kafedralar, fizika elmi barədə danışıblar.

Fizika fakültəsi Tələbə Elmi Cəmiyyətinin (TEC) elmi rəhbəri Aida Əhmədova elmi tədqiqatla məşğul olmağın tədris olunan biliklərin mənimsənilməsində mühüm rol oynadığını qeyd edib, tələbələri TEC-ə üzv olmağa çağırıb.

Qəbul imtahanlarında 662,9 bal toplayaraq, Fizika fakültəsinə daxil olmuş Şəbnəm Əliyeva BDU-nun tələbəsi adını qazanmaqdan qürur duyduğunu, fizika elminə böyük marağı olduğunu və fakültədə peşəkar fizik kimi yetişəcəyinə əminliyini bildirib.

Fizika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Məhəmməd Məhərrəmov tələbələri BDU-nun daxili nizam-intizam qaydaları ilə tanış edib, onları həmin qaydalara əməl etməyə, universitetin əmlakına qayğı ilə yanaşmağa dəvət edib. O, fakültə Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti barədə məlumat verərək, həmin təşkilatlara üzv olmağı, Universitetin və fakültənin ictimai həyatında fəal iştirak etməyi, idman komandalarına, Mədəniyyət-yaradıcılıq Mərkəzində fəaliyyət göstərən dərnəklərə yazılmağı tövsiyə edib.

# BDU tələbələri "ECOLEAD" layihəsi çərçivəsində ağacəkmə aksiyasında

***Sentyabrın 30-da Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universitetinin birgə həyata keçirdiyi "ECOLEAD" (Ətraf mühitin gücləndirilməsi: maarifləndirmə və hüquq mahfizə tədbirləri) layihəsi çərçivəsində "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.***

Sözügedən qurumların rəsmiləri və əməkdaşlarının, o cümlədən BDU tələbələrinin iştirakı ilə keçirilən tədbir zamanı Bakının Yasamal rayonunun Abbas Mirzə Şərifzadə küçəsi boyunca Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun ağaclar əkilib.

Qeyd edək ki, "ECOLEAD" platforması prokurorluq əməkdaşları, ekoloqlar, ali təhsil ocaqları və ictimaiyyət nümayəndələrinin səyləri nəticəsində ətraf mühitin mühafizəsi sahəsində pozuntuların qarşısının alınması, təcrübənin paylaşılması və cəmiyyətin maariflənməsinə yönəlib.

"ECOLEAD" layihəsi ölkə ərazisində ekoloji cinayətlər nəticəsində zədələnmiş yaşıllıqların bərpası məqsədini daşıyır. Layihənin əsası Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və BDU arasında Xankəndi şəhərində keçirilmiş tədbirdə imzalanmış anlaşma memorandumu ilə qoyulub, daha sonra Naxçıvan Dövlət Universiteti memoranduma qoşulub.

# BDU-nun 105 illik yubileyinə həsr olunmuş universitetlərarası debat turniri

***Sentyabrın 30-da BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə BDU-nun "Debat Klubu" tərəfindən Universitetin 105 illik yubileyinə həsr olunmuş universitetlərarası debat turnirinin final və bağlanış mərasimi keçirilib.*** Finalda Azərbaycan bölməsi üzrə BDU-nun "İyerarxiya", Azərbaycan Texniki Universitetinin "Sovetski", rus bölməsi üzrə isə BDU-nun "Pavel Durov" və Azərbaycan Dövlət İqtisad Universitetinin "Svetlaga storona lunı" komandaları qarşılaşıb.

Nəticələrə görə, "Sovetski" və "Pavel Durov" komandaları turnirin çempionu olublar.

Sonda isə Azərbaycan bölməsi üzrə ən yaxşı hakim Murad Mirzəzadə, ən yaxşı I natiq Əli Eyyublu, rus bölməsi üzrə isə ən yaxşı hakim Leyla Sadıqzadə və ən yaxşı I natiq Nərmin Kazımlı qızıl medalla mükafatlandırılıblar.

# BDU-da "EBSCO Discovery Service" sistemindən istifadə qaydaları haqqında vebinar keçirilib

***Sentyabrın 30-da BDU-nun Elmi Kitabxanası "EBSCO Discovery Service sistemindən istifadə qaydaları" adlı vebinar keçirib. Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) təşkilatçılığı ilə keçirilən vebinarda EBSCOHost şirkətinin nümayəndələri Aleksandr Rutau və Kristina Rudak moderatorluq ediblər.***

Tədbirdə BDU-nun Elmi Kitabxanası və respublikanın 12 ali təhsil müəssisəsinin kitabxanalarının 40-dan çox rəhbər işçisi və əməkdaşı iştirak edib. Vebinarda öncə "EBSCO Discovery Service" sistemi vasitəsilə əldə edilən dünya elmi resursları haqqında ətraflı danışılıb, sistemlə resurslarda axtarış nümayiş edilib və kitabxanalarda bu sistemlə işin düzgün təşkili ilə bağlı tövsiyələr verilib. Təqdimatda "EBSCO Discovery Service" sisteminin xarici nəşrlərdən alınan məqalələr və biblioqrafik məlumatlar üzrə axtarış aparmağa imkan verən, təşkilatın lisenziyalı giriş imkanı olan sənədlərin tam mətnlərinə elektron formada daxil olmağı təmin edən kompleks inteqrasiya olunmuş axtarış sistemi olduğu bildirilib.

BDU-nun interfeysi üzərindən bir neçə ali təhsil müəssisəsinin timsalında sistemə giriş imkanları və oxucuların BDU-nun elektron kitabxanasından qonaq giriş rejimində daxil olaraq tammətnli resurslardan istifadə qaydaları öyrədilib. Nümunə olaraq hər bir ali təhsil müəsisəsinə verilən istifadəçi adı və parolla sistemə girişin aktivliyi yoxlanılıb.

# BDU-105: Peşəkar diplomatlar və iqtisadçılar yetişdirən Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi

***Azərbaycan Respublikası dövlət müstəqilliyinə yenidən nail olduqdan sonra onun beynəlxalq aləmə inteqrasiyasını təmin etmək üçün beynəlxalq münasibətlər və beynəlxalq hüquq sahəsində mütəxəssislərə böyük ehtiyac yarandı.*** Bu məqsədlə BDU-nun Elmi Şurasının qərarı əsasında 1991/1992-ci tədris ilindən yeni bir fakültə – Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsi yaradıldı.

Fakültənin tələbə kontingenti həmin ixtisaslar üzrə ilkin qəbulun, eləcə də BDU-nun Hüquq fakültəsinin "Beynəlxalq hüquq", Tarix fakültəsinin və Lənkəran Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" ixtisasları üzrə təhsil alan tələbələri hesabına formalaşdırılıb.

Bolonya təhsil sisteminə keçidlə əlaqədar fakültədə bir sıra struktur dəyişiklikləri aparılıb. 2011-ci ildə "Beynəlxalq hüquq" ixtisası üzrə təhsil alan tələbələr Hüquq fakültəsinə köçürülüb. Elə həmin il Sosial elmlər və psixologiya fakültəsinin tərkibində olan "İqtisadiyyat", 2013-cü ildə isə "Politologiya" ixtisasları müvafiq ixtisasların bir mərkəzdə cəmləşdirilməsi məqsədi ilə fakültənin tərkibinə daxil edilib. Buna görə də 2011-ci ildə Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin adı dəyişdirilərək Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi adlandırılıb. Buna müvafiq olaraq fakültədə "Beynəlxalq münasibətlər", "İqtisadiyyat", "Dünya iqtisadiyyatı" və "Politologiya" ixtisasları üzrə tədris təşkil olunub. Hazırda fakültədə "Beynəlxalq münasibətlər", "İqtisadiyyat", "Beynəlxalq ticarət və logistika", "Dövlət və ictimai münasibətlər", "Maliyyə", "Menecment", "Biznesin idarə edilməsi", "Politologiya" və "Statistika" ixtisasları üzrə kadrlar hazırlanır.

Fakültədə akademik heyətin potensialının artırılması, həmçinin yeni nəslin tədris və təlim proseslərinə cəlb olunması məqsədi ilə bir sıra addımlar atılıb. Tələbə və professor-müəllim heyəti arasında müvafiq sorğular keçirilib və onların nəticələri təhlil edib. Dünya standartlarına cavab verən və müasir əmək bazarının tələblərini ödəyən yeni ixtisaslar (ixtisaslaşmalar) formalaşdırılıb və mövcud ixtisaslar dövrün tələbləri çərçivəsində təkmilləşdirilib. Fakültə dekanlığının və kafedraların birgə işinin nəticəsi olaraq qısa müddətdə yeni və müasir standartlara cavab verən tədris proqramları hazırlanıb. Otuz il ərzində fakültə müəllimlərinin ayrı-ayrı fənlər üzrə sanballı dərslikləri işıq üzü görüb, kafedralarda bakalavr və magistr tədris pillələrində nəzərdə tutulan fənlərin proqramları hazırlanıb və nəşr olunub.



Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin əldə etdiyi uğurlar fakültənin yüksək elmi potensialından qaynaqlanır. Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin kafedralarında elmi fəaliyyət illər ərzində formalaşmış elmi məktəblər çərçivəsində həyata keçirilir. Fakültənin əməkdaşları dünyanın aparıcı elm və təhsil mərkəzləri, eləcə də Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondu ilə intensiv əməkdaşlıq edir.

"TACİS-TEMPUS" proqramı çərçivəsində "Avropa və Xəzər dənizi" layihəsi üzrə Fransanın Nits Universiteti, Qrenobl Universiteti və İtaliyanın Genuya Universiteti ilə əməkdaşlığı vurğulamaq lazımdır. Bu layihənin fakültədə tədrisin Avropa standartlarına inteqrasiyasında müstəsna əhəmiyyəti var.

Fakültənin tələbələri 2005-ci ilin yanvar-aprel aylarında Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin və Amerika Təhsil Şurasının təşkil etdiyi "Nazirliklərdə praktika" müsabiqəsinin qalibi olublar. Həmçinin 2006-cı ilin 25-30 aprel tarixləri arasında Moskva şəhərində Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinin və Avropa İnsititunun təşkil etdiyi "3-cü Moskva Beynəlxalq forumu" çərçivəsində "2006-cı ilin Avropa Birliyi Modeli" mövzusunda tədbirdə, həmin ilin 21-25 oktyabr tarixlərində Brüsseldə NATO-nun Baş Qərargahında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin NATO-nun İctimai Diplomatiya İdarəsinin təşkil etdiyi seminarda Universiteti layiqincə təmsil ediblər.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq beynəlxalq təcrübədən, qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanaraq ölkəmizdə yeni nəsil yüksək ixtisaslı mütəxəssislərin hazırlanması qarşıda duran başlıca məqsədlərdən biridir. Bu baxımdan BDU-da tədrisin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması və Universitetin beynəlxalq rəqabətliliyinin artırılması məsələsinə xüsusi diqqət yetirilir və dünyanın bir sıra qabaqcıl universitetləri ilə beynəlxalq ikili diplomproqramlarının həyata keçirilməsi istiqamətində davamlı işlər görülür.

Hazırda Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi ABŞ, Kanada, İsveçrə, Rusiya, Almaniya, İtaliya, Polşa, Fransa, Türkiyə, Qazaxıstan və Qırğızıstanın bir sıra qabaqcıl elm və təhsil müəssisələri ilə sıx əməkdaşlıq edir. Fakültədə müxtəlif kafedralardan olan professor-müəllim heyəti xarici və yerli universitetlərdə keçirilən beynəlxalq və respublika konfranslarında iştirak edir. Fakültədə mütəmadi olaraq tələbə, magistrant, doktorant və professor-müəllim heyəti üçün impakt səviyyəli beynəlxalq jurnallarda məqalələrin nəşr edilməsinə dair təlimlər həyata keçirilir. Son illər Türkiyənin nüfuzlu universitetlərindən olan nümayəndə heyətləri ilə görüşlər təşkil olunub və birgə tədqiqat işləri, ikili diplom proqramı və bu kimi məsələlər üzrə danışıqlar aparılıb.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi ölkəmizdə yerləşən müxtəlif diplomatik korpuslarla geniş əməkdaşlıq edir. Fakültə təhsilin beynəlxalq standartlara cavab verməsi üçün müxtəlif universitetlər ilə əməkdaşlığı daim diqqət mərkəzində saxlayır.

İqtisadiyyat və idarəetmə sahəsində hərtərəfli təhsilə, müasir düşüncəyə sahib, işgüzar münasibətlərin qurulması və təhlilinin müasir metodlarını bilən və onları real olaraq tətbiq etmək bacarığına malik mütəxəssislərin hazırlanması məqsədi ilə BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi və ABŞ-nin Linkoln Universitetinin Biznes inzibatçılığı üzrə magistratura (MBA) proqramı bazasında "Biznesin təşkili və idarə edilməsi (maliyyə üzrə)" ixtisaslaşmasında ikili diplom proqramı hazırlanıb.

Beynəlxalq münasibətlər sahəsində hərtərəfli təhsili və biliyi olan, müasir düşüncəyə sahib, diplomatik münasibətlərin qurulması və təhlilinin müasir metodlarını bilən və onları real olaraq tətbiq etmək bacarığına malik mütəxəssislərin hazırlanması məqsədi ilə BDU və İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (UBİS) arasında "Beynəlxalq münasibətlər" ixtisası üzrə magistratura səviyyəsində ikili diplom proqramı hazırlanıb. 2022-ci ildən etibarən bakalavriat səviyyəsi üzrə "Beynəlxalq münasibətlər" ixtisası üzrə BDU və Qazaxıstanın Ş.Yessenov adına Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universiteti arasında ikili diplom proqramı imzalanıb.

Fakültə tələbələrinin uğurları daha sevindiricidir. Onlar BDU-nun daxili və beynəlxalq səviyyəli tədbirlərinin ən fəal iştirakçılarıdırlar. Universitetlərarası beynəlxalq humanitar yarışmasında fakültə komandası ardıcıl olaraq qalib olub və Beynəlxalq Qırmızı Xaç Komitəsinin diplomlarına layiq görülüb. Fakültənin tələbələri müxtəlif illərdə beynəlxalq hüquqa dair ABŞ-da, Rusiyada və digər ölkələrdə keçirilən beynəlxalq müsabiqələrin qalibi, Moskvada keçirilən "Nə? Harada? Nə zaman?" intellektual oyunlarının ən güclü iştirakçısı olublar.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində tələbələrin asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif tədbirlər keçirilir. Bu məqsədlə mütəmadi olaraq BDU-nun Quba Tədris-təcrübə və istirahət mərkəzinə, paytaxt və regionlarda yerləşən muzeylərə, tarixi abidələrə ekskursiyalar təşkil edilir. Son dövrlər Universitetdə tələbələrin hərtərəfli inkişafı üçün xüsusilə geniş şərait yaradılıb. BDU-da fəaliyyət göstərən İdman-sağlamlıq mərkəzi, Mədəniyyət-yaradıcılıq mərkəzi, Psixoloji yardım sektoru kimi təsisatlar tələbələrin fiziki və əqli cəhətdən sağlam inkişafı ilə yanaşı, onların istirahətinin də təmin edilməsinə hesablanıb. Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbələri yaradılan şəraitdən bəhrələnərək, Universitetin mədəni, ictimai, sosial həyatında aktiv iştirak edirlər. Fakültənin oğlanlardan ibarət futbol komandası hər il universitetdaxili çempionatda çıxış edir. Fakültədə mütəmadi olaraq intellektual oyunlar və müxtəlif elmi-sosial müsabiqələr keçirilir. Eyni zamanda ölkədə fəaliyyət göstərən beynəlxalq münasibətlər və iqtisadiyyat profilli elmi-tədqiqat müəssisələri və institutları ilə əməkdaşlıq həyata keçirilir.

# BDU-nun gənc tədqiqatçıları Makedoniya Kimyaçıları və Texnoloqları Cəmiyyətinin 27-ci Konqresində iştirak ediblər

***BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının (ETL) aparıcı elmi işçisi Lalə Qəhrəmanlı, elmi işçiləri Orxan Güləhmədov və Aynurə Kərimova Şimali Makedoniyanın Ohrid şəhərində keçirilən Makedoniya Kimyaçıları və Texnoloqları Cəmiyyətinin 27-ci Konqresində (27th Congress of the Society of Chemists and Technologists of Macedonia) iştirak ediblər.***

Elmi dialoqun inkişaf etdirilməsi və qabaqcıl araşdırmaların təqdim edilməsinə yönəlmiş konqresdə BDU əməkdaşları "Sonokimyəvi və SILAR üsulları ilə əldə olunan CdxZn1-xS əsaslı nanokompozit materialların fiziki xüsusiyyətləri", "Qamma şüalanmanın və termik işləmənin qrafen oksid əsaslı kompozit materiallara təsiri", "Neylon/qrafen nanokompozit təbəqələri ilə triboelektrik nanogeneratorların təkmilləşdirilməsi", "Xitozan və çarpaz tikilmiş xitozan ilə örtülmüş xrizin yüklü dəmir oksid nanohissəcikləri: Quruluş tədqiqi" adlı mövzularda çıxışlar edib, iştirakçıların suallarını cavablandırıblar.

Multidissiplinar xarakterli konqres 22 ölkədən olan alim, tədqiqatçı, akademik və sənaye mütəxəssislərinin iştirakı ilə ən son elmi nailiyyətləri müzakirə, müasir cəmiyyətin çağırışlarına cavab verən elmi və texnoloji həllərin inkişafını təşviq etmək məqsədi daşıyır.

BDU əməkdaşları konqresin təşkilatçısı, professor Jadranka Blazhevska Gilev və dəvət olunmuş spiker, professor Stefano Bellucci ilə görüşüb, əməkdaşlıqla bağlı müzakirə aparıblar.

# BDU-105: Prezident təqaüdçülərinin sayına görə ölkədə birinci yerdə olan Hüquq fakültəsi

***Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı BDU-nun auditoriyalarında Azərbaycan elminin, ictimai fikrinin, dövlətçiliyinin formalaşmasında mühüm rol oynamış elm və dövlət xadimləri yetişib.*** BDU-nun dünya şöhrətli məzunu, müstəqil Azərbaycan dövlətinin banisi, Ulu Öndər Heydər Əliyev BDU-nun Tarix fakültəsinin məzunudur.

Elm və təhsili qırılmaz şəkildə birləşdirən Hüquq fakültəsi BDU-nun aparıcı, nüfuzlu və ən böyük fakültələrindən biridir. Fakültə uzun illərdir ki, yüksəkixtisaslı hüquqşünas kadrlar yetişdirərək, respublikanın hüquq-mühafizə orqanlarını, dövlət və hökumət (qeyri-hökumət) qurumlarını hüquqşünas kadrlarla təmin edir. Azərbaycanda hüquq elminin inkişafında Hüquq fakültəsinin yetirmələrinin rolu danılmazdır. Bu gün də məhz Hüquq fakültəsi respublikada hüquq elminin inkişafında və hüquq üzrə elmi-pedaqoji kadrların hazırlanmasında əsas aparıcı mərkəzdir. Fakültə beynəlxalq əməkdaşlıq xəttində dünyanın aparıcı dövlətlərinin ali hüquq məktəbləri ilə sıx əməkdaşlıq edir.

Hüquq fakültəsi 1928-ci il dekabrın 17-də BDU-nun Hüquq şöbəsinin bazasında yaradılıb. Fakültənin yaradılmasında Universitetin o dövrdəki rektoru (ilk azərbaycanlı rektoru), böyük təşkilatçı, görkəmli ədib və dövlət xadimi Tağı Şahbazinin müstəsna xidmətləri olub.

Hüquq fakültəsi iki şöbə – Məhkəmə və İnzibati-təsərrüfat şöbələri və 11 kafedradan ibarət yaradılıb. Hüquq və dövlət nəzəriyyəsi, Tarixi və dialektik materializm, Hüquq fəlsəfəsi, Təsərrüfat məişəti tarixi, Beynəlxalq hüquq, Cinayət hüququ, Təsərrüfat hüququ, Mülki hüquq, Dövlət hüququ, Ticarət-sənaye hüququ və Statistika kafedraları öz növbəsində Fəlsəfə-sosiologiya, Hüquq və İqtisad fənn komissiyalarında birləşirdi. Dövlət və hüquq nəzəriyyəsi üzrə tanınmış hüquqşünas alim, professor A.O.Mişel Hüquq fakültəsinin ilk dekanı oldu.

Hüquq fakültəsinin tarixinə onun ilk azərbaycanlı dekanı kimi daxil olmuş dosent M.Y.Quliyev fakültəyə 3 il başçılıq edib. Petroqrad Universitetinin Hüquq fakültəsinin 1916-cı il məzunu və mülki hüquq üzrə görkəmli alim olan professor Qasım Cəfərov müstəqil Hüquq fakültəsinin tarixinə onun ikinci azərbaycanlı dekanı kimi daxil olub. O, Hüquq fakültəsinə qısa fasilələrlə 16 il (1936-1952) rəhbərlik edib. 1952-1962-ci illərdə fakültənin dekanı dosent Qurban Məmmədov olub.

Bütün Azərbaycanda olduğu kimi, BDU-nun və onun Hüquq fakültəsinin inkişafında yeni mərhələ 1969-cu ildən başlayır.



Respublikanın rəhbəri Ulu Öndər Heydər Əliyevin təşəbbüsü nəticəsində hüquq təhsili və elmi sahəsində çalışan alimlərin milliləşdirilməsi surətlə davam edib. Bu zaman əsas istiqamətlərdən biri insanların hüquq təhsili və mədəniyyətinin genişləndirilməsi, cəmiyyətdə hüquqi təfəkkürün, hüquqi mədəniyyətin və hüquqi düşüncə tərzinin inkişafı idi. Respublika çərçivəsində 1970-ci il dekabr ayının 4-də qəbul edilmiş "Zəhmətkeşlərin hüquqi tərbiyəsini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar da məhz Ulu Öndərin rəhbərliyi və təşəbbüsü ilə həyata keçirilmişdi. Bu qərarla ali və orta ixtisas məktəblərində hüququn əsaslarının tədrisi və öyrənilməsi işini yaxşılaşdırmaq, tədris müəssisələri vasitəsilə hüquqi biliklərin təbliğini gücləndirmək, qanunvericiliyin ən aktual məsələlərinin gənc nəslə öyrədilməsinə və izah olunmasına, hüquq qaydalarının möhkəmləndirilməsinə yönəldilən tədbirlərin işlənib hazırlanması və s. kimi məsələlər nəzərdə tutulmuşdu. O dövrdə Hüquq fakültəsinin kollektivi məhz Ümummilli Lider Heydər Əliyevin birbaşa göstərişi ilə bu proseslərə fəal cəlb edilib, fakültə ilə hüquq-mühafizə orqanlarının əməkdaşlıq əlaqələri daha sıx qurulub. 1971-ci ildə Universitetdə ictimai əsaslarla işləyən Hüquq məsləhətxanası açıldı. Bu dövrdən başlayaraq Hüquq fakültəsinin müəllim heyətinin respublikanın şəhər və rayonlarına davamlı olaraq ezam olunmasına başlanıldı.

Bu zaman Azərbaycanda Hüquq fakültəsinə tələbə kimi daxil olmaqda mövcud maneələr aradan qaldırıldı. O dövrdə Hüquq fakültəsinə daxil olanlar əsasən partiya və digər dövlət orqanlarının yüksək vəzifəli şəxslərinin övladları idi. Ulu Öndər sovet Azərbaycanının rəhbəri kimi bu ədalətsizliyi aradan qaldırdı və Hüquq fakültəsini tamamilə xalqın fakültəsinə çevirdi.

1980-1985-ci illərdə Hüquq fakültəsinin dekanı hüquq elmləri doktoru, professor İsa Məmmədov, 1985-1989-cu illərdə professor Firudin Səməndərov, 1989-cu ildən 1998-ci ilə qədər hüquq elmləri doktoru, professor Məmmədxan Rəsulov, 2001-2002-ci illərdə professor Namiq Əliyev, 2002-2003-cü illərdə professor Yusif Mehdiyev, 2003-2007-ci illərdə professor Kamilə Sarıcalinskaya olub. 2007-2011-ci illərdə Hüquq fakültəsində dekan vəzifəsini müvəqqəti olaraq yenidən professor Firudun Səməndərov icra edib. 2011-2022-ci illərdə Hüquq fakültəsinin dekanı hüquq elmləri doktoru, professor Əmir Əliyev olub. 2022-ci ildən Hüquq fakültəsinin dekanı hüquq üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyevdir.

Hazırda Hüquq fakültəsində 25-dən çox hüquq elmləri doktoru və 100-ə yaxın hüquq üzrə fəlsəfə doktoru olmaqla 120-dən artıq professor-müəllim heyəti fəaliyyət göstərir. Hüquq ixtisası üzrə Avropa, ABŞ, Türkiyə və digər xarici dövlətlərdə təhsil almış azərbaycanlı məzunlar da bu gün Hüquq fakültəsində tədris prosesini uğurla aparırlar.

Fəaliyyət göstərdiyi müddətdə fakültə on minlərlə peşəkar hüquqşünas kadr yetişdirib, respublikanın hüquq-mühafizə orqanlarını, dövlət və hökumət qurumlarını hüquqşünas kadrlarla təmin edib. 2008-2009-cu tədris ilindən Hüquq fakültəsində Bolonya sisteminin tətbiqinə başlanılıb. Hüquq fakültəsi üzrə beynəlxalq təcrübə nəzərə alınmaqla 2014-2015-ci tədris ilindən isə yeni təhsil standartları işlənib hazırlanıb.

Hazırda Hüquq fakültəsində aşağıdakı kafedralar və digər struktur bölmələri fəaliyyət göstərir: Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrası - kafedra müdiri AMEA-nın müxbir üzvü, hüquq elmləri doktoru, professor Məsumə Məlikova; Konstitusiya hüququ kafedrası - kafedra müdiri hüquq üzrə fəlsəfə doktoru, professor Ziyafət Əsgərov; Cinayət hüququ və kriminologiya kafedrası - kafedra müdiri hüquq elmləri doktoru, professor Şəhla Səmədova; Mülki hüquq kafedrası kafedra müdiri hüquq üzrə fəlsəfə doktoru, dosent Şükür Yusifov; Beynəlxalq ümumi hüquq kafedrası – kafedra müdiri hüquq elmləri doktoru, professor Rüstəm Məmmədov; İnsan hüquqları və informasiya hüququ UNESCO kafedra müdiri hüquq elmləri doktoru, dosent Turqay Hüseynov; Cinayət prosesi kafedrası – kafedra müdiri hüquq elmləri doktoru, professor Firuzə Abbasova; Mülki proses və kommersiya hüququ kafedrası – kafedra müdiri hüquq üzrə fəlsəfə doktoru, dosent Əsmər Əliyeva; Əmək və ekologiya hüququ kafedrası – kafedra müdiri hüquq elmləri doktoru, professor Alış Qasımov; Kriminalistika və məhkəmə ekspertizası kafedrası - kafedra müdiri hüquq elmləri doktoru, professor Kamil Səlimov; Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrası - kafedra müdiri hüquq üzrə fəlsəfə doktoru, dosent Əlizadə Məmmədov; Əqli mülkiyyət hüququ kafedrası - kafedra müdiri vəzifəsini icra edən hüquq üzrə fəlsəfə doktoru Aydın Səfixanlı; Hüquq Klinikası; Kriminalistika laboratoriyası – laboratoriya müdiri Akif Əliyev; Dəniz və enerji hüququ mərkəzi - rəhbər hüquq üzrə fəlsəfə doktoru, dosent Bəhruz Məhərrəmov; Müqayisəli hüquqi araşdırmalar mərkəzi.

Hazırda Hüquq fakültəsində təhsil bakalavriat, magistratura və ikipilləli doktorantura səviyyələri üzrə Azərbaycan, ingilis və rus dillərində həyata keçirilir. Fakültədə bakalavriat səviyyəsi üzrə 1600-dən, magistratura səviyyəsi üzrə 200-dən artıq tələbə təhsil alır, doktoranturada isə 100-dən çox tədqiqatçı hüquq elminin müxtəlif sahələri üzrə elmi tədqiqat işi yerinə yetirir.

Fakültə Prezident təqaüdçülərinin sayına görə ölkədə və BDU-da birinci yerdədir.

Hüquq fakültəsində bakalavriat təhsil səviyyəsində bir ixtisas - "Hüquqşünaslıq" ixtisası üzrə 83, magistratura təhsil səviyyəsində isə 21 ixtisaslaşma üzrə 250-dən artıq fənn tədris olunur.

Fakültədə bakalavriat və magistratura səviyyəsi üçün müasir dövrün tələblərinə uyğun tədris planları, fənn proqramları, dərsliklər işlənib hazırlanıb. Təkcə 2022-2023-cü tədris ilində fakültə üzrə nəşrlərin sayı 200-ə yaxın olub.

Magistratura səviyyəsində "Dövlət və hüquq nəzəriyyəsi və tarixi", "Dövlət hüququ", "Cinayət hüququ", "Cinayət prosesi", "Kriminalistika və məhkəmə ekspertizası", "Mülki və təsərrüfat hüququ", "Beynəlxalq hüquq", "Transmilli cinayət hüququ", "İnsan hüquqları", "Kommersiya hüququ", "Avropa hüququ", "Dəniz və enerji hüququ", "İnformasiya hüququ", "İdman hüququ", "Turizm hüququ", "Tibbi hüquq", "Əqli mülkiyyət hüququ", "Beynəlxalq iqtisadi hüquq", "Əmək hüququ", "Sosial təminat hüququ", "Ekologiya hüququ", "Vergi hüququ", "İnzibati hüquq", "İnzibati proses", "İqtisadi və maliyyə hüququ", "Mədəniyyət hüququ" ixtisaslaşmaları üzrə kadrlar hazırlanır.

2023-cü ildən Hüquq fakültəsində fəaliyyət göstərən daimi Dissertasiya Şurasında "Beynəlxalq hüquq; insan hüquqları", "Dövlət və hüquq nəzəriyyəsi və tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi", "Mülki hüquq; sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq", "İnzibati hüquq, maliyyə hüququ və informasiya hüququ" ixtisasları üzrə hüquq üzrə fəlsəfə doktoru dissertasiyalarının, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının müvafiq əmrləri əsasında isə digər ixtisaslar üzrə də hüquq üzrə fəlsəfə və elmlər doktoru dissertasiyalarının müdafiələri keçirilir.

Fakültədə Tələbə Elmi Cəmiyyəti, Tələbə Həmkarlar Təşkilatı, Tələbə Gənclər Təşkilatı, Cinayət Hüququ Klubu aktiv fəaliyyət göstərir.

Hüquq fakültəsində redaksiya heyəti nüfuzlu yerli və xarici alimlərdən ibarət "Beynəlxalq hüquq və inteqrasiya problemləri" (ingilis dilində) və "Azərbaycan hüquq jurnalı" adlı xüsusi elmi-analitik və praktiki jurnallar buraxılır. Bundan başqa, Hüquq fakültəsində Tələbə Elmi Cəmiyyəti tərəfindən "Hein Online" və "SCOPUS" məlumat bazasına daxil olan "Tələbə Hüquq Jurnalı" dərc edilir. "Tələbə Hüquq Jurnalı" Cənubi Qafqazda "HeinOnline" hüquqi araşdırma məlumat bazasında yerləşdirilən ilk və "SCOPUS" məlumat bazasına daxil olan yeganə hüquq jurnalıdır.

Fakültədə mütəmadi olaraq beynəlxalq və respublika səviyyəli elmi-praktiki konfranslar keçirilir və onların materialları dərc edilir.

Hüquq fakültəsinin beynəlxalq əlaqələri olduqca genişdir. Belə ki, fakültənin ABŞ-nin Tüleyn Universiteti, Almaniyanın Vürzburq və Martin Lüter adına Halle-Vittenberq universitetləri, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, Türkiyənin Ankara və İstanbul universitetləri, T.Q.Şevçenko adına Kiyev Milli Universiteti, Tbilisi Dövlət Universiteti, Qazaxıstanın Əl-Fərabi və A.Qumilyov adına Avrasiya universitetlərinin, Moldova Dövlət Universitetinin Hüquq fakültələri ilə, habelə Almaniyanın Maks Plank adına Beynəlxalq və Müqayisəli Cinayət Hüququ İnstitutu, Moskva Dövlət Hüquq Akademiyası, Rusiya Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutu, Ukrayna Milli Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutu və digər mötəbər elm-təhsil ocaqları ilə geniş elmi əlaqələri qurulub.



Tüleyn Universiteti Hüquq fakültəsi və BDU-nun Hüquq fakültəsi arasında Dəniz və enerji hüququ sahəsində magistratura proqramının təşkili ilə bağı niyyət protokolu imzalanıb. Artıq bir neçə ildir ki, "Dəniz və enerji hüququ" ixtisasına qəbul müvəffəqiyyətlə həyata keçirilir. Tədrisin bəzi fənləri ilkin dövrdə əcnəbi mütəxəssislərin iştirakı ilə aparılırb. Hər iki fakültənin birgə iki beynəlxalq konfransı keçirilib. Hazırda isə fakültənin magistratura təhsil pilləsində "Dəniz və enerji hüququ" ixtisası üzrə Qazaxıstanın Əl-Fərabi adına Universiteti ilə ikili diplom üzrə əməkdaşlıq həyata keçirilir.

BDU ilə Almaniyanın Maks Plank adına Beynəlxalq və Müqayisəli Cinayət Hüququ İnstitutu arasında 2013 və 2014-cü illərdə imzalanmış memorandumlara əsasən isə, Hüquq fakültəsində "Transmilli cinayət hüququ" ixtisası üzrə magistratura pilləsinə qəbul həyata keçirilir. Magistraturanın "Avropa hüququ" ixtisaslaşması Almaniyanın Vürzburq Universiteti və BDU arasında imzalanmış 2011 və 2014-cü il tarixli memorandumlara əsasən qurulub. 30-dan çox məzuna BDU-nun diplomu ilə yanaşı, "Avropa hüququ" ixtisaslaşması üzrə Vürzburq Universitetinin diplomları da verilib. Fransanın Lion-2 Universiteti ilə "Əqli mülkiyyət hüququ" magistratura ixtisaslaşması sahəsində də ikili diplom proqramı üzrə magistr hazırlığı həyata keçirilir.

Fakültənin tarixində ilk dəfə olaraq 2023-cü ildə müəllim və tələbə heyətinin Avropa Şurasının (AŞ) təşkilatçılığı ilə Strasburq şəhərinə AŞ-nin mənzil-qərargahına təlim səfəri baş tutub. Eləcə də fakültənin tarixində ilk dəfə olaraq "Tələbədən tələbəyə" layihəsinin icrasına başlanılıb. Layihənin əsas məqsədi tələbələrin tədris prosesinə cəlb edilməsi işinin təşkilindən ibarət olan bu layihə çərçivəsində xüsusi təlim keçmiş yuxarı kurs tələbələri tərəfindən aşağı kurs tələbələri üçün hüquqa dair müxtəlif mövzular üzrə interaktiv təlimlərin keçirilməsidir.

Hüquq fakültəsinin maraqlı tədbirlərinin sırasında 2022-ci ildən təsis edilən "Cinayətkarlıqla mübarizədə nəzəri və praktiki mübadilə" adlı layihə çərçivəsində tələbələrin görkəmli hüquqşünaslarla (məsələn, Azərbaycan Respublikasının Əməkdar hüquqşünası, Rusiya Elmlər Akademiyasının akademiki, professor İlham Rəhimovla, Əməkdar hüquqşünas İkram Kərimovla və s.) görüşlərini, müxtəlif digər maraqlı tədbirlərini də qeyd etmək lazımdır.

Bundan başqa, Hüquq fakültəsinin tələbələrinin iştirakı ilə mütəmadi olaraq parlament və məhkəmə simulyasiyaları keçirilir. Onların sırasında 2022-2024-cü illərdə "Səhnələşdirilmiş parlament debatı", "Gözlənilən mühakimə", "İttiham, yoxsa Bəraət?" adlı simulyasiyaları qeyd etmək olar.

Tədris prosesinə yeni metodikaların tətbiqi və tədrisin təkmilləşdirilməsi yeni dərslik, dərs vəsaiti və proqramların yazılmasına dəstək göstərilməsini də ehtiva edir. Son iki il ərzində Hüquq fakültəsində onlarla dərslik, dərs vəsaiti, monoqrafiya, proqram dərc olunub. Bu əsərlərin əksəriyyəti Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə və Hüquq fakültəsinin 95 illiyinə həsr edilib.

Hüquq fakültəsinin məzunları olan Vətən müharibəsi iştirakçılarına xüsusi qayğı göstərməsi də tələbələrə vətənpərvərlik hissinin aşılanmasının bariz nümunəsidir. Bu istiqamətdə işlər çərçivəsində fakültənin kollektivi Hüquq fakültəsinin məzunları və tələbələri olan Vətən müharibəsi iştirakçıları ilə mütəmadi görüşlər təşkil edir. Qazilər, o cümlədən Hüquq fakültəsinin məzunu, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmiş şəhid Ceyhun Şalıyevin ailəsi Zəfər Günü münasibətilə təşəkkürnamə ilə təltif ediliblər.

2024-cü ildə fakültənin keçirdiyi ən önəmli tədbirlərdən biri də Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 20 illiyinə həsr edilmiş "Respublika Hüquq Olimpiadası" olub. Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ərəfəsində keçirilən Olimpiada bu formatda hüququn bütün əsas sahələrini əhatə edən olimpiada kimi respublikamızda ilk dəfə keçirilib.

26 avqust 2024-cü il tarixində fakültənin tələbələri uşaq evini ziyarət ediblər. Ziyarət çərçivəsində tələbələr uşaqlarla səmərəli vaxt keçirib, interaktiv və əyləncəli oyunlar təşkil ediblər. Uşaqların sevinc dolu anlar yaşadığı bu ziyarət zamanı tələbələr Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xeyirxahlıq missiyası, uşaqların rifahı və xoşbəxtliyi naminə çoxşaxəli fəaliyyəti, həssas qruplara, xüsusilə uşaqlara göstərdiyi diqqət və qayğı haqqında geniş məlumat veriblər.

İstər ayrı-ayrı tədbirlərdə, istərsə də tələbələr qarşısında mütəmadi çıxışları zamanı fakültənin professor-müəllim heyəti Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə elmin inkişafına böyük diqqət və qayğı göstərdiyini, respublikamızda elmin sürətli inkişaf mərhələsinin, köklü hüquqi islahatların məhz Ulu Öndərin adı ilə bağlı olduğunu, Ulu Öndərin başladığı səmərəli islahatların Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, dövlət başçısının imzaladığı aktların qısa dövr ərzində elm və təhsilin dinamik inkişafını təmin etdiyini, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Ulu Öndərin adını daşıyan Fondun həyata keçirdiyi müxtəlif layihələrin məhz təhsilin inkişafına xidmət etdiyini, bu sahədə Heydər Əliyev Fondunun əvəzsiz rolunu xüsusi vurğulayır.

Əminik ki, Ulu Öndər Heydər Əliyevin "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı 105 illik Bakı Dövlət Universitetinin 96 illik zəngin tarixə malik Hüquq fakültəsi ölkəmizdə hüquqşünas kadrların yetişdirildiyi, hüquq elminin aktual problemlərinin tədqiq olunduğu əsas mərkəz kimi nüfuzunu daim yüksəldəcəkdir.

# BDU-da tələbələrin ifasında "Ölülər" tamaşası nümayiş olunub

***Sentyabrın 23-də BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzi tələbələrin ifasında "Ölülər" tamaşasını nümayiş etdirib.***

Tamaşanın quruluşçu rejissoru Vahid Orucoğlu, işıq rejissoru Məsud Qurbanov, səs rejissoru Arif Əliyevdir. Tamaşada BDU tələbələri Eltac Abbasov, Hüseyn Cabbarlı, Nuran Atakişiyev, İsmayıl İsmayılov, Kənan Neymətzadə, Ayaz Zeynalzadə, Nərmin Zeynalova, Ülviyyə Orucova, Tural Behbudov, Aydın Məmmədzadə, Yunis Yusif, Ramazan Abdulkərimov, Varis Əhmədli, Aytac Qədirzadə, Üzeyir Kərimov, Selcan İbrahimova, Murad Qəmbərov, Rəna Əsədova, Zülfüqar Muxtarlı, Fidan Sultanova, Fərid Əhmədov rol alıblar.

1909-cu ildə yazılan, dörd məclis və beş pərdədən ibarət "Ölülər" tragikomediyası ilk dəfə 1916-cı il aprelin 29-da Bakıda səhnələşdirilib.

Pyes milli dramaturgiyamızda ilk tragikomediya janrlı əsərdir və ötən müddətdə həm Azərbaycanda, həm də xaricdə tamaşaya qoyularaq böyük uğur qazanıb.

# BDU-da çiçəkəkmə aksiyası



***Sentyabrın 16-da BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Bilik Gününə həsr olunmuş çiçəkəkmə aksiyası keçirilib.***

Çiçəkəkmə aksiyasında THİK, "BDU könüllüləri", Tələbə Gənclər Təşkilatının üzvləri, müxtəlif fakültələrin tələbələri iştirak ediblər.

Aksiyanın məqsədi ətraf mühitin qorunmasına kömək etmək, ekoloji tərbiyəni gücləndirmək və təbiətə töhfə verməkdir.

# BDU-nun "ESST-6" komandası "TEKNOFEST-2024"də III yeri qazanıb




***BDU-nun "ESST-6" komandası "TEKNOFEST-2024" Aerokosmik və Texnologiya Festivalının final mərhələsində III yerə layiq görülüb.***

"ESST-6" komandası festivalın finalında "Aqrar texnologiyalar" kateqoriyasında "E-tarım sulama" layihəsi ilə təmsil olunub. Layihə kiçik miqdarda maliyyə sərf etməklə yüksəkkeyfiyyətli ağıllı suvarma texnologiyasının yaradılmasına yönəlib. Bu sistem bitkilərə yalnız ehtiyac duyduqları qədər su verərək su israfını minimuma endirir və su istifadəsini daha səmərəli idarə edir. Layihənin əsas məqsədi suvarma proseslərini daha effektiv və sürətli, kənd təsərrüfatı sahəsində çalışanları daha yüksək məhsuldarlıqla təmin etməkdir.

Qeyd edək ki, "TEKNOFEST-2024"ün finalında 1270 komanda, 6514 finalçı yarışıb.

"TEKNOFEST-2024" qaliblərinin mükafatlanma mərasimi 2-6 oktyabr tarixlərində Adana Şakitpaşa hava limanında keçiriləcək.

Qalib komandamızı təbrik edir, daha böyük uğurlar arzulayırıq!

# BDU-da Bilik Günü qeyd olunub





***Sentyabrın 16-da Bakı Dövlət Universitetində Bilik Günü münasibətilə tədbir keçirilib.***

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

BDU-nun rektoru Elçin Babayev professor-müəllim heyətini və tələbələri yeni tədris ilinin başlaması münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb. Rektor qalib ölkəmiz və xalqımız üçün bu tədris ilinin əlamətdar olduğunu, Qarabağda, Şərqi Zəngəzurda yeni məktəblərin açıldığını, Qarabağ Universitetinin fəaliyyətə başladığını bildirib. Rektor 105 illik yubileyi qeyd olunan BDU-nun zəngin tarixi və ənənələri olduğunu diqqətə çatdırıb. 1919-cu ildə cəmi 2 fakültə ilə fəaliyyətə başlayan BDU-da hazırda 16 fakültə, onlarla mərkəz, laboratoriya, iki elmi-tədqiqat institutu, bir kollec, bir filial, bir lisey var. BDU Azərbaycanda nüfuzlu QS reytinq agentliyinin hesabatına əsasən, dünyanın ən yaxşı 1000 universiteti sıyahısına düşən yeganə universitetdir: “Gəlin bu ənənələri yaşadaq, daha da inkişaf etdirək. Ölkəmizin və BDU-nun şöhrətini ucalara qaldıraq. Unutmayın ki, siz Ümummilli Lider Heydər Əliyevin məzunu olduğu Universitetin tələbələrisiz. Bu adı şərəflə daşıyacağınıza əminəm”.

Milli Məclisin üzvü BDU İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyev və BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov çıxışlarında müəllim və tələbələri Bilik Günü münasibətilə təbrik edib, təhsil həyatlarında uğurlar arzulayıblar.



Sonra 2024/2025-ci tədris ilində bakalavr pilləsi üzrə “Hüquqşünaslıq” (tədris ingilis dilində) ixtisasına 684.1 balla qəbul olunan Sevil Gülməliyeva, BDU-nun nəzdində “Gənc istedadlar” liseyinə ən yüksək 56.5 balla qəbul olunan Ömər Əziz, Vətən müharibəsi şəhidi, gizir Mayis Səmədovun övladı, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin I kurs tələbəsi Məleykə Səmədova çıxış edərək, arzu və istəklərini bildiriblər.

Tədbir Cəmşid Naxçıvanski adına Hərbi Liseyin orkestrinin müşayiəti ilə marş sədaları altında başa çatıb.

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyində, İqtisadiyyat və Humanitar Kollecdə və Qazax filialında Bilik Günü

***Sentyabrın 16-da BDU-nun nəzdində “Gənc istedadlar” liseyində, İqtisadiyyat və Humanitar Kollecdə və Qazax filialında 15 sentyabr – Bilik Günü münasibətilə tədbirlər keçirilib.***



Tədbirlər müstəqil Azərbaycanın xilaskarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

“Gənc istedadlar” liseyində keçirilən tədbirdə çıxış edən liseyin direktoru Fuad Babayev müəllim və şagirdləri yeni dərs ili münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb.

Sonra liseyə yeni qəbul olunan V sinif şagirdləri vətənpərvərlik ruhunda şeirlər söyləyiblər. Tədbir ilk zəng sədaları ilə başa çatıb.

BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə keçirilən tədbirdə çıxış edən Kollecin direktoru Səhər Orucova yeni tədris ilinin başlaması münasibətilə müəllim və tələbələri təbrik edib.

Kollec direktoru son illər Azərbaycan təhsilində qazanılan nailiyyətlərdən və əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən islahatlardan söhbət açıb. Bildirib ki, Azərbaycanda elm və təhsil islahatları, reallaşdırılan məqsədyönlü layihələr bu sahələrin tərəqqisinə əhəmiyyətli töhfə verir.

Sonra tədbir bədii hissə ilə davam edib.

Universitetin Qazax filialında keçirilən tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, filialın direktoru Arif Rüstəmov, rayon ictimaiyyəti, müəllim və tələbələr iştirak ediblər. Filialın direktoru Arif Rüstəmov müəllim və tələbələri yeni dərs ilinin başlaması münasibətilə təbrik edib, uğurlar arzulayıb.

Filialın tədris və elmi işlər üzrə direktor müavini Məmməd Yusifov, Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının müdiri İradə Arıxova, I kurs tələbəsi Süreyya Kazımlının valideyni Aynur Süleymanova, 602 balla BDU-nun Qazax filialının “Azərbaycan dili və ədəbiyyatı müəllimliyi” ixtisasına qəbul olmuş Süreyya Kazımlı, 600 balla elə həmin ixtisasa qəbul olmuş Aysu Yusubova çıxışlarında tələbələri təbrik edib, təhsil uğurları arzulayıblar.

# BDU-da Bilik Günü münasibətilə konsert proqramı

***Bakı Dövlət Universitetində 15 sentyabr - Bilik Günü münasibətilə konsert proqramı təşkil olunub.***

Konsert proqramında BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin solistlərinin və tələbələrin ifasında Müslüm Maqomayevin "Azərbaycan", Şəfiqə Axundovanın "Mehriban olaq", Yusif Balasaqunlunun "Qutadqu bilik', Emin Sabitoğlunun "Azərbaycan" musiqiləri səsləndirilib.

Mərkəzin qızlardan ibarət rəqs ansamblının ifasında milli rəqslər nümayiş olunub.

# BDU-da yeni tədris ili başlayıb

***BDU-da 2024/2025-ci tədris ili başlayıb. BDU-da ilk dərslər qalib Azərbaycana və BDU-nun 105 illik yubileyinə həsr olunub. 2024/2025-cü tədris ilində BDU-da 76 ixtisas, 271 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir.***

Hazırda BDU-da bakalavriat səviyyəsi üzrə 22279 tələbə təhsil alır. Onlardan 7176-sı kişi, 15103-ü qadındır. Tələbələrdən 12316-sı humanitar, 9963-ü təbiət elmləri üzrə ixtisaslarda təhsil alır. BDU-nun bakalavriat səviyyəsi üzrə təhsil alan tələbələrin 15705-i dövlət sifarişi əsasında, 6574 nəfəri ödənişli əsaslarla oxuyur.

Yeni tədris ilində BDU-nun bakalavriat səviyyəsinə 5429 nəfər qəbul olunub. Onlardan 4014 nəfəri dövlət sifarişli, 1415 nəfər ödənişli əsaslarla təhsil alacaq. Qəbul olunanların 537 nəfəri 600-dən, 1098 nəfəri 500-dən yuxarı bal toplayıb.

2024/2025-ci tədris ilində BDU-nun magistraturasında 2256 tələbə təhsil alır. Onlardan 772-sı kişi, 1484-ü qadındır. BDU-nun magistrantlarının 664 nəfəri dövlət sifarişi əsasında, 1592 nəfəri ödənişli əsaslarla təhsil alır.

BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə 1739 tələbə, “Gənc istedadlar” liseyində 635 şagird təhsil alır.

Bütün tələbə və şagirdlərimizi yeni tədris ilinin başlaması münasibətilə təbrik edir, onlara təhsillərində və şəxsi həyatlarında uğurlar arzulayırıq!

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.09.2024

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08